*ANAR ƏRTOĞRUL BURCƏLİYEV*

# *Milli mədəniyyət tariximiz Heydər Əliyev ideyalarında*




*Gəncə – 2023*

**Redaktoru: Sailə Məhərrəmqızı**

***Teatrşünas-tənqidçi Anar Ərtoğrul Burcəliyevin “Milli mədəniyyət tariximiz Heydər Əliyev ideyalarında” kitabı Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ərəfəsində onun Azərbaycan mədəniyyətinə göstərmiş olduğu diqqət və qayğısından bəhs etməklə əziz xatirəsinə həsr olunur.***

***Kitab Nizami (Gəncə) Bələdiyyəsi, Kəpəz (Gəncə) Bələdiyyəsi və Dağlıq Şirvan Regional Mədəniyyət İdarəsinin maliyyə dəstəyi ilə nəşr edilmişdir.***



*Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir . Bu xüsusiyyətlərdən ən yüksəyi v ə böyüyü mədəniyyətdir !..*

***Heydər Əliyev***
***Ümummilli lider***

***Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin***

***S Ə R Ə N C A M I***

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət

göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi

geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 sentyabr 2022-ci il***

## *XX əsrin mədəniyyət tarixində yeni dövr*

Azərbaycan öz mədəniyyəti, incəsənəti, milli-mənəvi dəyərləri ilə hər zaman dünya xalqları içərisində seçilmiş və tanınmışdır. Xalqımızın milli-mənəvi dəyərlərinin kökləri hələ çox-çox qədim zamanlara gedib çıxmaqla, XX əsrdən başlayaraq yeni bir dövrə qədəm qoya bilmişdir. Məhz bu dövr ulu öndər Heydər Əliyevin adı ilə üzvü şəkildə bağlı olan xüsusi əhəmiyyətə malik olan zaman kəsiyi ilə bağlıdır. Ulu öndər deyirdi ki, "xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir". Məhz buna görədir ki, ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə xalqın mədəniyyətinin inkişaf mərhələlərini diqqət mərkəzində saxlamış, onun təbliğ edilməsi eləcə də öyrənilməsi istiqamətində səylərini əsirgəməmişdir.

Məhz Ulu öndər Heydər Əliyev yaxşı bilirdi ki, milli dövlətçilik dəyərlərinin əsasını ancaq və ancaq sağlam düşüncəli mədəniyyət təşkil edir. Elə bu kimi ideyaların formalaşması nəticəsində onun qayğısı sabahkı uğurlara yeganə təminatı ilə sağlam cəmiyyət quruculuğuna diqqətin artırılması, köklü mənəvi dəyərlərin məhz yeni nəslə və bütün cəmiyyətə daha dərindən əzmlə aşılanmasındadır.

Təsadüfi deyil ki, Heydər Əliyev Azərbaycan mədəniyyətini, onun tarixi köklərini məhz xalqın böyük sərvəti hesab edirdi. Elə ona görə də mədəni-mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin

yaradılması üçün mümkün olan hər addımda Azərbaycan mədəniyyətinin təbliğinə çalışırdı.

Açıq etiraf edim ki, XX əsrin sonlarında yetişən gənc nəsil olaraq xoşbəxt idik ki, məhz Ulu öndər Heydər Əliyev kimi şəxsiyyətlə bir epoxada yaşamaq bizim də taleyimizə nəsib olmaqla, ulu öndərin mədəniyyətimizə, incəsənətimizə göstərdiyi böyük qayğının şahidi olurduq.

Bu gün mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, Heydər Əliyevin böyük ideyalarının qayğısından bəhrələnməmiş olsun. Musiqimiz də, teatrımız da, kino sənətimiz də, heykəltaraşlıq və rəssamlığımız da, xalça sənətimiz də bugünkü inkişafında məhz ulu öndər Heydər Əliyevin çox dəyərli ideyalarından bəhrələnməklə inkişaf etmiş, tanınmış və uğurlara imza atmışdır. Fəaliyyəti müddətində Azərbaycan və azərbaycançılıq məfkurəsindən çixiş edən Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafında yeni bir dövrün əsasını qoymaqla, mədəniyyət tariximizi, milli-mənəvi dəyərlərimizi xüsusilə beynəlxalq aləmdə tanıda bilmişdir.

Xüsusi olaraq qeyd etmək istərdim ki, Azərbaycan mədəniyyətinin görkəmli xadimləri, sənət adamları məhz Heydər Əliyev dövründə olduğu qədər heç zaman tanınmamışlar. Heydər Əliyev mədəniyyətimizi yaradan, onu inkişaf etdirən insanların əməyini hər zaman yüksək qiymətləndirərək, onların daim qayğısını çəkir və onları qoruyurdu. Bu kimi sənət adamılarının adlarını sadalamaqla

bitən deyil. Azərbaycanın müqtədir sənətkarları postsovet dövründə məhz Heydər Əliyevin qayğısı nəticəsində Sosialist Əməyi Qəhrəmanı kimi SSRİ-nin ən yüksək fəxri adını almışlar. Ulu öndər Heydər Əliyev hər zaman bəstəkarların, kinematoqrafçıların, teatr xadimlərinin, rəssamların qurultaylarında, konfranslarında mütəmadi olaraq iştiraklar edir, bir daha problemlərinin öyrənilməsi, təhlili baxımından özünün dərin, məzmunlu nitqi ilə məsələlərin həlli yollarını göstərmiş olurdu. Mübağiləsiz demək olar ki, məhz onun hər bir çıxışı mədəniyyətin bir sahəsinin gələcək inkişaf proqramına çevrilirdi. O, Azərbaycan mədəniyyətinin hər hansı bir sahəsindən danışırdısa, elə hiss edirdin ki, bu sahənin mütəxəssisi söhbət edir. Səbəb isə bir idi, Heydər Əliyev özü də incəsənətə meyilli şəxsiyyət idi. Təsadüfi deyil ki, o, gəncliyində də incəsənətə gəlmək, memar olmaq istəyirdi. Amma zaman ulu öndəri siyasət memarına çevirə bildi. Çünki bu xalqın belə bir siyasi xadiminə çox böyük ehtiyacı vardı.

Hələ postsovet dönəmində Heydər Əliyev Azərbaycan mədəniyyətinin maddi-texniki bazasının formalaşması, möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi. Məhz onun xüsusi tapşırığı ilə kinoteatrlar, teatr binaları, muzeylər inşa olunurdu. Mədəniyyətimizin kadr potensialı gücləndirilirdi. SSRİ-nin ən nüfuzlu incəsənət yönlü ali məktəblərində Azərbaycan gəncləri təhsil alaraq paytaxt Bakıya dönürdülər. Təsadüfi deyil ki, Sankt-Peterburqun, Moskvanın teatr, rəssamlıq, musiqi üzrə ali təhsil ocaqlarını bitirmiş azərbay-

canlı gənclər bu gün mədəniyyətimizin aparıcı sənətkarlarıdır. Heydər Əliyev bu kimi kadr potensialının hazırlanmasında ona görə maraqlı idi ki, gələcək müstəqil Azərbaycanımız üçün onlar gərəkli olacaqdılar. Necə ki, oldular da.

Bu gün xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycan müstəqillik qazandıqdan sonra bir müddət mədəniyyətimiz böyük çətinliklər qarşısında qalsa da, Ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı sanki Azərbaycan mədəniyyətinin də tərəqqisinə yeni təkan vermiş oldu. Sosial problemlər ucbatından xarici ölkələrə üz tutan sənət adamları yenidən Vətənə döndülər və bununla da onlara xüsusi qayğı, diqqət göstərilməyə başlanıldı. Bağlanmış bir sıra teatrlar, kitabxanalar, muzeylər öz qapılarını yenidən tamaşaçıların, oxucuların üzünə açdı. Azərbaycanda bir çox teatr-tamaşa və konsert müəssisələri yenidən bərpa və təmir olunaraq istifadəyə verilmiş oldu. Həmçinin qeyd etmək lazımdır ki, mədəniyyətimizin inkişafına qayğı ilə yanaşan ulu öndər Heydər Əliyevin məlum xüsusi sərəncamları ilə bəstəkarlar və musiqişünaslara eləcə də aktyor və rejissorlara Prezident təqaüdü verildi. Onların bir çoxu “Şöhrət” ordeninə layiq görüldülər.

Həmçinin Azərbaycan kinosunun böyük əhatəli bir dövrü və inkişaf mərhələsi də Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bizə yaxşı məlumdur ki, bir sıra filmlərimizin yaranmasında ulu öndərin şəxsi təşəbbüsü olmuşdur. “Uzaq sahillərdə”, “İstintaq”, “Bir cənub şəhərində”, “Nəsimi”, “Ba-

bək” kimi filmlərin yaranması, postsovet senzurasından keçməsi də Heydər Əliyevin adı ilə bağlıdır.

Bəli, bu gün Heydər Əliyevin hakimiyyətə gəlişi ilə dondurulmuş kino istehsalı bərpa edilmiş, “Azərbaycanfilm”in fəaliyyətində xüsusi canlanma hiss edilməklə bu sahədə dövlət sifarişi ilə filmlərin istehsalına başlanılmışdır. Azərbaycanda beynəlxalq səviyyəli kinofestivallar keçirilərək, filmlərimiz beynəlxalq festivallarda nümayiş etdirilmişdir.

Qeyd etmək lazımdır ki, Ulu öndər Heydər Əliyevin 18 dekabr 2000-ci il tarixli məlum 588 saylı Sərncamı ilə Azərbaycanda ilk film nümayiş etdirildiyi gün yəni 2 avqust (1898) tarixi kino işçilərinin peşə bayramı kimi qeyd olunmağa başlanıldı. Ulu öndərin bu sahəyə xüsusi diqqət və qayğısı nəticəsində 1994-1996-cı illərdə iki film istehsal olunmuşdusa, 1998-2000-ci illər ərzində dövlət sifarişi ilə dörd tammetrajlı bədii film çəkilmişdir.

Onun respublikamıza rəhbərliyi dövründə dövlət statuslu teatrlarımız öz fəaliyyətlərini daha da genişləndirmişlər. O, teatrı çox sevirdi. O, həmişə tamaşadan sonra yaradıcı kollektivlə görüşür, onlara öz tövsiyə və tapşırıqlarını verirdi. Bu görüşlər sənət adamlarının məsuliyyətini daha da artırır, onları hər zaman yaradıcılıq axtarışlarında öz qüvvələrini səfərbər etməyə istiqamətləndirmiş olurdu.

Həmçinin qeyd etmək lazımdır ki, Ulu öndərin hakimiyyəti illərində muzey və kitabxana işi, rəssamlıq, heykəltaraşlıq, memarlıq sənəti də sürətlə inkişaf etmişdir.

Paytaxt Bakıda ucaldılmış çox dəyərli sənət əsərləri olan heykəllər, inşa edilmiş müasir və klassik ənənələri özündə birləşdirən əzəmətli binalar xalqımızın milli sərvətinə çevrilə bilmişdir. Azərbaycanın qədim şəhər-salma ənənələrini özündə ehtiva edən İçərişəhərin Şirvanşahlar Saray Kompleksi ilə birgə YUNESKO-nun maddi irs siyahısına daxil edilməsi də böyük tarixi hadisə idi.

Azərbaycan mədəniyyətinin təbliğini hər zaman diqqət mərkəzində saxlayan ulu öndərin hakimiyyəti illərində çox səmərəli tədbirlər reallaşdırılmışdır. Belə ki, Ümummilli lider Heydər Əliyev Azərbaycanın sivil dünya ilə inteqrasiyasına, xalqların iqtisadi-siyasi, humanitar yaxınlaşmasına dövlətçiliyi möhkəmləndirən, xalqı inkişaf etdirən ən vacib vasitələrdən biri kimi baxırdı. Və bu zaman dünya ilə dil tapmağın ən sınanmış və optimal yollarından biri olaraq, mədəni dəyərlərin qarşılıqlı dərkini və təbliğini əsas götürürdü. Bu mənada xarici ölkələrdə keçirilən Azərbaycan mədəniyyət və incəsənət günlərinin, eyni zamanda Azərbaycanda keçirilən belə tədbirlərin mədəniyyətlərarası dialoqun inkişafına böyük təkan verdiyini diqqətə çatdırmaqla xüsusi əhəmiyyətini qeyd edirdi.

Böyük qürurla qeyd etmək istərdim ki, Ulu öndər Heydər Əliyevin Azərbaycanımız olan doğma Vətənimiz üçün əvəzsiz fəaliyyəti incəsənətimizin bu gün ən dəyərli mövzusudur. Deyə bilərəm ki, onun haqqında çəkilən filmlər, yaradılan musiqi əsərləri və ədəbi əsərlər xalqımızın milli-mənəvi sərvəti olaraq gələcək nəsillər üçün böyük bir töhfədir.

Mübağiləsiz deyə biərəm ki, "Əsl məhəbbət haqqında" (rejissor V. Mustafayev) filmi ulu öndərin yüksək insani keyfiyyətləri haqqında həqiqətləri tamaşaçılara çatdırır. Bu film ulu öndərə həsr olunan on filmdən biridir. "General", "Birinci", "Moskva, Kreml", "Lider", "Tale", "Bir həsrətin tarixi", "Professional", "Patriot", "Xüsusi təyinat" kimi digər filmlər də bu böyük şəxsiyyətin həyat və fəaliyyətinin çox uğurlu ekran versiyasıdır.

Kino tariximizə nəzər salan Ulu öndər deyirdi: "Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur".

***Azərbaycan Kinosu Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin***

***S Ə R Ə N C A M I***

Azərbaycan Respublikasının mədəni inkişaf sahəsində kino işçilərinin xidmətlərinə və ölkəmizdə çəkilmiş kinosüjetlərin 1898-ci il avqustun 2-də ilk kinoseansının həyata keçirildiyini nəzərə alaraq qərara alıram:

2 avqust - kino işçilərinin peşə bayramı - Azərbaycan Kinosu Günü elan edilsin.

***Heydər Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 dekabr 2000-ci il № 588***

*Heydər Əliyev və müstəqil Azərbaycanın mədəniyyət siyasəti*

Əsrlər boyu hər zaman Azərbaycan xalqı bəşər tarixinə qüdrətli şəxsiyyətlər, sərkərdələr bəxş etmişdir. Belə nadir tarixi simalar sırasında böyük əzəməti, tükənməz qətiyyəti, dərin fəlsəfi-analitik təfəkkürü, ensiklopedik nəzəri və praktiki biliyi, fitri istedadı, dahi müdrikliyi və əyilməz, polad siyasi iradəsi ilə seçilən, müstəqil Azərbaycanın qurucusu olan Heydər Əliyevin xüsusi yeri vardır.

İllər keçdikcə Azərbaycan xalqının bu ölməz oğlu, ümumbəşər tarixinin dahi şəxsiyyəti, onun siyasi və mənəvi örnəyə çevrilmiş ləyaqətli həyat yolu, tarixi əhəmiyyət kəsb edən böyük xidmətləri zamanın sınağından çıxmış strateji xətti daha aydın görünərək insanları, bütün bəşəriyyəti daim heyrətdə qoymaqda davam edirdi. Danılmaz bir həqiqətdir ki, Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü məhz Ulu öndər Heydər Əliyevin şərəfli adı ilə birbaşa üzvü şəkildə bağlıdır. Çünki bü dövrün özünü məhz Heydər Əliyev şəxsiyyəti yaratmışdır. O, var qüvvəsini Azərbaycanın yüksəlişinə həsr etmiş, respublikamızın hər yerində nəhəng quruculuq işlərinin təşəbbüskarı və memarı olmuşdur. Bütün digər sahələrdəki kimi, onun dahiyanə uzaqgörənliyi, mükəmməl bilik və bacarığı mədəniyyət sahəsində də dərin və silinməz iz qoymuşdur. Sözsüz demək olar ki, ümummilli lider Azərbaycanın mədəniyyət siyasətinin banisidir. Heydər

Əliyev tərəfindən əsası qoyulan müstəqil Azərbaycanın mədəniyyət siyasəti ölkə başçısı, cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək yeni dövr üçün daimi olaraq zənginləşdirilir.

Müstəqilliyimizin ilk illərində çoxsaylı daxili və xarici problemlərin məngənəsinə düşən respublika son dərəcə çətin və mürəkkəb dövlət quruculuğu yolundan keçməli idi. Həmin illərdə mədəniyyətdə də qatma-qarışıqlıq və qeyri-müəyyənlik, müxtəlif mənfi meyillər baş alıb gedirdi. Bir tərəfdən, anarxiya kimi başa düşülən azadlıq, digər tərəfdən iqtidarda olan qeyri-peşəkar şəxslərin mədəniyyətə çox qəribə, hətta, son, dərəcə bəsit və sadəlövh yanaşması, məsələn, onlar tərəfindən Qərb mədəniyyəti, incəsənəti, dəyərləri və təhsilinin bizə, guya, tamamilə yad olması və lazımsızlığının bəyan edilməsi bu sahənin normal inkişafının qarşısını alır, çağdaş Azərbaycan mədəniyyətini ümumsivil məcradan təcrid edərək ona böyük zərbələr vurur, beləliklə də sağlam rəqabətə meylini azaldırdı. Ümumiyyətlə, demək olar ki, bu mərhələdə düşünülmüş mədəniyyət siyasəti yox dərəcəsində idi. Nəhayət, böyük öndər Heydər Əliyevin xalqın tələbi ilə 1993-cü ildə ölkə rəhbərliyinə qayıtmasından sonra vəziyyət köklü surətdə dəyişə bildi. O vaxtdan etibarən Azərbaycanın gələcək inkişafının strategiyası və əsas parametrləri müəyyənləşdirildi, dövlət həyatının bütün sahələrinin, o cümlədən mədəniyyət siyasətinin modernləşməsi və transformasiyası mərhələsi başlanıldı. Artıq bu gün yeni mədə-

niyyət siyasətinin təşəkkül tapması, onun məqsəd və prinsiplərinin dəqiqləşməsi, müasir tələblərə cavab verməsi ən vacib və təxirəsalınmaz problemlər sırasında diqqəti cəlb edir. Elmi cəhətdən əsaslandırılmış həmin siyasət nəticəsində mədəni inkişafın ardıcıllıq, varislik, millilik, orijinallıq, Azərbaycan xalqının təkrarsız mədəniyyət genofondunun saxlanılması, eyni zamanda açıqlıq və demokratiklik ideyaları təbliğ edilir və fəal şəkildə həyata keçirilir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında müasir dünya elmində və praktikasında mövcud olan bir sıra modellər sırasından mədəniyyətlərin dialoqu modeli seçilərək ölkəmizdə qəbul edilib. Həmin model Azərbaycanın tərəf müqabili qismində ümumdünya mədəni prosesdə iştirakına əsaslanır və respublikamızda optimal sosiomədəni dinamikanın dəstəklənməsinə imkan yaradır.

1993-2003-cü illər ərzində yeni mədəniyyət siyasətinə uyğun olaraq dövlət tərəfindən çoxsaylı və mühüm əhəmiyyətli işlər görülmüşdür. İlk növbədə, mədəniyyət siyasətinin həyata keçirilməsinin ən əsas vasitələrindən biri olan hüquqi cəhətdən mükəmməl, dünya standartlarını və milli özəllikləri nəzərə alan qanunların hazırlanmasına ciddi diqqət yetirilmişdir. Bir sıra qanunlar, o cümlədən "Mədəniyyət haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Turizm haqqında", "Nəşriyyat işi haqqında", "Muzeylər haqqında", "Arxiv fondu haqqında", "Memarlıq fəaliyyəti haqqında" qanunlar, bir sözlə, 2003-cü il daxil

olmaqla 21 qanun Milli Məclisdə qəbul edilmiş və ölkə Prezidenti tərəfindən təsdiqlənmişdir. Təhsil və səhiyyə sistemlərində islahatlara başlanılmış, elm, ədəbiyyat və mətbuatda ideoloji senzura ləğv olunmuş, idmanda böyük uğurlar əldə edilmişdir.

Azərbaycan dövləti mədəniyyət sahəsi ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, o cümlədən, "Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında", "Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında", "Arxeoloji irsin qorunması haqqında" konvensiyalara qoşulmuşdur. 1997-ci ildə Mədəniyyət haqqında Avropa Konvensiyasını ratifikasiya etdikdən sonra Azərbaycan Avropa Şurasının Mədəniyyət, Siyasəti üzrə Departamenti ilə də yaxından əməkdaşlıq edir. Nəticədə bir sıra maraqlı proqramlar həyata keçirilmişdir. Məsələn "Azərbaycan Respublikasında mədəniyyət siyasəti" məruzəsi hazırlanmış, Strasburq şəhərində təqdimatı keçirilmiş və müxtəlif dillərdə çap olunmuşdur. Yeni mədəniyyət siyasətinə müvafiq olaraq yaradıcı xadimlərə dövlət köməyi də nəzərdə tutulmuşdur, o cümlədən, respublika Prezidentinin sərəncamına əsasən onlara fərdi pensiyaların, dövlət mükafatlarının, fəxri adların, gənc yazarlara isə təqaüdlərin verilməsinə başlanmışdır. Azərbaycan mədəniyyətinin görkəmli şəxsiyyətlərinin yubileyləri və əlamətdar hadisələrin təntənəli qeyd edilməsi, beynəlxalq səviyyəli festival, müsabiqə, konqres və konfransların keçirilməsi də təqdirə-

layiqdir. Xüsusi vurğulanmalıdır ki, Azərbaycan UNESCO-nun nəzdindəki Ümumdünya İrs Mərkəzi ilə də uğurlu əməkdaşlıq edir. Bunun nəticəsi olaraq 2000-ci ildə Bakı şəhərinin tarixi mərkəzi "İçərişəhər", "Şirvanşahlar" sarayı və "Qız qalası" ilə birlikdə həmin mərkəzin siyahısına daxil edilmişdir.

2003-cü ildən sonra isə dahi Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında indiki dövrün tələblərinə müvafiq olaraq çox uğurla davam etdirilir və innovasiyalarla zənginləşdirilir.

Bir sıra ali təhsil ocaqlarının, o cümlədən Azərbaycan Diplomatik Akademiyası, Ədliyyə Akademiyası, Turizm İnstitutu, Moskva Dövlət Universitetinin Bakı filialının təsis edilməsi, inteqrasiya məqsədi ilə Bolonya təhsil sisteminin tətbiq edilməsi, çoxsaylı istedadlı tələbələrin nüfuzlu xarici ali təhsil ocaqlarına dövlət hesabına göndərilməsi, mədəniyyət sahəsində minlərlə iş yerinin açılması, Ümumdünya İrsi Siyahısına 2007-ci ildə "Qobustan" tarixi-mədəni qoruğunun daxil edilməsi, gələcəkdə həmin siyahıya salınmaq üçün digər abidələrin - Atəşpərəstlik məbədi "Atəşgah", Naxçıvandakı "Mömünəxatun", "Gülüstan", "Qarabağlar" və "İbn Hüseyn" türbələrinin sənədlərinin yeni tentativ vərəqinin (ilkin siyahısının – ***A.B.***) həmin mərkəzə təqdim edilməsi, 2011-ci ildən başlayaraq hər il "Bakı Beynəlxalq Humanitar Forumu" və İkinci "Qlobal Açıq Cəmiyyətlər Forumu"nun,

vokalçıların Bülbül adına Beynəlxalq Müsabiqəsinin və Üzeyir Hacıbəyli adına Beynəlxalq Musiqi Festivalının, Qəbələdə Beynəlxalq Musiqi Festivalının Azərbaycanda keçirilməsi, tanınmış incəsənət və mədəniyyət xadimlərinin abidələrinin ucaldılması, teatr binalarının təmiri, park və digər istirahət guşələrinin abadlaşdırılması və yenilərinin salınması, heyranedici Kristal-Hollun və möhtəşəm "Heydər Əliyev Mərkəzi"nin inşa edilməsi, milli qoruqların, məsələn, "Xınalıq" Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğu, "Keşikçidağ" və "Atəşgah" məbədi dövlət tarix-mədəniyyət qoruqlarının, "Korçay" dövlət təbiət qoruğunun, "Göygöl" milli parkının yaradılması, "Neft" muzeyi, "Azərbaycan bayrağı muzeyi", "Müasir incəsənət" muzeyi, "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-ci illərdə inkişafı üzrə dövlət proqramı", "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması, "Təhsilin inkişafı üzrə Dövlət strategiyası" haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları və həyata keçirdiyi genişmiqyaslı mədəni quruculuq işləri deyilənləri parlaq şəkildə sübuta yetirir. Xüsusilə vurğulanmalıdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin son dərəcə böyük siyasi-mədəni əhəmiyyətə malik İstiqlal Bəyannaməsinin Azərbaycan və fransız dillərindəki itirilmiş orijinal nüsxələrinin axtarılıb tapılaraq Vətənə qaytarılması məhz ölkə Prezidenti İlham Əliyevin yorulmaz səyləri nəticəsində mümkün olmuşdur.

2004-cü ildən başlayaraq ölkənin mədəni həyatının tənzimlənməsində, mədəniyyət siyasətinin səmərəli həyata keçirilməsində dövlət orqanları ilə birlikdə qeyri-hökumət təşkilatları, ilk növbədə Heydər Əliyev Fondu yaxından iştirak edir. Ulu öndərin siyasi məfkurəsini əks etdirmək, yaratdığı milli dövlətçilik ideyalarını, azərbaycançılıq ideologiyasını yeni nəsillərə daim aşılamaq niyyətindən irəli gələrək yaradılan fond ötən illər ərzində öz məqsədyönlü, gərgin və səmərəli fəaliyyəti ilə Azərbaycanın ictimai və mədəni həyatında son dərəcə böyük rol oynadığını, qarşıya qoyduğu məqsədlərin əhəmiyyətinə, miqyasına və sambalına görə ölkəmizdə analoqu olmayan yeni qurum olduğunu açıq şəkildə sübuta yetirdi. Heydər Əliyev Fondunun məqsədləri çox genişdir. Buraya xalqımızın böyük oğlu Heydər Əliyevin siyasi irsini öyrənmək, onu təhlil, tədqiq və təbliğ etməkdən başlamış, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək, sosial problemlərin həllinə, xüsusi qayğıya ehtiyacı olan vətəndaşlara, insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına dair vəzifələr aiddir. Eyni zamanda fond mədəniyyətimizin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə yardımçı olmaq, uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, ölkəmizin beynəlxalq nüfuzunun artırılması və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə töfhələr

vermək, uşaq müəssisələrinin infrastrukturlarını, səhiyyə və tibb təsisatlarını inkişaf etdirmək, ekologiya sahəsində tədqiqatları dəstəkləmək, sağlam həyat tərzini təbliğ etmək, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyada inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanmasına dəstək vermək kimi olduqca genişmiqyaslı fəaliyyət göstərir. Çox önəmlidir ki, Ulu öndərin adını daşıyan fondun prezidenti, Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti, Azərbaycan Mədəniyyət Fondunun Prezidenti, ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva əsl vətənpərvər ziyalı olaraq doğma mədəniyyətimizin qorunması, inkişafı və təbliği problemlərinin həllinə müstəsna əhəmiyyət verir.

Azərbaycanın tanınmış ictimai xadimi Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fond tərəfindən bir çox genişmiqyaslı layihələrin həyata keçirilməsi milli mədəniyyətimizin inkişafını intensivləşdirərək bədii-estetik prosesə yeni bir nəfəs gətirir. Mənəvi irsimizin mühafizəsi, Azərbaycan mədəniyyətinin özünəxas unikallığının qorunması və bütün dünyada tanınması üçün Mehriban xanım əlindən gələni əsirgəmir. Fond tərəfindən muğamın öyrənilməsi, qorunması və təbliği məqsədilə müxtəlif layihələr hazırlanıb. "Qarabağ xanəndələri" musiqi albomu nəfis şəkildə buraxılıb. Alboma eyni adlı Azərbaycan, ingilis, rus və fran-

sız dillərində olan kitab və 24 sənətçinin ifasında muğam parçalarından ibarət 12 disk daxildir. Muğam sənətinə həsr olunmuş tematik albomların buraxılışı isə nəzərdə tutulub. Bu məsələ ilə bağlı orta əsr alimləri və müasir müəlliflərin elmi əsərlərindən ibarət olan xüsusi silsilə üzərində ciddi iş uğurla davam etdirilir. Fondun himayəsilə Beynəlxalq Muğam Mərkəzi inşa edilmişdir. Məhz burada 2009-cu ilin mart ayında fondun təşəbbüsü ilə bütün dünyada əks-sədaya səbəb olmuş "Muğam aləmi" Beynəlxalq Festivalının keçirilməsi (artıq bu hadisə hər il qeyd olunan ənənəyə çevrilmişdir – ***A.B.***) Azərbaycan musiqi mədəniyyətinin ümumən, dünya səviyyəsində tanıdılması, təbliği və sevilməsi istiqamətində təşkil olunan mühüm tədbirlərdən biri kimi qiymətləndirilməlidir.

Bundan başqa, müasir Azərbaycan klassik musiqisinin banisi Üzeyir Hacıbəylinin yaradıcılığı ilə bağlı nəhəng bir layihə gerçəkləşdirilib ki, bu layihə əsasında dahi bəstəkarın bütün əsərlərinin nəşri, yenidən nəşri, eləcə də, onların CD və DVD-də buraxılışı istiqamətində addımların atılması ilə yekunlaşır.

Milli mədəniyyətimizin digər sahələri ilə, o cümlədən aşıq yaradıcılığı, "meyxana" ənənəsiylə bağlı bir çox maraqlı layihələr də işlənilib. Fondun təşəbbüsü və dəstəyi ilə Lətif Kərimov adına "Azərbaycan xalçası və xalq tətbiqi sənəti muzeyi" inşa edilib. Fond tərəfindən mədəniyyət sahəsində uğurla başa çatdırılan layihələr sırasında 2008-ci

ildə Qala kəndində açıq səma altında ilk arxeoloji-etnoqrafık muzey kompleksini qeyd etmək lazımdır. İki hektar ərazisi olan muzey kompleksində Abşeron yarımadasında tapılmış və e.ə. III-II minilliklərdən orta əsrlərə qədər dövrü əhatə edən qayaüstü rəsmlər, qavaldaş, keramika, məişət və bəzək əşyaları, silah və sikkələr, qədim yaşayış kompleksinin konservasiya olunmuş qalıqları yerləşdirilmişdir. Bu layihə Azərbaycanın tarixi keçmişinin qorunub saxlanması ilə yanaşı, ölkəmizin turizm mərkəzlərindən birinə çevrilməsinə də xidmət edir.

Bütün qeyd edilənlərlə yanaşı bildirmək lazımdır ki, Azərbaycanın Heydər Əlirza oğlu Əliyev tərəfindən əsası qoyulmuş müasir mədəniyyət siyasətinin və idarəçiliyin aparıcı istiqamətləri, keçmişi, milli mədəni sərvətləri qoruyub saxlamaq, indinin müsbət nailiyyətlərini dəstəkləmək və inkişaf etdirməkdir. Cəmiyyətin ardıcıl surətdə demokratikləşməsi, ölkənin dünya birliyinə inteqrasiyası, mədəniyyətin bəşər inkişafının ayrılmaz faktoru kimi dərk olunması və qəbul edilməsinin getdikcə güclənməsi bu sahədə nikbin proqnozlar üçün əsas verir.

Beləliklə, müstəqil Azərbaycanın mədəniyyət siyasətinin banisi olan Heydər Əliyevin bu sahədəki böyük nailiyyətləri ölkə başçısı, cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilərək daha da yüksək zirvələrə doğru ucalır.

***Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında***

***AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN***

***F Ə R M A N I***

Azərbaycan Respublikasında son illər ərzində dövlət quruculuğu, iqtisadiyyat, elm, təhsil və mədəniyyətin müxtəlif sahələrində aparılan islahatlar öz səmərəli nəticələrini verir. Əhalinin müxtəlif qruplarının sosial vəziyyətinin yaxşılaşdırılması üçün dövlət qayğısının artırılması, əməyin qiymətləndirilməsi və təqaüdlər sisteminin təkmilləşdirilməsi sahəsində də nəzərəçarpacaq irəliləyiş əldə edilmişdir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 22 iyun 1996-cı il tarixli, 464 nömrəli və "Azərbaycan yazıçılarına dövlət qayğısının artırılması haqqında" 24 noyabr 1997-ci il tarixli, 643 nömrəli fərmanları istedadlı gənclərin yaradıcılıq potensialının inkişaf etdirilməsi işinə öz müsbət təsirini göstərmişdir.

Azərbaycan xalqı qarşısında böyük xidmətləri olmuş şəxslərin bir qrupu üçün də fərdi təqaüdlərin təyin edilməsi bu yolda atılmış konkret addım olmuşdur. Azərbaycan Respublikası Prezidentinin "Ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının  rtırılması haqqında" 10  noyabr 1997-ci il tarixli, 641

nömrəli Fərmanı ilə Azərbaycanın qocaman ədəbiyyat və incəsənət xadimlərinin bir qrupu üçün ömürlük fərdi təqaüd təsis edilmiş və Azərbaycan Respublikası Prezidentinin 21 fevral 1998-ci il tarixli, 677 nömrəli Fərmanı ilə həmin fərdi təqaüdlərin sayı artırılmışdır. 1997-ci ildən indiyə qədər səksən dörd nəfər qocaman ədəbiyyat və incəsənət xadimi fərdi təqaüdə layiq görülmüşdür.

Azərbaycanın ədəbiyyat və incəsənət xadimləri ilə yanaşı, ölkəmizin elm, təhsil, mədəniyyət, iqtisadiyyat, dövlət idarəçiliyində və digər sahələrdə böyük əməyi olmuş şəxslərin xidmətlərinin qiymətləndirilməsi və onların sosial vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü təsis edilsin.

2. Hər biri 1500 (min beş yüz) manat məbləğində beş yüz fərdi təqaüd müəyyən edilsin.

3. Fərdi təqaüd Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsi hesabına verilir.

4. Azərbaycan Respublikası Prezidentinin 10 noyabr 1997-ci il tarixli, 641 nömrəli və 21 fevral 1998-ci il tarixli, 677 nömrəli fərmanları, habelə 22 dekabr 1997-ci il tarixli, 714 nömrəli, 22 fevral 1998-ci il tarixli, 752 nömrəli, 29 may 1998-ci il tarixli, 813 nömrəli, 23 avqust 1998-ci il tarixli, 884 nömrəli, 6 dekabr 1999-cu il tarixli, 278 nömrəli, 22 yanvar 2000-ci il tarixli, 318 nömrəli, 19 aprel 2000-ci il tarixli, 396 nömrəli, 29 aprel 2000-ci il tarixli, 402 nömrəli, 18 dekabr 2000

- ci il tarixli, 589 nömrəli, 1 mart 2001-ci il tarixli, 634 nömrəli, 11 avqust 2001-ci il tarixli, 787 nömrəli, 7 sentyabr 2001-ci il tarixli, 801 nömrəli, 13 noyabr 2001-ci il tarixli, 828 nömrəli, 3 dekabr 2001-ci il tarixli, 832 nömrəli, 12 dekabr 2001-ci il tarixli, 836 nömrəli, 1 may 2002-ci il tarixli, 904 nömrəli sərəncamları qüvvədən düşmüş hesab edilsin.

5. Bu Fərman 2002-ci il iyul ayının 1-dən qüvvəyə minir.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***Heydər Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 iyun 2002-ci il, № 715***

***İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında***

***AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN***

***F Ə R M A N I***

Azərbaycan Respublikasının incəsənət xadimlərinə dövlət qayğısının artırılması, Azərbaycanda səhnə sənətinin inkişafı üçün daha əlverişli şərait yaradılması məqsədi ilə qərara alıram:

1. Səhnə fəaliyyəti ilə bağlı aparıcı incəsənət xadimləri üçün hər biri ayda 500 manat olmaqla Azərbaycan Respublikası Prezidentinin yüz əlli mükafatı təsis edilsin.

Azərbaycan Respublikası Prezidentinin mükafatını alanlar hər ilin birinci rübündə Azərbaycan Respublikası Prezidentinin qərarı ilə müəyyən edilir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***Heydər Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 may 2002-ci il, № 707***


100 il
Heydər
Əliyev

## *Heydər Əliyev - Azərbaycan mədəniyyətinin ən böyük himayədarı və qayğıkeşi*

Xalqımızın ümummilli lideri, bütün əsrlər üçün canlı klassik olan dahi şəxsiyyət Heydər Əliyevin belə bir müdrik kəlamı var: "Mədəniyyəti inkişaf etdirmək üçün milli ruhu yaşatmaq lazımdır". Bütün qaynar fəaliyyəti dövrü bu sağlam əxlaqi-etik və estetik prinsiplə yaşayan ulu öndər həmişə xalqın mədəni dəyərlərini, milli sərvətlərini qorumaq üçün mübarizə aparmışdır. Məhz dahi şəxsiyyətin torpağa, milli dəyərlərə dərindən bağlılığının nəticəsidir ki, 1969-cu ildən etibarən mədəniyyətimiz, bir sözlə, milli mənəvi dəyərlərimiz, soy-kökümüz belə özümüzə qayıdıb.

Heydər Əliyev və Azərbaycan mədəniyyəti problemi çox geniş bir sahəni əhatə edir. Ulu öndər Heydər Əliyev daima mədəniyyətimizin, ədəbiyyatımızın, milli dəyərlərimizin inkişafı üçün böyük danılmaz xidmətlər göstərmişdir. Bu danılmaz bir həqiqətdir ki, onun hakimiyyəti illərində mədəniyyətimiz sürətlə inkişaf etdi, milli ruh özümüzə qayıtmış oldu.

Bir həqiqəti bilirik ki, ümummilli liderimiz Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə Azərbaycan mədəniyyəti özünün intibah dövrünü yaşamağa başladı. Öncə bu dahi şəxsiyyət sənətə və sənətkara dərin hörmət və ehtiramla yanaşdı. Mədəniyyətimizin və incəsənətimizin tanınmış nümayəndələrinin xatirəsini əbədiləşdirmək naminə xeyli faydalı işlər gördü. Paytaxt şəhərimizdə və respublikamızın ayrı-ayrı bölgələrində əzəmətli abidələr ucaldıldı. Nəsimi, Cəfər

Cabbarlı, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Mehdi Hüseynzadə, Hüseyn Cavid... abidələri şəhərlərimizin ümumi görkəminə xüsusi cazibədarlıq gətirdi.

Məhz ulu öndərin təşəbbüsü ilə Üzeyir Hacıbəylinin, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Cəfər Cabbarlının. Niyazinin, Bülbülün, M. S. Ordubadinin, Əzim Əzimzadənin, Nəriman Nərimanovun, Cəmşid Naxçıvanskinin və başqa mədəniyyət xadimlərinin ev muzeyləri açılmışdır. Bu xatirə ev muzeylərinə hər il minlərlə tələbə, məktəbli, müxtəlif peşə və sənət sahibləri gəlir. Milli mədəniyyətimizin inkişafında böyük xidmətləri olmuş bu insanların qaynar fəaliyyətləri ilə yaxından tanış olur və bu fədakar insanlarla fəxr edirlər.

Məlum bir həqiqətdir ki, ümummilli liderimiz hələ uşaqlıq illərində incəsənətə, teatr və musiqiyə, rəssamlığa həvəs göstərib, məktəbdə oxuyarkən dram dərnəyində iştirak edib. Eyni zamanda memarlıq ixtisası üzrə ali məktəbdə oxuyubdur. H. Əliyevin Azərbaycan incəsənətinə böyük istəyi illər keçdikcə onun incəsənətin bütün sahələrində professional biliyə yiyələnməsinə təminat vermişdir. Tale elə gətirmişdir ki, onun parlaq memarlıq istedadı inşaat sahəsində deyil, Azərbaycanda milli dövlət quruculuğu sahəsində çiçəklənmişdir. O, xalqımızın nəcib arzu və əməllərinin timsalı olan möhtəşəm imarətin, müstəqil milli dövlətimizin memarı, yaradıcısı kimi tarixə adını əbədi yazdırmışdır.

Zəmanəmizin görkəmli dövlət xadimi kimi tanınan H. Əliyev mənalı ömrünü dövlətçiliyimizin möhkəmlənməsinə,

mədəniyyətimizin və incəsənətimizin çiçəklənməsinə həsr etmişdir. Azərbaycan Milli Dram Teatrında, Opera və Balet Teatrında baxdığı tamaşalar haqqında biz onun dəfələrlə peşəkar sənətşünas səviyyəsində çıxışlarını televiziyada izləmişik. O, Azərbaycan teatrının qayğılarını daima nəzarətdə saxlamış, Milli Dram Teatrında “İblis”, ”Natəvan”, “Mahnı dağlarda qaldı”, “Xəyyam”, “Şəhərin yay günləri”, “Hökmdar və qızı”, “Dəli yığıncağı” və başqa tamaşalara baxmış, həmin tamaşalara yüksək sənət bilicisi kimi qiymət vermişdir. Onun təqdimatı ilə Mehdi Məmmədov, İsmayıl Dağıstanlı, İsmayıl Osmanlı, Zeynəb Xanlarova, Fərhad Bədəlbəyli, Lütfiyar İmanov, Fidan Qasımova SSRİ Xalq artisti və Toğrul Nərimanbəyov SSRİ Xalq rəssamı fəxri adlarına layiq görülmüşlər.

Azərbaycan mədəniyyəti, incəsənəti həmişə ulu öndərimizin diqqət mərkəzində olmuşdur. Bəstəkarlarımızın, memarlarımızın, rəssamlarımızın, şair və ədiblərimizin mənəvi inkişafı və tərəqqisi üçün Heydər Əliyev onlara həmişə böyük qayğı ilə yanaşmışdır. Heç təsadüfi deyildir ki, məhz onun yaxından qayğısı və fəaliyyəti sayəsində Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza, Mirzə İbrahimov, Niyazi, Rəşid Behbudov, Qara Qarayev, Fikrət Əmirov, Tahir Salahov, Mikayıl Hüseynov, Mustafabəy Topçubaşov kimi şair və ədiblər, bəstəkarlar, elm xadimləri o dövrün ən böyük tituluna - Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşlər. Bu, unudulmayan və heç bir zaman

yaddan çıxmayan tarixi xidmətdir. Milli-mənəvi dəyərlərə göstərilən diqqət və qayğının parlaq təzahürüdür.

1974-cü ildə Azərbaycanda dünyəvi teatrın yaradılmasının yüz illik təntənəsi sözün ən geniş mənasında milli sənət bayramına çevrildi. Moskvada keçirilən uzunmüddətli qastrol səfəri aydınlığı ilə sübut etdi ki, Azərbaycan teatrı hansı mənəvi dəyərlərə malik bir sənət ocağıdır. Yeri gəlmişkən, fərəhlə bildirək ki, məhz ulu öndərimizin təşəbbüsü ilə Azərbaycanda 30-dan çox yeni teatr açılmışdır. Elə bunun özü milli sənətə göstərilən diqqətin ən parlaq hadisəsi kimi qeyd olunmalıdır.

Azərbaycan xalqı qarşısında Heydər Əliyevin heç bir zaman unudulmayacaq tarixi xidmətləri çoxdur. Dahi Azərbaycan dramaturqu və şairi Hüseyn Cavidin nəşinin uzaq Sibirdən Azərbaycana gətirilməsi, doğma yurdu Naxçıvanda dəfn olunması, Naxçıvanda Cavid ev muzeyinin açılması, Cavidlər kompleksinin yaradılması, Bakıda əzəmətli heykəlinin ucaldılması mədəniyyətimizə, bir sözlə, milli mənəvi dəyərlərimizə, ulu şəxsiyyətlərə göstərilən diqqət və qayğının sonsuz təzahürüdür.

Bir əsrdən artıq yaşı olan milli kinomuzun mənəvi inkişafında, azərbaycançılıq ruhunda tərbiyə olunmasında ulu öndərin xüsusi tarixi xidmətləri olmuşdur. Məhz onun göstərişi və təşəbbüsü ilə "Nəsimi", "Nizami", "Babək", "Dədə Qorqud", "Qaçaq Nəbi", "Qatır Məmməd", "İstintaq" kimi milli ruhlu, milli ideyalı filmlər çəkilmişdir. "İstintaq" bədii filminə o

dövrün ən böyük mükafatı - SSRİ Dövlət mükafatı verilməsi də məhz Heydər Əliyev fenomeninin qiymətli məhsuludur. “Kinomuzun tarixi və bu sahədə əldə olunan nailiyyətlər bizim milli sərvətimizdir”, - deyən ulu öndərin müstəqillik dövrünün çətinliklərinə baxmayaraq, kinoya, kino işçilərinə yüksək qayğısı onları yeni milli ruhlu, milli əqidəli filmlər yaratmağa ruhlandırmışdı.

Məlum həqiqətdir ki, ilk dəfə yaxın Şərqdə opera, operetta yazmaq səadəti böyük bəstəkar Üzeyir bəy Hacıbəyliyə nəsib olmuşdur. Onun musiqi mədəniyyətimizin qızıl xəzinəsini təşkil edən “Leyli və Məcnun”, “Əsli və Kərəm”, “Koroğlu”, “O olmasın, bu olsun”, “Arşın mal alan” və digər opera və operettaları həmişə müasirdir. Ulu öndər Üzeyir Hacıbəylinin anadan olmasının 110 illik yubiley təntənəsində demişdir: “Əgər nəzərə alsaq ki, əsrimizin əvvəllərində xalqımızın əksəriyyəti savadsız idi, kitab oxuya bilmirdi və kitablar da çox az idi, kino, televiziya və başqa vasitələr də yox idi, təsəvvür edin, Ü. Hacıbəyov öz operası vasitəsilə M. Füzulinin sözlərini, “Arşın mal alan”, “O olmasın, bu olsun” operettaları vasitəsilə istədiyi fikri insanlara çatdırmaqla xalqımızın mənəvi və mədəni inkişafında nə qədər böyük xidmətlər göstəribdir”.

Bakıda, respublikamızın şəhərlərində Şəhidlər xiyabanlarının yaradılması, şəhidlərə abidələrin ucaldılması, burada vaxtaşırı abadlıq işlərinin davam etdirilməsi ənənəsi H. Əliyevin fəaliyyəti ilə bağlıdır. Biz onun respublikamızın bütün bölgələrində təşkil olunan rəsm ərgilərində, sənət adamlarının

yubileylərində, heykəllərin açılışında sənətə və sənətkar əməyinə böyük qiymət verdiyinin də hər zaman şahidi olmuşuq.

Ulu öndərimiz H. Əliyev milli mədəniyyətimizin və incəsənətimizin bəşəri nailiyyətləri ilə həmişə fəxr etmişdir. Dəfələrlə böyük sənətkarların yubileylərində iştirak etmiş və onların böyük nailiyyətləri ilə fəxr etdiyini bildirmişdir. Böyük estetik zövqə malik olan Heydər Əliyev Azərbaycanın milli mədəniyyətini, musiqisini, mənəvi dəyərlərini çox sevirdi. Bəstəkar-müğənni Müslüm Maqomayevin böyük öndərə ithaf etdiyi "Azərbaycan" (sözləri Nəbi Xəzrinindir – ***A.B.***) mahnısını dinləyəndən sonra böyük sevgi və həyəcanla demişdir: "Mən bu mahnını çox sevirəm, o məni həyəcanlandırır, çünki mahnıda deyilir ki, Azərbaycan həqiqətən həyatımın mənasıdır".

Sağlam həqiqət budur ki, Heydər Əliyev bütün varlığı ilə, canı ilə, ruhu ilə, bütün mənəviyyatı ilə Azərbaycan torpağına, Azərbaycan mədəniyyətinə dərin tellərlə bağlı olan nurlu bir şəxsiyyət idi. Onun Azərbaycan xalqına, milli mənəvi dəyərlərə göstərdiyi diqqət və qayğı, sözün geniş mənasında fədakarlığı əsrlər boyu yaddan çıxmayacaq. Çünki bu dahi şəxsiyyət Azərbaycan xalqını, Azərbaycan milli mənəviyyatını qışdan bahara çıxartdı. Budur tarixi xidmət, budur xalq qarşısında müqəddəs borc. İndi Azərbaycan mədəniyyəti, Azərbaycan incəsənəti bütün dünyada tanınır, sevilir, alqışlanır. Bu tarixi xidmət, bu tarixi nailiyyət məhz ulu öndərimizin adı və geniş fəaliyyəti ilə bağlıdır.

Heydər Əliyev yolu həmişə nurlu və sabahlı bir yol olmuşdur. Bu yol bizləri, milli mədəniyyətimizi geniş üfüqlərə doğru aparır. Ötən illər ərzində nə qədər işlər görülmüş, nə qədər tarixi xidmətlər göstərilmiş, soykökümüz, milli mənliyimiz, milli qan yaddaşımız, bir sözlə, mənəvi dəyərlərimiz özümüzə qayıtmışdır. Bu qayıdışa, bu uğura yalnız və yalnız Heydər Əliyev zəkası, Heydər Əliyev düşüncəsi, Heydər Əliyev fenomeni səbəbkar olmuşdur. Bu inkaredilməz və sağlam bir məntiqdir. Xüsusən də onun ikinci dəfə siyasi hakimiyyətə qayıdışı daha böyük nailiyyətlərin, mədəni yüksəlişin qlobal inkişafına səbəb olmuşdur. Mədəniyyətimizin, incəsənətimizin inkişafı naminə imzaladığı fərman və sərəncamlar irəliyə doğru atılan böyük bir addım, nailiyyət kimi tarixə düşdü. Ayrı-ayrı sənətkarların, ustad söz sahiblərinin adlarının, xatirələrinin, mədəni abidələrimizin əbədiləşməsi və yeni-yeni tikililərin yaranması bir daha aydınlığı ilə sübut etdi ki, ulu öndər nə qədər milli-mənəvi dəyərlərə malik nurlu bir şəxsiyyətdir. Məhəmməd Füzulinin 500, Nəsiminin 600, “Kitabi Dədə Qorqud” dastanlarının 1300 illik yubileylərinin beynəlxalq aləmdə təntənəli surətdə keçirilməsi məhz dahi şəxsiyyətin fədakar əməyi nəticəsində həyata vəsiqə almışdır. Səməd Vurğunun 90, Rəsul Rzanın 90, Üzeyir Hacıbəylinin 110, Cəlil Məmmədquluzadənin 125, Hüseyn Cavidin 100, 120, Cəfər Cabbarlının 100 illik yubileylərinin və digər çağdaş yaradıcı şəxsiyyətlərin yubileylərinin keçirilməsi və adlarının əbədiləşdirilməsi milli

mədəniyyətimizə göstərilən diqqət və qayğının parlaq təzahürüdür. Heydər Əliyevin böyük tarixi xidmətlərindən biri də keçən əsrin 30-cu illərində repressiyaya uğramış latın qrafikasının bərpa edilməsindən ibarət olmuşdur. Bu unudulmayan və hər zaman yadda qalan tarixi bir xidmətdir, soykökə, milli qan yaddaşına, milli varlığa qayıdışdır.

O xalq böyükdür ki, cavanları yaşlılardan, yaşlıları cavanlardan öyrənirlər. H. Əliyev müdrik pedaqoq kimi gənclərə məsləhət bilirdi ki, "Siz hələ gəncsiniz. Qarşınızda böyük yaradıcılıq yolu vardır. İstərdim ki, sizdən əvvəlki sənətkarlar – Lütfəli Abdullayev, Rəşid Behbudov, Leyla Bədirbəyli kimi öz üzərinizdə çalışasınız. Mən onları çox yaxından tanıyıram, onlarla dost idim. Onlar öz üzərində necə çalışırdılar, necə işləyirdilər, necə yeni nailiyyətlər əldə edirdilər, mən bunu sizə də tövsiyə edirəm".

Ulu öndərimiz həmişə deyirdi ki, istedad xalqın milli sərvətidir. Ona qayğı göstərmək, inkişafına şərait yaratmaq bizim müqəddəs borcumuzdur. Xüsusən də yaradıcı gənclərə göstərdiyi diqqət və qayğı daha əhəmiyyətli olmuşdur. Bu qayğı ulu öndərin fəaliyyətində mühüm yer tuturdu. Belə ki, o, 1996-cı il iyunun 22-də ölkəmizdə gənc istedadların "Qızıl kitabı", "Gənc istedadlar fondu", "Azərbaycanda gənc istedadlara dövlət qayğısı" adlı sərəncamlar imzalamışdır. H. Əliyev uşaq və yeniyetmələrin, gənclərin yüksək estetik zövqə malik olmalarını, milli-mənəvi dəyərlərimizə yiyələnmələrini, milli kökə bağlı vətənpərvər olmalarını müstəqillik dövrünün ən zəruri məsələsi

kimi qiymətləndirirdi. Dahi şəxsiyyət gənclərə müraciətlə demişdi: “Gənclərimiz milli ruhda, bizim milli mənəvi dəyərlərimizin əsasında tərbiyə olunmalıdırlar. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidirlər, dilimizi yaxşı bilməlidirlər, milli dəyərlərimizi yaxşı bilməlidirlər. Hər bir gəncimiz vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük məfhumdur. Bu sadəcə olaraq orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik”.

Bu gün Heydər Əliyev yolu, strategiyası Azərbaycan Prezidenti, cənab İlham Əliyev tərəfindən şərəf və ləyaqətlə davam etdirilir. Heydər Əliyev ideyaları, Heydər Əliyev arzu və düşüncələri ölməzdir. Böyük kəşflər və mənəvi sərvətlər yaratmış xalq fəxr edə bilər ki, bu kəşflər, mənəvi sərvətlər bəşəri xarakter daşıyır, illər keçdikcə dünyəviləşir. Heydər Əliyev böyük kəşflər, mənəvi sərvətlər yaratmış Azərbaycan xalqının böyük oğludur. “Mən fəxr edirəm ki, azərbaycanlıyam”,- deyən Heydər Əliyevin şəxsiyyəti, zəngin mənəvi dünyası, göstərdiyi tarixi xidmətlər gələcək nəsillərə böyük örnəkdir.

Azərbaycan xalqının istiqlal fikri və ən dəyərli mənəvi sərvətləri ilk növbədə ədəbiyyatda və onun mədəniyyətində qorunub saxlanmış və inkişaf etdirilmişdir. Təbiidir ki, yer üzündəki bütün xalqların özünəməxsus mədəniyyəti var və mədəniyyəti olmayan xalq yoxdur. Millətin mədəniyyət inciləri yaratması üçün məkan və zaman daxilində sosial-iqtisadi tərəqqi və buna əlverişli şərait yaradan rəhbəri olmalıdır.

Azərbaycan xalqının böyük oğlu, Ümummilli Lider Heydər Əliyev mədəniyyətin inkişafına xüsusi qayğı göstərən, onu zənginləşdirən, ölkədə və dünyada tanıdan rəhbər idi. Onun hakimiyyəti illərində Azərbaycan xalqı dünya mədəniyyətində yaradıcı funksiyasını uğurla davam etdirirdi. Əslində Heydər Əliyev mədəniyyəti inkişaf etdirmək istiqamətində özünün bütün möhtəşəm fəaliyyəti ilə sovet dönəminin kommunist liderləri içərisində ən böyük mədəniyyət milliyətçisi idi. Heydər Əliyev "kosmopolitik" sovet xalqı yaratmaqla, millətlər arasında fərqləri ləğv etməyi qarşıya məqsəd qoyan kommunist ideologiyasından fərqli olaraq bugünümüz üçün Azərbaycan milli mədəniyyətinin qoruyucusu, inkişaf etdiricisi və zənginləşdiricisi funksiyasını sistemli şəkildə qətiyyətlə həyata keçirirdi. H. Əliyev deyirdi: "Doğrudur, 1971-ci ildə biz heç bilmirdik ki, Azərbaycan müstəqil Respublika olacaqdır. Lakin, mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım".

Bu arada fikirlərimi bəzi faktlar üzərində qurmaq istəyirəm. 1951-ci ilin may ayında Azərbaycan KP-nin 18-ci qurultayındakı nitqində o vaxt ki, respublika rəhbəri xalqımızın soykökü ilə bağlı olan və daha çox Azərbaycan dilinə yaxın olan "Kitabi-Dədə Qorqud"u antixalq və zərərli adlandıraraq onu ifşa etməyə çağırır. Guya dastanda təsvir olunmuş ictimai-iqtisadi həyat, adət-ənənələr Azərbaycan həyatına və xalqına yaddır. Ulu öndər Heydər Əliyev isə bu cür zərərli yanaşmaya qarşı çıxaraq bu biabırçılığa cəsarətlə son qoydu. 1995-ci ilin 27 avqustunda Bişkekdə "Manas" dastanının min

illik yubileyi tədbirlərində iştirak edən Heydər Əliyev gözlənilmədən Azərbaycan Mədəniyyət və İncəsənət xadimləri üçün yaradılmış çadıra daxil olur. Səmimi söhbət əsnasında Heydər Əliyev ədəbi mühitin nümayəndələrinə "Nə üçün Azərbaycanda Dədə Qorqudun yubileyi keçirilməsin?"- sualını verir. Böyük öndər 2000-ci ilin 7 fevralında imzaladığı sərəncamla Bakı şəhərində və beynəlxalq səviyyədə Kitabi-Dədə Qorqudun 1300 illiyi qeyd olundu. Heydər Əliyev bununla da dastanın türk dünyasına məxsus olduğunu, lakin Dədə Qorqudun vətəninin Azərbaycan olmasına tarixin təsdiq imzasını vurdu. Xalq yazıçısı Süleyman Rəhimov 1948-ci ildə Azərbaycanın maarifpərvər və xeyriyyəçi oğlu, milyonçu Hacı Zeynalabdin Tağıyevin qızı Sara xanımın ağır maddi durumunu yaxşılaşdırmaq üçün çox az maaşlı bir işlə təmin etdikdən iki gün sonra MKN-nın I katibinin qəbuluna çağrılır. Yazıçı etdiyi yaxşılığa görə təhqir olunur, hədələnir. Heydər Əliyev 1969-cu ildə dövlət rəhbərliyinə gəldikdən cəmisi 4 ay sonra yazıçı Süleyman Rəhimovu gözlənilmədən qəbul edir. Böyük Heydər Əliyev əslində Süleyman Rəhimovu qəbul etməklə Azərbaycan ədəbi mühitinə dolayısı ilə müdafiə olunmaları barədə sosial sifariş göndərir, onların yaradıcılığına əlverişli münbit mühit yaradırdı. Heydər Əliyev yazıçı Süleyman Rəhimova 1980-ci ildə Sosialist Əməyi Qəhrəmanı adını verdiyi üçün düz 10 il çalışmışdır. Böyük Öndər Sara xanımın atası Hacı Zeynalabdin Tağıyevə həmişə böyük ehtiram nümayiş etdirmişdir. Heçkimə sir deyil ki, Azərbaycan Respublikasının Tarix muzeyi yara-

dılarkən Heydər Əliyev həmin muzeyi Hacı Zeynalabdin Tağıyevə məxsus yaşayış evində yerləşdirmişdir. Bununla da Heydər Əliyev çox böyük uzaqgörənlik göstərirdi və dolayısı ilə əslində Hacı Zeynalabdin Tağıyevi unutqanlıqdan qoruyurdu. Nəzərə alaq ki, möhtərəm Prezidentimiz İlham Əliyev cənabları Tarix muzeyini əsaslı şəkildə bərpa etdirən zaman binanın və otaqların Hacının sağlığında necə var idisə o cür də yenidən qurulmasını nəzarətdə saxlamışdır. 1950-1960-cı illərdə Azərbaycan şairi Məhəmməd Füzulinin İraqda qəbrinin qorunması və məqbərəsinin tikilməsi məsələsi bir neçə dəfə gündəliyə gəlsə də ciddi addımlar atılmamışdır. Azərbaycan yazıçılarının VII qurultayında bu məsələ barədə danışan Heydər Əliyev deyirdi: “Bir neçə il bundan qabaq bizə məlum oldu ki, Kərbəlada Füzulinin qəbrini söküblər və onun sümüklərini bir qutuya yığıb hansı bir məscidin zirzəmisində saxlayırlar. Biz öyrəndik ki, həqiqətən oranı söküblər, bu plana düşübdür. Başqa bir yerdə qəbiri bərpa edəcəklər. Biz dövlət orqanları vasitəsi ilə müəyyən tədbirlər gördük. Mərkəzi Komitədə belə məsləhət gördük ki, əgər bu işə bizim elm xadimlərimiz, yazıçılarımız, dünyada tanınmış adamlarımız qarışsalar bu məsələni həll edərik. Dövlət xətti ilə yox. Bilirsiniz ki, Füzuli sovet vətəndaşı deyil. Füzuli bizim Azərbaycan şairidir. Ancaq yazıb-yaradıb və vəfat edib İraqda. Bu məsələni ayrı-ayrı alimlər vasitəsi ilə daha tez həll etmək olar. Heç bir yoldaş bu sahədə ürəklə, can-başla patriotik hisslərlə çalışmır. Həmid Araslı məktub yazıb, İraq

konsulu deyib ki, baxarıq. Həqiqətən bunu istəyirsənsə gedib o konsulun boğazından tut və de ki, Füzuli mənimdir. Füzuli mənim tarixim, Füzuli mənim mənliyimdir. Siz niyə bu işə belə yanaşırsınız? Əgər siz belə bir iş tutsanız heç kim sizi tutmaz.Yenə deyirəm əgər bizim mədəniyyətimiz, tariximiz üçün siz belə hərəkətlər edərək müəyyən qədər cızığınızdan çıxsanız, qorxmayın... Bizim respublikamızda heç vaxt heç kimdən sizə xəta toxunmaz. Çünki bu xalq mədəniyyəti üçündür. Bizim respublikamız üçündür."

Böyük Öndər Heydər Əliyev Suriya dövlətinə səfərlərinin birində şair İmaməddin Nəsiminin məzarını ziyarət etmək istəyir. Ziyarət baş tutur. Heydər Əliyev bununla Böyük sevgi ilə hələ o zaman geniş tanınmayan Nəsimini dahi mütəfəkkir kimi Azərbaycan xalqına və dünyaya tanıdırdı. Bu ziyarət Nəsiminin məzarının gələcəkdə daha yaxşı qorunmasından ötrü və SSRİ ilə münsibətlərdə Azərbaycanı qiymətləndirməyə Suriya tərəfə ciddi bir işarə idi. Heydər Əliyev ədəbiyyatdan və ədəbi irsdən məharətlə ümumi mənafelər naminə istifdə edir, Azərbaycan xalqının nüfuzunu gücləndirir və özüdə ucalırdı. Klassik irsə belə münasibəti yalnız böyük azərbaycansevər, dahi şəxsiyyət bəsləyə bilərdi. 1973-cü ildə şairin 600 illik yubileyi keçirildi. 29 ölkədə şeirləri ingilis, fransız dillərinə tərcümə olundu. Bununla Heydər Əliyev təkcə Nəsimini deyil Azərbaycanı dünyaya tanıtmaqda ciddi adım atmış oldu. 1966-cı ildə Heydər Əliyev Şuşa şəhərində olan zaman Molla Pənah

Vaqifin qəbrini ziyarət etmək istəyir lakin şairin uyuduğu məkan çox çətinliklə hətta bir neçə gündən sonra tapılır. Ancaq qəbir sahibinin adına layiq deyildi. Heydər Əliyevin göstərişi ilə şairin adına layiq stella qoyulur və sonralar 1982-ci ildə Molla Pənah Vaqifin adına layiq məqbərə inşa etdirir. Daha bir misal: Heydər Əliyev 1981-ci ildə Nizami Gəncəvinin 840 illik yubileyini keçirilməsi üçün təklif verəndə sovet İKPMK-nin II katibi M. Suslov demişdir ki; Bu tarix yuvarlaq tarix deyil. Gərək ya 800, 850, 900 olsun. Heydər Əliyev ona cavab vermişdir ki, Nizami Gəncəvi elə şəxsiyyətdir ki, onun yubileyini hər il keçirmək lazımdır. Çünki, dünyanın müxtəlif ölkələrinin və xalqlarının 500-dən çox şairi xüsusi ilə Nizami bədii irsindən bəhrələnmişdir. Ədəbiyyatşünaslıq elmində Nizamişünaslıq meydana gəlmişdir. 1981-ci ildə Nizami Gəncəvinin 840 illik yubileyi xüsusi təntənə ilə keçirilmiş dünyanın 20-dən artıq ölkəsinin nümayəndələri tədbirdə iştirak etmişlər. Türkçülük və turançılıq adı ilə uzaq Sibirə sürgün edilən görkəmli Azərbaycan dramaturqu Hüseyn Cavidin nəşinin Sibirdən vətənə gətirilməsi o dövr üçün çətin bir iş idi. İdeoloji siyasət buna zidd idi. Heydər Əliyev möhtəşəm addımı ilə bununla doğma torpağı ölkənin başqa yerlərindən üstün tutduğuna, Azərbaycanla sıx bağlılığına işarə edir, respublikanın müstəqilliyini öncədən görür, 30-cu illərdə didərgin salınmış türkçülüyü və turançılığı vətənə qaytarırdı. 26 oktyabr 1982-ci il tarixdə Hüseyn Cavidi doğmaları ilə ruhən birləşdirmək və qəbri üzərində ən gözəl memarlıq incisini

yaratmaq yalnız Heydər Əliyevə məxsus ola bilərdi. Heydər Əliyev 60-80 -ci illərdə milli ruhlu ədəbi simaların yaradıcılığının həm müdafiəçisi həm də himayədarı idi. “Gülüstan” poemasına görə şair Bəxtiyar Vahabzadə nəzarətə alınanda onu xilas edəndə Heydər Əliyev idi. 1964-cü ildə qərar qəbul edilmişdir ki, Azərbaycan 150 il əvvəl könüllü olaraq Rusiyanın tərkibinə daxil olub. Akademik Ziya Bünyadov bu qərarın əksinə çıxır. Akademikə qarşı ciddi təhdidlər başlayır. Böyük öndər Heydər Əliyevin MK-nin plenimunda Ziya Bünyadovu tənqid edir. Əslində dolayısı ilə onun müdafiəsini öz üzərinə alır. Az sonra Heydər Əliyev onu Elmlər Akademiyasının şərqşünasdlıq institutunun direktoru təyin edir. “Azərbaycan Atabəylər dövləti” mükafatı alır. 1980-ci ilin mart ayının 15-də Heydər Əliyev 147 saylı məxfi məktubla Sov. İKPMK-ya müraciət edərək zəmanəsinin görkəmli dirijoru Niyaziyə sosialt əməyi qəhrəmanı adı verilməsi məsələsini qaldırır. Bu həmin vaxtdır ki, ölkədə heç bir dirijor bu ada layiq görülməmişdir. Etirazlar edilir. Necə ola bilər ki, Rusiyanın, Ukraynanın və başqa böyük millətin nümayəndələrindən, hətta Moskvanın simfonik orkestralarının dirijorlarından heç kim bu adı almasın, amma bu ad ilk olaraq Niyaziyə verilsin. Heydər Əliyevin cavabı çox qısadır: “Əgər indiyədək bu adı kimsəyə verməyibsinizsə bu, sizin bəlkə də səhvinizdir. Amma Niyazi bu ada layiqdir”. 1982-ci ildə görkəmli dirijora bu yüksək adın verilməsi Azərbaycan musiqi sənəti tarixində möhtəşəm hadisə idi. Heydər Əliyev Azərbay-

can tarixi ilə bağlı filmlərin çəkilişinə xüsusi fikir verir və bu məsələni Moskva strukturları qarşısında qətiyyətlə qadırırdı. Heydər Əliyev 1972-ci il avqust ayının 24-də 350 nömrəli məktubla MK-yə müraciət edərək "Nəsimi" kinofilminin çəkilişi ilə əlaqədar Suriya və Türkiyəyə 10-12 nəfərin 1 ay müddətinə ezam edilməsi üçün icazə verilməsini xahiş edir. Lakin regionda siyasi vəziyyət mürəkkəb olduğundan bu qədər şəxsin həmin ölkələrə ezam edilməsi mümkün olmur. Nəhayət 1973-cü ilin ortalarında 7-10 gün müddətinə həmin ölkələrdə filmin çəkilişinə icazə verildi. Və "Nəsimi" filmi Hələb şəhərində yekunlaşdı. 1978-ci il 14 aprel tarixində "Babək" kino filminin çəkilişi məsələsi MK-nin bürosunun iclasında müzakirə olunur. Maliyyə çatışmazlığı fikri səslənir. Dərhal köməklik göstərilir və 80-ci illərin sonlarında film işıq üzü görür. Bu fikirləri "Dədə Qorqud" kino filmi haqqında da söyləmək olar. Heydər Əliyev DTK sədri işlədiri zaman Rüstəm İbrahimbəyov və Eldar Quliyev "Bir cənub şəhərində" kinofilmini çəkmişlər. Filmin nümayişinə qadağa qoyulmuşdur. SSRİ Daxili İşlər Naziri General Şelokov xüsusilə narahat idi. Səbəbi isə filmdə sovet milisinin rüşvət alması faktlarının nümayişi idi. Yaxud "İstintaq" filmi təkcə sənətkarlıq baxımından deyil, eyni zamanda sovet cəmiyyətinin eybəcərliklərini açmaqda cəsarətli bir addım idi. Və Heydər Əliyev hələ Moskvada yüksək vəzifədə olan zaman bu istiqamətdə fəaliyyətini əzmlə davam etdirirdi. Heydər Əliyevə ölkə rəhbəri vəzifəsini tutmaqda əsas rəqibi kimi baxan məhdud

düşüncəli M. Qorbaçov hakimiyyətə keçdikdən sonra ona mənfi münasibət bəsləyir, əleyhinə əsassız ittihamlar səsləndirirdi. Heydər Əliyev isə bu uydurmaları qətiyyətlə rədd edirdi. Siyasi büronun iclaslarının birində Heydər Əliyev Qorbaçova və Liqaçova məsləhət görür ki, "İstintaq" filminə baxsınlar və baxdırırda Heydər Əliyev cəsarətlə bildirdi ki, sənin indi başladığın işi mən çoxdan başlamışam, hətta ekranlaşdırmışamda. Film dövlət mükafatı almışdır. 1969-cu ilə qədər 40 mindən çox nadir yazılı abidə saxlanılan Respublika Əlyazmalar Fondu zirzəmilərdə rütubətli və qaranlıq otqlarda saxlanıırdı. 1981-ci ildə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Əlyazmalar Fondu İnstituta çevrilir və ən yaxşı binalarda yerləşdirilir. Heydər Əliyev bu qərara gələrkən hesab edirdi ki, qədim kitablar Azərbaycan xalqının tarixi keçmişi və mili sərvətidir. Qərardan sonra nəmli zirzəmilərdə saxlanılan kitablar bərpa edilərək bir muzey nümunəsi kimi qorunub saxlanılmağa başlanıldı. Böyük öndər Heydər Əliyevin təşəbbüsü yaradıcı rəhbərliyi və iştirakı ilə Azərbaycan xalqının həyatında və tarixində böyük rol oynamış görkəmli şəxsiyyətlərə aid monumental sənət əsərləri yaradılmış, abidələr ucaldılmışdır. Bu abidələr Azərbaycanın görkəmli söz sənət adamlarının, tarixi şəxsiyyətlərinin xatirəsini əbədiləşdirməklə yanaşı mükəmməl sənət nümunələri kimi mədəniyyət xəzinəmizə daxil olmuşdur. Böyük öndərin rəhbərliyi dövründə xalqımızın 23 nəfərdən artıq görkəmli mədəniyyət xadimlərinin ev muzeyləri yaradılmışdır. Zəngin mənəvi irsimizin qorunmasında, milli

mədəni ənənələrimizin yaşadılmasında həmin ev muzeyləri bu gün mənəviyyat ocaqları və mərkəzləri kimi xalqımızın xidmətindədir. 1969-cu ildən 1982-ci ilə qədər 14 dövlət teatrının fəaliyyətə başlaması vətəndaşların mənəviyyatının saflaşmasında indidə mühüm rol oynamaqdadır. Onun rəhbərliyi dövründə keçmiş SSRİ və xarici ölkələrdə Azərbaycan Mədəniyyəti günlərinin keçirilməsinə xüsusi önəm verilmişdir. Keçirilən bütün tədbirlərdə açılışlar "Azıx mağarası"nın nümayişi ilə başlanılırdı. Dünyada tarixi əhəmiyyətinə görə 3-cü yerdə dayanan bu tapıntı ilə Böyük öndər göstərirdi ki, Azərbaycan torpağı həqiqətən bəşər mədəniyyətinin ən qədim məskənlərindən və ilk beşiklərindən biridir. 1982-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Tarix- Diyarşünaslıq muzeylərinin yaradılması haqqında qərar qəbul edilir. Azərbaycanın qədim tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpasına yeni nəfəs verilir. Bu gün qədim Azərbaycan xalçaları dünyanın ən məhşur muzeylərinin qiymətli eksponatlarıdır. 1972-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Xalça muzeyinin yaradılması Azərbaycan Xalq tətbiqi sənətinin dünyada təbliğinə və tanıdılmasına böyük bir töhvə idi. Heydər Əliyevin Azərbaycan mədəniyyəti qarşısında ən böyük ximətlərindən biri də xarici ölkələrdə fəaliyyət göstərən və Azərbaycan dilində verilişlər hazırlayan radio stansiyaların vasitəsi ilə Azərbaycan mədəniyyətinin, incəsənətinin və musiqisinin təbliğinə efir vasitəsi ilə nail olunmasıdır. Bu radio stansiyalar xarici ölkə-

lərlə mədəni əlaqələrin qurulmasında sonralar ölkəmizlə körpü rolunu oynamışlar. 1979-cu ildən etibarən Tehranda Azərbaycan dilində “Varlıq” jurnalı çap olunur. Redaktoru Cavad Heyyət Azərbaycana gəlirdi. Yeni bir jurnal “Odlar yurdu”, “Araz” qəzetləri çap olunur. 1980-ci illərdən sonra çap olunan “Koroğlu”, “Dədə Qorqud” jurnallarında sovet Azərbaycanı haqqıda yazılar çap olunur. Bununla Heydər Əliyev bütöv Azərbaycan idealını, müstəqil dövlətçilik hisslərini gücləndirirdi. Heydər Əliyev xarici ölkələrlə mədəni əlaqələrin qurulmasında xaricdə işləməyə göndərilən ali təhsilli mütəxəssislərin qarşısında vacib vəzifələr qoyurdu. Statistik rəqəmlər göstərir ki, 1973-cü ildə 139 nəfər, 1974-cü ildə dünyanın 20 ölkəsində 309 nəfər, 1975-ci ildə 35 xarici ölkədə 465 nəfər, 1978-ci ildə 475 nəfər, 1979-cu ildə 36 ölkədə 482 nəfər, 1980-ci ildə isə dünyanın 39 ölkəsində 486 nəfər diplomlu mütəxəssis işləyirdi. Həmin illərdə respublika nazirlik, idarə, müəssisə və təşkilatlarının 974 əməkdaşı dünyanın 50 ölkəsində ezamiyyətdə olmuşdur. 120 nəfərdən çox azərbaycanlı alimin əsərləri xaricdə çap olunmuş, Elmlər Akademiyasının 97 alimi xarici ölkələrə səfərlər etmişdir. Bütün bu səfərlərin başlıca tapşırıqlarının birincilərindən biridə həm də həmin ölkələrdə yaşayan həmvətənlərlə əlaqələrin yaradılması Azərbaycan mədəniyyətinin tanıdılması və təbliği idi. “Mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir” deyən Heydər Əliyev özünün müqayisə olunmaz və lçüyə gəlməz xidmətləri ilə Azərbaycan mədəniy-

yət salnaməsinin hər bir səhifəsinə qızıl həriflərlə həkk olunmuşdur. Bu gün tam cəsarətlə və qətiyyətlə demək olar ki, Azərbaycan mədəniyyətinin yüksəlişi, onun dirçəlişi, zənginləşməsi geniş miqyasda təbliği və bütün dünyada tanınması Heydər Əliyevin adı ilə bağlıdır. Həqiqətdir ki, Azərbaycan mədəniyyətində mövcud olan böyük simalar və onların yaratdığı ölməz əsərlər tariximizin heç bir mərhələsində Heydər Əliyev zamanında olduğu qədər yüksək qiymətləndirilməyib. Heydər Əliyevin həyat epopeyası əsrin mübarizəsində qalib çıxmış epopeyadır. Onun irsi vətənə xidmət sevgisi duyğuları ilə yaşayan hər bir insan üçün dərin idrak mənbəyidi. Bu mənbə isə layiqli hər bir vətəndaş üçün daim qiymətli və əzizdir. Mədəniyyətimizin milli, mənəvi dəyərlərimizin və mədəni incilərimizin yaşadılması və qorunması bu gün möhtərəm prezidentimiz İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. Ölkə prezidenti tərəfindən mədəniyyətimizin inkişafı ilə bağlı 150-dən artıq fərman və sərəncamın imzalanması bu sahəyə dövlət başçısının ali diqqətinin ideal bir nümunəsidir.

***“Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsinin keçirilməsi haqqında***

## *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN*

## *S Ə R Ə N C A M I*

“Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının Azərbaycan Respublikası Prezidentinin 21 fevral 1999-cu il tarixli, 98 saylı Sərəncamı ilə təsdiq olunmuş tədbirlər planına uyğun olaraq qərara alıram:

“Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyinə həsr olunmuş təntənəli gecə Türkdilli dövlətlərin VI Zirvə toplantısına gəlmiş dövlət başçılarının iştirakı ilə Bakı şəhərində 2000-ci il aprelin 9-da keçirilsin.

***Heydər Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 fevral 2000-ci il, № 330***

***Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü və diqqət-qayğısı ilə  paytaxt Bakıda mədəniyyətimizin və incəsənətimizin tanınmış nümayəndələrinin xatirəsinin əbədiləşdirilməsi məqsədilə ucaldılmış abidələri***




NƏRİMAN
NƏRİMANOV


HÜSEYN CAVİD






Мехти Гусейн-заде


Mikayıl Müşfiq

***Mikayıl Əbdülqədir oğlu İsmayılzadənin (Mikayıl Müşfiqin) 90 illik yubileyi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN***

## *S Ə R Ə N C A M I*

Azərbaycanın görkəmli şairi Mikayıl Əbdülqədir oğlu İsmayılzadənin (Mikayıl Müşfiqin) 90 illik yubileyi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə və Elmlər Akademiyasına tapşırılsın ki, Yazıçılar Birliyi ilə birlikdə Mikayıl Əbdülqədir oğlu İsmayılzadənin (Mikayıl Müşfiqin) 90 illik yubileyi ilə bağlı lazımi tədbirlər hazırlayıb həyata keçirsinlər.

***Heydər Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 iyun 1998-ci il, № 824***

***Dahi Azərbaycan dramaturqu və şairi Hüseyn Cavidin nəşinin uzaq Sibirdən Azərbaycana gətirilməsi, doğma yurdu Naxçıvanda dəfn olunması, Naxçıvanda Cavid ev muzeyinin açılması, Cavidlər kompleksinin yaradılması Ulu öndər Heydər Əliyevin milli mənəvi dəyərlərimizə göstərmiş olduğu diqqət və qayğının sonsuz təzahürüdür.***








29.10.1996-cı il


HÜSEYN CAVİD


HÜSEYN CAVİD
1882 - 1941
ƏRTOĞROL
CAVİD
1919 - 1943





***Teatr müqəddəs yerdir! İnsanların mənəvi cəhətdən formalaşmasında teatr həmişə çox böyük rol oynamışdır.***

***Heydər Əliyev***
***Ümummilli lider***

## *Heydər Əliyev və Azərbaycan teatrı*

Ümummilli liderimiz, ulu öndər Heydər Əliyev hər zaman mədəniyyət və incəsənətimizin böyük hamisi olan fenomen bir şəxsiyyətin teatr sənətinə verdiyi yüksək qiymət bütün parlaqlığı ilə özünü əks etdirib. O, tamaşaların premyeralarına gələr, tamaşa bitdikdən sonra səhnə arxasına keçər, dramaturqla, rejissorla, rəssamla, ayrı-ayrı aktyorlarla bu sahənin bilicisi kimi söhbət edər, fikirlərini bildirərdi. Ulu öndərimiz ömrünün son günlərinə qədər bu ənənəni davam etdirmişdir. Heydər Əliyevin teatra gəlişi, səhnə arxasında yaradıcı heyətlə görüşləri, söhbətləri, bir qayda olaraq, televiziya vasitəsi ilə xalqa çatdırılırdı. Böyük həvəs, maraq və heyrətlə bu görüşlərə baxırdıq. Heydər Əliyevin sənət haqqındakı fikirləri, yeri gələndə dramaturqa, rejissora və aktyorlara xoş sözlərlə bərabər haqlı irad tutması o qədər obyektiv, professional səviyyədə tutarlı olurdu ki, mən bir teatrşünas kimi heyranlığımı gizlədə bilmirdim. Bəli, Heydər Əliyev doğrudan da fenomen bir şəxsiyyət idi. Çox vaxt Heydər Əliyevi Mustafa Kamal Atatürklə müqayisə edir, onların ruhən bir-birinə yaxın olduqlarını deyirlər. Bu yerdə mən Mustafa Kamal Paşanın bir tamaşadan sonra səhnə arxasına keçib aktyorlarla görüşünü və onu müşayiət edən məmurlara dediyi sözləri xatırladım: "Əfəndilər, onu bilin ki, hər biriniz nazir, millət vəkili, hətta cumhurbaşqanı da ola

bilərsiniz. Amma sənətçi ola bilməzsiniz. Gəlin həyatını bu müqəddəs işə qurban vermiş cocukları sevək!”.

H. Əliyev teatr sənətinin məna və mahiyyətini, onun insanların qəlbinə, hissinə, əqidəsinə dərin təsirini, tərbiyəvi əhəmiyyətini, ideya-estetik keyfiyyətini dərindən duyurdu, bu sənətin təcrübi və nəzəri əsaslarına yaxşı bələd idi. H. Əliyevin sənət adamlarına hörməti hər zaman hədsiz olub. Onun tamaşalara hər gəlişi, fikir söyləməsi teatr kollektivlərini yeni-yeni yaradıcılığa səsləyirdi. Teatrların repertuarları yeniləşdi, zənginləşdi, klassik əsərlərin yozumuna müasir baxış qüvvətləndi. Azərbaycanın görkəmli sənətkarına SSRİ-nin Xalq artisti, yaxud Sosialist Əməyi Qəhrəmanı adının verilməsinə H. Əliyev böyük mənəvi və fiziki qüvvə sərf etdi. H. Əliyev incəsənət xadimlərinə böyük ehtiramla yanaşırdı: “Mədəniyyət uşaq kimidir. Həmişə tumar və qayğı istəyir. O həssasdır: əlinin tumarı, ürəyinin qayğısı azca azalan kimi o hiss edir, küsür, inciyir. Siyasi rəhbər, dövlət xadimi, ölkə başçısı bunu bilməlidir, bir an yadından çıxarmamalıdır”.

1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi münasibətilə Respublika Sarayında (indiki Heydər Əliyev adına sarayda – ***A.B.***) keçirilən təntənəli yığıncaqda Azərbaycan rəhbərinin teatrımızın tarixi, keçdiyi çətin, mürəkkəb və şərəfli yaradıcılıq yolu haqqında qüdrətli teatrşünas və müdrik siyasətçi baxışı ilə söylədiyi dolğun, mənalı məruzəsi yalnız teatr xadimləri deyil, eyni

zamanda xalqımız tərəfindən məmnunluqla, heyranlıqla qarşılandı: "Teatr müqəddəs yerdir; tərbiyə ocağıdır. Orada çalışanlar fədakardırlar, fədaidirlər... Teatr xadimləri tamaşaçıya bir söz demək üçün, mədəni səviyyəni yüksəltmək üçün, irəliləyişimizə mane olanlara qarşı mübarizəyə qaldırmaq üçün nə qədər çalışırlar. Heç kim bilmir ki, artist səhnəyə çıxıb rolu tamaşaçı qarşısında oynadığı vaxta kimi nə qədər həyəcan, sevinc keçirir".

Qeyd etmək lazımdır ki, Azərbaycan teatrının 100 illik yubileyi (1974) respublikamızın həyatında böyük mədəni və siyasi əhəmiyyətli hadisəyə, teatr bayramına çevrildi...

Böyük dövlət rəhbərinin 100 illik yubileydə tarixi nitqini söylədiyi zamanda görkəmli rejissor Tofiq Kazımov artıq on il idi ki, M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının baş rejissoru idi. Bu on il ərzində Tofiq Kazımov psixobioqrafiyasında gizlədilən "zədə"ləri, demək olar ki, tam sağaltmasa da, ağrı-acılarını xeyli yüngülləşdirmişdi. Amma məhz bu məqamda, onun əleyhinə olan bəzi "kəslər" sənətkarın ətrafında yaradıcılıqla bağlı olmayan "işlər" görməyə başladılar. Bu işlərdə səriştəli olan "intriqaçı"lar T. Kazımovu ruhdan salmaq, onu əsəbiləşdirmək, düşünülməmiş, çılğın, emosional addımlar atmağa təhrik etməkdən ötrü xeyli çalışdılar. Bəzi bədxahların məkrli əlləri o vaxtkı hakimiyyətin ali eşelonlarına belə çatırdı...

T. Kazımovun başının üstünü “qara bulud”lar alırdı. Tədricən yaranan və sənətkarın “gününü qara” edən buludlar bir anın içində parçalandı, havaya sovruldu. T. Kazımovu normal yaradıcı həyata qaytaran yenə də ulu öndərimiz Heydər Əliyev oldu. “Şəhərin yay günləri” tamaşasında pərdə axırıncı dəfə bağlanandan sonra Heydər Əliyev adəti üzrə səhnəyə qalxdı: yaradıcı heyət onu alqışlarla qarşıladı, o da cavabında hamıya bir-bir əl çaldı. Yaranmış sükutu pozmağa heç kim cürət etmirdi. Sükutu Heydər Əliyev özü pozdu. Onu müşayiət edən rəsmilərə sarı döndü və konkret olaraq, heç kimə müraciət etmədən uca səslə dedi:

– Bəs deyirdiniz Tofiq Kazımov bir rejissor kimi tükənib?! Mən isə gözəl rejissor işini gördüm.

Birinci Katibin bu sözləri sürəkli alqışlar qopartdı. Amma o, əlini qaldırdı və sözünə davam etdi:

– “Şəhərin yay günləri” çox lazımlı, aktual olmaqla yanaşı, əsl bədii əsərdir. Hamınızı təbrik edirəm.

Beləliklə, “Şəhərin yay günləri” pyesinin tamaşasına baxdıqdan sonra yaradıcı heyətlə görüşən ölkə rəhbəri Anarın bu pyesini yüksək qiymətləndirmişdi, psixoloji realizim üslubunda yazılmış, ali məktəbə qəbul məsələsinə toxunan, rüşvətxorluğu, əliəyriliyi kəskin tənqid edən bu pyesin əhəmiyyətini vurğulamışdı. “Şəhərin yay günləri” tamaşasının quruluşçu rejissoru, ustad rejissorumuz Tofiq Kazımov, aktyorlardan Səməndər Rzayev və Şəfiqə Məm-

mədova 1978-ci ildə Respublika Dövlət mükafatına layiq görüldülər.

1998-ci il oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Dövlət Musiqili Komediya Teatrının açılış mərasimində öz mövqeyini bir daha səsləndirmişdi: "Bəlkə, kimsə deyə bilər ki, biz ağır vəziyyətdə olduğumuz bir zamanda nə üçün teatr binasının tikintisinə bu qədər xərc qoyulubdur. Ancaq yox, biz Azərbaycan xalqının mədəniyyətinin inkişafını heç vaxt dayandıra bilmərik. Bizim xalqımız öz mədəniyyəti, elmi ilə yüksəlibdir. Biz mədəniyyətə nə qədər diqqət yetirsək, qayğı göstərsək, mədəniyyət xadimlərinin yaradıcılığı üçün imkanlar yaratsaq, xalqımızı da o qədər yüksəldəcəyik, xalqımızın mənəviyyatını daha da yüksəklərə qaldıracağıq.

Müstəqil Azərbaycan dövlətinin Azərbaycan Prezidenti kimi mənim siyasətimin böyük bir qolu bundan ibarətdir. Əmin ola bilərsiz ki, bu siyasəti mən bundan sonra da davam etdirəcəyəm".

Heydər Əliyevin geniş erudisiyası, mükəmməl analiz bacarığı və incə bədii-estetik zövqü çox tez bir zamanda onu teatr çevrələrində də danılmaz bir avtoritetə çevirmişdi. Onun baxdığı tamaşalardan sonra yaradıcı heyətlə apardığı söhbətlər aktyor və rejissorlar üçün hər şeydən əvvəl əsl teatral ilə səmərəli ünsiyyət aktına çevrilirdi. Ancaq tamaşadan sonra səhnəyə qalxan və tamaşanın yaradıcı heyəti ilə söhbət edən yalnız dövlət başçısı deyil, ilk növ-

bədə, sənət adamlarının çox sevdiyi, ehtiram bəslədiyi həssas, bilikli və səmimi teatr tamaşaçısı idi. Məhz buna görə, onun “səhnə söhbətləri” həm də teatr tarixinin faktlarına dönürdü.

Heydər Əliyevin “səhnə söhbətləri”nə konseptual prizmadan yanaşsaq, burada teatrşünaslığın təməli anlayışlarını aşkarlaya bilərik. Belə ki, Heydər Əliyev pyeslə – tamaşanın ədəbi əsası ilə zaman-məkan sənət növü olan tamaşanın köklü fərqini vurğulayır və əsərin “məzmununu, mənasını” tam dərk etməkdən ötrü onu “yaşamaq” şərtini önə çəkirdi. Səhnə əsərinin özünəməxsus təsir spektrini açıqlayan nitqlərində Heydər Əliyev teatrşünaslıq analizinin təməlində duran əsaslara arxalanırdı. Tamaşanın estetik, psixoloji və mənəvi təsirinin əhəmiyyətini alim dəqiqliyi ilə vurğulayan Heydər Əliyev istənilən tamaşanın başlıca məqsədini – emosional hasilini qeyd edirdi. Tamaşadan həyəcanlanmaq qabiliyyətini ömrü boyu itirməyən ulu öndər nəinki tarixi şəxsiyyətdir, həm də tarixi yaradan şəxsiyyətdir. Görünür elə buna görə də Heydər Əliyev mövzusu zaman-zaman bədii təfəkkürə güclü təsir göstərmiş və göstərməkdədir.

Heydər Əliyev İlyas Əfəndiyevin “Hökmdar və qızı” tamaşasına o vaxt respublikamızda qonaq olan görkəmli alim İhsan Doğramacı ilə birlikdə gəlmişdi. Tamaşadan sonra Heydər Əliyev qonaqla birgə səhnə arxasına gəlib yaradıcı heyəti təbrik etdi. Həmin görüşdə Hey-

dər Əliyev İlyas Əfəndiyev haqqında belə dedi: “İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir. Çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı bir də ona görə əhəmiyyətlidir ki, o, öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünki nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir”.

“Qayıdış” adlı sənədli televiziya filmində H. Əliyev deyir: “13-14-15 yaşlarımda Naxçıvan Dövlət Teatrının tamaşalarına çox böyük həvəs və maraqla baxırdım. İbrahim Həmzəyevin ifa etdiyi rolların vurğunu idim. Sonralar eşitdim ki, İ. Həmzəyev dram dərnəyi təşkil edib. Mən o dərnəyə yazıldım və həvəslə iştirak etdim. Mən teatrla gənc yaşlarımdan məşğul olmuşam. Baş rollarda oynamışam. Mən həmişə teatra yaxın və bağlı adam olmuşam. Bu ötəri hiss deyil, içimdən gələn bir məhəbbətdir. Teatrı çox sevirəm. Teatra məhəbbət mənim içimdə var”.

“Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır”, deyən rəhbər qayğı göstərməklə yanaşı, obyektiv olmağı da qoruyurdu. Xalq artisti A. Pənahova öz xatirələrində qeyd edirdi ki, Azərbaycan Dövlət Akademik Dram Teatrında görkəmli dramaturqumuz İ. Əfəndiyevin “Mahnı dağlarda qaldı” tamaşasının Dövlət mükafatı alması şəxsən H. Əliyevin təşəbbüsü ilə baş tutub. Belə ki,

Dövlət mükafatı üzrə komissiya üzvləri bir yerə yığışıb tamaşaya baxa bilməyibmərmiş. Sonra onlar baxmaq istəyəndə Böyük bəy rolunun ifaçısı İsmayıl Dağıstanlı xəstələnir. Tamaşa göstərilmir. Odur ki, dövlət komissiyasının yekun iclasında H. Əliyevə təqdim olunan siyahıda “Mahnı dağlarda qaldı” tamaşasının adı olmur. H. Əliyev bunun səbəbini soruşduqda komissiya üzvləri bir yerdə tamaşaya baxa bilmədiklərini söyləyiblər.

Ulu öndər üzünü komissiya üzvlərinə tutub deyir: “Mən tamaşanı görmüşəm. Çox bəyənmişəm. Mən tamaşaya baxanda sizin əksəriyyətiniz də teatrda idiniz. Tamaşaya baxırdınız. Kim tamaşanı görməyib, yaxud bəyənməyib, qoy sözünü desin”.

Heç kimin dinmədiyini görən H. Əliyev:

– Niyə susursunuz? Kim “Mahnı dağlarda qaldı” tamaşasına Dövlət mükafatı verilməsinə razıdırsa, səs versin. Burada adları çəkilən artistlərə etirazınız yoxdursa, gəlin səsə qoyaq.

Komissiya üzvləri ayrı-ayrılıqda öz müsbət rəylərini bildirdikdən sonra “Mahnı dağlarda qaldı” tamaşası Azərbaycanın ilk Dövlət mükafatına layiq görüldü.

1981-ci ildə görkəmli dramaturqumuz İlyas Əfəndiyevin “Xurşud Banu Natəvan” pyesinin tamaşasına Azərbaycan KP MK-nin büro üzvləri ilə birlikdə baxan H. Əliyev əsərin və tamaşanın orijinal təhlilini vermiş, ifaçılara öz fikirlərini söyləmişdi: “Siz ilk növbədə Natəvan

– bu şairə haqqındakı şaiyələrə son qoydunuz. Natəvanı gözəl Azərbaycan qadını kimi bizə təqdim elədiniz, bununla yanaşı, gözəl xan qızının timsalında siyasi baxımdan və onun xan qızına layiq hərəkətləri ilə bizim şərq qadınlarının obrazını yarada bildiniz. Mən buna görə sizə sağ ol deyirəm. Həm də son monoloqunuza görə sağ ol deyirəm".

Sonralar da ayrı-ayrı vaxtlarda H. Əliyev Azərbaycan teatrının "Xəyyam", "İblis", "İnsan", "Dəli yığıncağı", "Fərhad və Şirin", "Darıxma, ana", "Aydın" və s. tamaşalarına baxmış, yaradıcı heyətə öz dəyərli tövsiyyələrini vermiş, onları yeni yaradıcılıq uğurlarına ruhlandırmışdır. Onun baxdığı son tamaşa isə görkəmli rejissorumuz, Xalq artisti A. P. Nemətin "Hamlet" tamaşası idi.

Heydər Əliyevin dəyərli teatr-estetik görüşləri onun ayrı-ayrı iclaslarda, müşavirə və toplantılarda, plenum və qurultaylarda çıxışları zamanı teatr haqqındakı fikirlərində, ayrı-ayrı sənətkarlarla görüşlərində dediyi sözlərdə, görkəmli sənətkarların yubileylərində göndərdiyi təbrik teleqramlarında, baxdığı tamaşalar barədə mülahizələrində öz dolğun əksini tapıb.

Ümummilli liderimiz Heydər Əliyev ömrünün sonuna qədər Azərbaycan incəsənətinin, o cümlədən Azərbaycan teatrının inkişafı üçün əlindən gələni əsirgəmədi. Onun ölməz ideyaları bu gün də yaşayır, bu gün də bizim yol göstərənimizdir.

Heç şübhəsiz ki, ulu öndərimiz Heydər Əliyevin böyük diqqət və qayğısı nəticəsində inkişaf etmiş Azərbaycan teatrı gələcəkdə daha yüksək sənət zirvələri fəth edəcəkdir.



***Şərqdə ilk teatr olan Azərbaycan teatrı maarifçilik və azadlıq ideyalarının carçısına çevrildi, köhnə dünyanı dağıdıb alt-üst etməkdə mühüm rol oynadı.***

***Heydər Əliyev***
***Ulu öndər***















***Teatra getmək mənim üçün heç də vəzifələrin formal şəkildə yerinə yetirilməsi demək deyildir, bu mənim şəxsi istəyimdir.***

***Heydər Əliyev***
***Ümummilli lider***




В А Г И Ф































***Azərbaycan xalqının qədim tarixini, mədəniyyətini, ədəbiyyatını, şeirini Şərq aləmində, bütün dünyada Nizami Gəncəvi ilə tanıyırlar. Azərbaycan xalqına təkcə Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə - Gəncə torpağı, Gəncə xalqı, gəncəlilər əbədi minnətdarlığa layiqdirlər***

***Heydər Əliyev***
***Ümummilli lider***

## *Heydər Əliyevin Nizami Gəncəvi təəssübkeşliyi*

Azərbaycanın intibah ədəbiyyatının zirvəsi hesab edilən klassik şair Nizami Gəncəvinin 880 illik yubiley ilini uğurla başa vurduq. İl ərzində şairin yaradıcılığının çalarları və yaşadığı dovrün ictimai-siyasi vəziyyəti haqqında bir çox məqalələrlə tanış olduq. Bu məqalədə Nizami Gəncəvinin yaradıcılığına Ümummilli liderimiz Heydər Əliyevin verdiyi dəyəri təhlil etməyə çalışacağıq. Azərbaycan xalqının mədəniyyətinin hamisi Heydər Əliyevin təəssübkeş fəaliyyətini məhz bu aspektdən çatdırmaq yerinə düşər.

XX əsrin 60-cı illərinin sonunda Heydər Əliyevin siyasi xadim kimi fəaliyyətə başlaması Azərbaycanın tarixində növbəti mədəni intibahın başlanğıcını qoydu. İqtisadi-siyasi həyatında baş verən dirçəliş respublikanın mədəni həyatına da öz təsirini göstərdi. Çoxşaxəli Azərbaycan mədəniyyəti XX əsrdə ən yüksək mərhələsinə məhz Ümummilli liderimiz Heydər Əliyevin dövründə çatmışdır. Heydər Əliyevin fəaliyyətində mədəniyyətə qayğı, mədəni irsimizi qoruyub gələcək nəsillərə ötürmək, tarixi və mədəni irsimizi öz yaradıcılığında ifadə edən şəxsiyyətləri yüksək şəkildə dəyərləndirmək mühüm yer tuturdu.

2020-ci il Azərbaycanın tarixində Zəfər ili oldu. 30 ilə yaxın işğal altında qalan tarixi-hüquqi Azərbaycan torpaqları azad edildi. Ölkə başçısı, cənab İlham Əliyev 2020-ci ili “Könüllülər ili” elan etdi və bu, özünü sözün bütün mənalarında doğrultdu. Qürurverici məqamlardan biri odur ki,

dünyanın dörd bir tərəfinə səpələnmiş əlli milyonluq Azərbaycan türkləri, Türkiyə Cümhuriyyəti xalqı və ümumilikdə türk dünyası xalqları Azərbaycan Respublikasının haqlı mübarizəsinə həmrəylik nümayiş etdirdi.

Ənənəvi olaraq, növbəti ilin ölkə başçıcı tərəfindən hansı mövzuya həsr ediləcəyi maraq doğurduğu halda, 2021-ci il "Nizami Gəncəvi ili" elan edildi. Yanvarın 5-də Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Sərəncam imzaladı. Sərəncamda deyilir ki, dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır. Prezident İlham Əliyevin bu sərəncamı Ümumilli liderimiz Heydər Əliyevin mədəniyyət siyasətinin davamı kimi qiymətləndirilir. Heydər Əliyevin siyasi varisi kimi ölkə başçısı İlham Əliyev bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərin qorunması, Azərbaycan mədəniyyətinə hamilik edilməsi, klassik və müasir mədəni irsin harmoniyasına münbit şərait yaradılması baxımından davamlı siyasət yeridir.

1970-ci illərdə ümumən respublikamızda klassik mədəni irsimizin öyrənilməsi baxımından tamamilə yeni mərhələ başlayır. Məhz onun təşəbbüsü ilə qəbul edilən "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 1979-cu il 6 yanvar tarixli qərar bu istiqamətdə kompleks vəzifələr irəli sürərək, Nizami irsinin və ümumən orta əsrlər Azərbaycan mədəniyyətinin sistemli araşdırılması üçün geniş perspektivlər açmışdır. 1981-ci ilin avqust ayında Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərar isə nizamişünaslıqda əsaslı dönüş yaratmışdır.

Xüsusilə qeyd etmək lazımdır ki, sovet hakimiyyəti illərində milli mədəniyyətə aid təntənəli tədbirlər mərkəz Moskvada razılaşdırılmalı idi. Bu isə çox zaman əngəllərlə, müxtəlif bəhanələrlə təxirə salınırdı. Məhz N. Gəncəvinin 840 illik yubileyinin keçirilməsi də bəzi bəhanələrə məruz qalsa da, Azərbaycan SSR Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev maneələri özünəməxsus siyasi incəliklə dəf etmiş və yubileyin təntənəli şəkildə qeyd edilməsinə nail olmuşdur. 2000-ci ilin may ayında Nizami Gəncəvinin məqbərəsini ziyarət edərkən Heydər Əliyev bu prosesi belə xatırlayır: "Mən bu gün böyük hisslərlə Nizaminin məqbərəsini bir daha ziyarət etdim. Onu da sizə deyə bilərəm ki, Nizaminin 800 illiyi 1948-ci ildə keçirilmişdi. Amma 840 illik yubileyini mən böyük təntənə ilə keçir-

dim, yəni bu tədbiri həyata keçirməyə nail oldum. O vaxt buna da imkan vermirdilər. Mən Moskvada Kommunist Partiyası Mərkəzi Komitəsinin qarşısında bu məsələni qaldıranda, çünki onlarsız bu işi görə bilməzdik, dedilər ki, “840 il yuvarlaq rəqəm deyildir. 800 illiyi qeyd eləmisiniz, 850 illik də ola bilər. Amma 840 olmaz, Çünki sonra deyəcəksiniz ki, 845, nə bilim, 847 və s... Xatirimdədir, Mərkəzi Komitənin ikinci katibi var idi - Suslov, Brejnevin dövründə ikinci katib idi, mənə dedi ki, bu, mümkün deyildir. Mən isə dedim ki, siz Nizami Gəncəvini tanıyırsınızmı? Dedi ki, tanıyıram, yaxşı tanıyıram. Suslov keçmiş işçi idi, Stalinin yanında da işləmişdi, 1948-ci ildə onun yubileyinin keçirilməsindən də xəbərim var. Dedim, yəqin ki, tamam xəbəriniz yoxdur. Nizami Gəncəvi elə dahidir ki, onun nəinki 840 illiyini, onun yubileyini hər il keçirmək lazımdır. Beləliklə, biz buna nail olduq, o vaxt Nizami Gəncəvinin 840 illik yubileyini keçirdik”.

Ümummilli liderimiz göstərilənlərlə kifaytələnməyib Nizami irsinin daha yaxsı öyrənilməsi üçün AMEA-da xüsusi Nizamişünaslıq şöbəsi yaratmış, respublikanın görkəmli nizamişünas alimlərini oraya cəlb etməyə nail olmuşdur. Heydər Əliyev Nizaminin vətəni Gəncə şəhərində olarkən AMEA-nın Gəncə Elmi Mərkəzində də Nizamişünaslıq şöbəsinin açılması təşəbbüsündə bulunmuşdur.

Bəşər bədii fikrinin nadir hadisəsi olan Nizami yaradıcılığı səkkiz əsrdən artıqdır ki, xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmişdir. Böyük sənətkarın bütün həyatı və zəngin ədəbi fəaliyyəti həmin dövrdə təkcə Azərbaycanın və Qafqazın ən iri şəhəri deyil, eyni zamanda Yaxın və Orta Şərqin mühüm mədəniyyət mərkəzi kimi tanınmış Gəncə ilə bağlıdır. Şair ömrü boyu burada yaşayıb yaratmış və dünya poeziyasına bir-birindən dəyərli söz sənəti inciləri bəxş etmişdir. Mütəfəkkir şairin məşhur "Xəmsə"si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur.

Məlum məsələdir ki, Nizami Gəncəvinin fars şairi olması iddiaları uzun illərdir ki, ədəbiyyatımızın mübarizə mövzusudur. Əlbətdə, Nizami türk, fars və ərəb dillərini mükəmməl bildiyi üçün böyük poliqlot kimi bu xalqların ədəbiyyatı, tarixi ilə yaxından tanış idi. İlk olaraq biz, Nizamini araşdırmaqla onun türk olduğunu bir daha sübut etmiş oluruq ki, bu da Nizamini özünküləşdirməyə çalışanlara ən tutarlı cavabdır. Digər tərəfdən tədqiqatın predmeti Nizaminin əsərlərində farsca yazmasına baxmayaraq türkcə sözlər, idiomlar, atalar sözləri və Azərbaycan zərbi-məsələlərini sıx-sıx işlətməsidir. Fars dilli şairlərin ən məşhurlarından sayılan Firdovsi, Xəyyam, Hafiz, Sədidən fərqli olaraq Nizamidə türklük və ona bağlılıq vardır.

Nizamiyə qədərki şairlər ancaq Şərqdən yazmış və ondan kənara çıxmamışlar. İlk dəfə məhz Nizami bu tilsimi sındıraraq Qərbə çıxmışdır. Bunun nəticəsi olaraq o, Makedoniyalı İskəndərdən söhbət açmışdır. Elmi araşdırmalar onu göstərir ki, klassik yunan fəlsəfə və tarixini bilmədən bu haqda danışmaq mümkün deyildi. Nizami demək olar ki, Çin, Rusiya, Gürcüstan, Ərəb ölkələri, İran, Azərbaycan və Rumdan bəhs edib bu ölkələrin adət-ənənələri və məşğuliyyətlərindən danışırsa, bir daha biz bu mütəfəkkir insanın nə qədər yüksək bilik potensialı və fövqəladə zəka sahibi olduğunu görürük. Elə bunun nəticəsidir ki, Nizaminin "Xəmsə"sindəki hər bir poemasından bütün dünya şairlərinin ən yüksək məqamında dayananların on nəfəri çıxar. Elə bu səbəbdən də Azərbaycanın klassik ədəbiyyatının zirvəsi sayılan Nizami yaradıcılığının öyrənilməsi, təbliği Heydər Əliyev üçün dövlətin mədəniyyət siyasətinin bir hissəsinə çevrilmişdir.

1993-cü ildə ikinci dəfə respublika rəhbərliyinə gələn Heydər Əliyev ölkənin gərgin siyasi vəziyyətinə rağmən mədəni, mənəvi irsin qorunması, tədqiqi və təbliği üçün təxirəsalınmaz işlər gördü. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir

şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

2002-ci ildə Sankt-Peterburqda Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimində Heydər Əliyev dahi şairin yaradıcılığını belə qiymətləndirmişdir: "Məhəbbətin yenilməz qüdrəti, həyatın və ölümün mənası, ideal cəmiyyət, dünyanın və kainatın möhtəşəm sirləri haqqında yaratdığı poemalar əsrlər boyu Şərqdə əsl sənət nümunəsi olaraq qalmışdır. Onun poemalarının xüsusiyyətləri və yaratdığı poetik obrazların dərinliyi Qərbin dahi Höte kimi mütəfəkkirlərini heyran qoymuşdur. Zənnimcə, məhz Nizaminin bütün əsərlərində bəşər övladının misilsiz qüdrətinin tərənnüm edilməsi sayəsində Azərbaycan xalqının dahi oğluna bu gün Sankt-Peterburqun təkrarolunmaz görkəminin ayrılmaz hissəsinə çevrilmək şərəfı qismət olmuşdur".

Yubiley tədbirlərində, müxtəlif məzmunlu, məqsədli görüşlərdə, ədəbi–ictimai yığıncaqlarda çıxışları, verilən suallara təmkinli cavabları Heydər Əliyevin həyata baxışının fəlsəfiliyi heyranlıq doğurur, Azərbaycan və dünya ədəbiyyatına, eləcə də mədəniyyətinə dair fikirləri insanı düşündürürdü. O, ən qüdrətli söz ustaları haqqında fikir söy-

ləyəndə belə istər-istəməz özünün də nəhəngliyini nümayiş etdirirdi. Elə buna görə də demək olar ki, Heydər Əliyevin tariiximiz, ədəbiyyatımız və mənəviyyatımız haqqında fikirlərini nəzəri cəhətdən öyrənmək və onu hər hansı bədii əsərin təhlilinə tədbiq etmək elmi cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Nadir dahilər hər bir xalqın həyatında hər əsrdə yetişməyə də bilər. Azərbaycan xalqının payına XX əsrdə daha bir dahi insan bəxş edilmişdir. Bu, əlbəttə, hörmətli el ağsaqqalımız 35 il respublikamıza rəhbərlik etmiş, dünya siyasət arenasında özünə layiqincə yer almış, fenamenal bilik potensialına malik olan, ölməz prezidentimiz, xalqımızın elm, mədəniyyət, müsiqi, ədəbiyyat, dil dostu, Azərbaycan xalqının müstəqilliyini özünə qaytaran, onu dünyada tanıdan möhtərəm Ümummilli liderimiz Heydər Əliyevdir. H. Əliyev həmin şəxsdir ki, Azərbaycana rəhbərlik etmək missiyasını öz çiyinləri üzərinə götürməsəydi, ölkəmizdə baş verən hərc-mərcliyə tez bir zamanda son qoymasaydı, bəlkə də, indi Azərbaycan adlı bir məmləkət də yox idi. O, klassiklərin dostu, gənclərin hamısı olmuşdur. Bütün bu xidmətlərinə görə biz Ulu Öndərimizə borcluyuq.

Konkret olaraq Nizami Gəncəvi və Heydər Əliyev arasındakı bağlılığı açmaqla bu iki böyük şəxsiyyətin xidmətləri qarşısında borcumuzdan qismən də olsa çıxmağa çalışaq. Ulu Öndər ömrünün çox hissəsini dövlət işlərinə sərf etmişdir. Ancaq ömrünün sonuna kimi ədəbiyyat, dil,

incəsənətin vurğunu olmuşdur. Azərbaycanın böyük sənətkarlarının iştirakı ilə konsertlərdə, yubileylərdə və beynəlxalq tədbirlərdə böyük qürur hissi ilə çıxış edər, sənət adamlarına maddi və mənəvi dayaq olardı. Hətta, vaxtının məhdud olmasına baxmayaraq səhnə arxasına keçər, onların çıxışlarını, gördükləri işləri dəstəkləyər və problemləri ilə maraqlanar, elə yerindəcə həll etməyə çalışardı. Bununla yanaşı, nə qədər sənət adamına yubileylər keçirib, neçə sənətkara fəxri fərmanlar təltif edib, onları fərdi təqaüdlərlə təmin etmişdir. Bir sözlə I Pyotr Rusiya üçün, Mustafa Kamal Paşa Türkiyə cumhuriyyətinə, Heydər Əliyev Azərbaycana millət atasıdır. Bunları sadalamaqla məqsədimiz cənab Heydər Əliyevin geniş qəlb diapozonuna malik olmasını və Nizami Gəncəviyə bəslədiyi xüsusi rəğbəti açıb göstərməkdən ibarətdir. Yuxarıda qeyd etdiyimiz kimi böyük Azərbaycan şair və mütəfəkkiri Nizami Gəncəvi 800 il öyrənilib araşdırılmış deyildir. Bu fikir cənab Əliyevi narahat etməyə bilməzdi. Nə üçün, İran-fars ədəbiyyatçıları Nizamini araşdırır, doğma vətəni Azərbaycanda isə bu iş tamamilə unudulub, arxa plana çəkilmişdir? Buna görə də, Ümummilli liderimiz Heydər Əliyev hələ 1975-ci ildən etibarən Nizami Gəncəvinin bənzərsiz zəngin irsinin elmi əsaslarla tədqiqi və təbliği ilə bağlı 4 mühüm sərəncam imzalamışdır. Nizami Gəncəvinin 840 illik yubileyi ilə əlaqədar olaraq H. Əliyevin şəxsi, uzaqgörən siyasəti nəticəsində 01.01.1979-cu ildə “Azərbay-

can KPMK-nin xüsusi qərarı ilə böyük şair və mütəffəkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tətbiqi haqqında" fərman verilir. Bu isə Nizami Gəncəvi haqqında işin güclənməsinə təkan vermiş oldu. Cənab H. Əliyev yaxşı dərk edirdi ki, biz klassik irsimizə və böyük dahilərimizə qiymət verməyi bacarmasaq, bu, bizim tərəfimizdən ən böyük biganəlik olar, zaman bizi bağışlamaz, bizim özümüzün aqibəti də belə ola bilər.

Məhz Ulu öndərimizin təşəbbüsü və rəhbərliyi ilə dahi Nizaminin yubiley tədbirləri təntənəli surətdə qeyd edilmiş, onun əvəzsiz yaradıcılığının dünya miqyasında təşviq edilməsi ilə bağlı geniş miqyaslı tədbirlər həyata keçirilmişdir.

H. Əliyev bu işlərə daima özü bir qayda olaraq nəzarət və rəhbərlik etmişdir. Bütün bunlar azmış kimi ədəbi prezidentimiz iki il sonra 1981 –ci ildə Nizami Gəncəvinin doğum gününü nəzərə alaraq, onun 840 illiyi haqqında yeni bir sərəncam imzalayır. Sərəncamda deyilirdi: "Respublika Mədəniyyət Nazirliyinə, Yazıçılar, Arxitektorlar İttifaqına, Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinə tapşırılsın ki, Nizami Gəncəvinin məqbərəsini yenidən qurmaq və onun ətrafındakı ərazini abadlaşdırmaq haqqında təkliflər versinlər. Gəncə şəhərində Nizami Poeziya evi yaradılsın və o, şairin yaradıcılıq irsini təbliğ edən və yayan mərkəzə çevrilsin". Məhz bunun nəticəsidir ki, Azər-

baycanda Nizamini təbliğ edənlərin hamısına imkan yaranır. Dövlət fərman və sərəncamları, müəlliflərə çap imkanı və maddi marağın artması bu sahəyə öz bəhrəsini verir. Onlarla Nizamişünas alim, şair, yazıçı riqqətə gəlib, şair haqqında illərcə yatıb qalan mətləbləri həyata keçirməyə başladılar. Bundan sonra xeyli iş görüldü. Dövlət əhəmiyyətli bu iki qərar, fərman və sərəncamla kifayətlənmək olardı. Ancaq, uzaqgörən H. Əliyevin şəxsi təşəbbüsü diqqəti cəlb edir. Belə ki, Bakıda metronun "Nizami" stansiyası tikilərkən H. Əliyev özü şəxsən bir neçə dəfə oraya gəlmiş, işin gedişi ilə maraqlanmış, metro dayanacaqlarındakı rəsimlərin Nizaminin əsərlərindən alınan qəhrəmanların olması ilə bağlı tapşırıqlarını vermişdir. Sevindirici haldır ki, şairin doğma yurdu Gəncədə Nizami məqbərəsinin yenidən qurulub, onun adına layiq olması ilə əlaqədar göstəriş verilmişdir.

Bəşər bədii fikrin nadir hadisəsi olan Nizami yaradıcılığı səkkiz əsrdən artıqdır ki, xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmişdir. Böyük sənətkarın bütün həyatı və zəngin ədəbi fəaliyyəti həmin dövrdə təkcə Azərbaycanın və Qafqazın ən iri şəhəri deyil, eyni zamanda, Yaxın və Orta Şərqin mühüm mədəniyyət mərkəzi kimi tanınmış Gəncə ilə bağlıdır. Şair ömrü boyu burada yaşayıb – yaratmış və dünya poeziyasına bir-birindən dəyərli söz sənəti inciləri bəxş etmişdir.

Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə şərq bədii təfəkkürünü elmi-fəlsəfi, psixoloji fikirlərlə zənginləşdirmiş və şeriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur "Xəmsə"si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur. Qüdrətli söz ustasının bəşəriyyətin bədii fikir salnaməsində yeni parlaq səhifə açmış digər ölməz əsərləri bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir. Korifey sənətkar öz ənənələri ilə seçilən ədəbi məktəbini yaratmışdır. Nizami Gəcəvinin dünyanın ən zəngin kitabxanalarını bəzəyən əsərləri Şərqdə incəsənətin, xüsusən də miniatür sənətinin inkişafına təkan vermişdir.

Nizami irsi uzun zamandan bəri dünya elmi-ədəbi fikrin diqqət mərkəzindədir. Ölkəmizdə dahi şairin ədəbi irsinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, çox sayda tədqiqatlar aparılmış, eləcə də dünya nizamişünaslığında ilk dəfə olaraq əsərlərinin elmi tədqiqi mətni hazırlanmışdır. Bu proseslərin intensiv şəkil almağa başlaması əsasən Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi ərəfəsinə təsadüf edir. Dahi şairin yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı ilk qərar 1939-cu ildə qəbul edilmişdir. Lakin, İkinci Dünya müharibəsinin başlaması nəticəsində yubileyin yalnız 1947-ci ildə keçirilməsi mümkün olmuşdur. O illərdən etibarən Nizami-

nin dövrü, həyatı və yaradıcılığı ilə bağlı yeni-yeni araşdırmalar aparılmışdır. Belə ki, Gəncədə dəfn olunduğu yerdə dahi Nizaminin möhtəşəm məqbərəsi ucaldılmış, xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmişdir.

Nizami Gəncəvi ilə bağlı son yubiley tədbirləri dahi sənətkarın 850 illiyi ilə əlaqədar 1991-ci ildə keçirilməli idi. Lakin ölkədəki dərin siyasi, iqtisadi və sosial böhran buna imkan verməmişdir. Sonrakı onilliklərdə baş verən hadisələr XX əsrin ən müthiş faciələri 20 yanvar, Xocalı soyqrımı, 20 noyabr faciəsi, erməni faşistləri tərəfindən Dağlıq Qarabağın və digər rayonların işğal olunması, Azərbaycanın 90-cı illərdə səngimək bilməyən hakimiyyət qovşağı hamının əl-ayağını işdən soyutdu, Nizami Gəncəvi sanki unudulmağa başladı.

Nizami irsinin daim aktual olduğu nəzərə alınaraq, hazırki mərhələdə respublikamızda gənc nəslə mənsub nizamişünas kadrların yetişdirilməsi şairin əsərlərinin filoloji təcrüməsini təkmilləşdirərək yenidən nəşrə hazırlanması və müxtəlif dillərə tərcümə edilməsi, habelə dünyanın mötəbər kitabxana və arxivlərində Şeyx Nizaminin zəngin irsini əks etdirən və dünyanın Metropoliteni “ABŞ”, Almaniya, Böyük Britaniya, Avstriya milli kitabxanaları, İsgəndəriyyə, Kəlküttə kitabxanaları, Saltikov Şedrin adına milli kitabxana kimi mühüm elm mərkəzlərindən ölkəmizə gətirilmiş Nizami Gəncəvi əsərlərinin əlyazmalarının toplanılması, şai-

rin yeni əlyazmalarının üzə çıxarılması Azərbaycan mədəniyyətinin öyrənilməsi işi bu gün də xüsusi ilə böyük əhəmiyyət daşıyır. Nizami dövrü, ədəbi irsi və məktəbi prolemləri müasir humanitar düşüncənin tələbləri kontekstində və azərbaycançılıq məfkurəsi işığında tədqiq olunur.

“Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsinə yeni parlaq səhifə açmış və onun ölməz əsərləri bu gün də insanların mənəvi əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir”- deyən dahi öndərimizin layiqli varisi Azərbaycan Respublikasının prezidenti, cənab İlham Əliyevin rəhbərliyi ilə son illərdə görkəmli klassiklərimizin dünyanın müxtəlif ölkələrində saxlanılan əsərlərinin və əlyazmalarının Azərbaycana gətirilməsi, küllüyatlarının toplanılması, latın qrafikası ilə geniş şəkildə nəşr edilməsi və dünyada təbliği ilə əlaqədar böyük işlər görülmüşdür. Azərbaycan Respublikasının prezidenti, möhtərəm cənab İlham Əliyevin “Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında” imzaladığı 23 dekabr 2011-ci il tarixli sərəncamı da məhz bu qəbildən olan tədbirlərdəndir.

Məhz Nizami Gəncəvi şəhərciyinin yaradılması da dahi şairin irsinin yaşadılması və təbliğ edilməsinə şərait yaradır. Burada ilk dəfə olaraq dahi mütəfəkkirin uyuduğu əbədi məzarı-məqbərəsi ətrafında geniş miqyaslı abadlıq-quruculuq işləri görülmüşdür. Nizami Gəncəvinin əsərlərinə

həsr olunmuş abidələr kompleksi inşa edilmiş, eyni zamanda Şeyx Nizaminin məqbərəsi ətrafında möhtəşəm amfiteatr, işıqlandırma qurğuları, buta kompleksi, fəvvarələr quraşdırılmışdır.

Nizami Gəncəvinin məqbərəsi önündə dahi şairin muzeyinin inşası, eyni zamanda ümumi həcmi 1 milyon səhifədən artıq olan qədim əlyazmalarının Nizami Gəncəvi muzeyində mühafizə edilməsi ilə yanaşı, dahi mütəfəkkirin yaşadığı dövrə aid zəngin tarixi-etnoqrafik nümunələrin toplanılaraq burada nümayiş etdirilməsi, həm də şəhərimizə gələn əcnəbi qonaqların milli-mənəvi və mədəni dəyərlərimizlə tanış olmalarına şərait yaradılmışdır.

Azərbaycan Respublikasının prezidenti, möhtərəm cənab İlham Əliyevin sərəncamına əsasən Şeyx Nizaminin valideynləri və onun səcərəsinin nümayəndələrinin dəfn olunduqları əraziyə Şeyxzamanlılar qəsəbəsi statusu verilmişdir. Nizami şəhərciyində dahi mütəfəkkirin əsərlərini və eləcə də Azərbaycanın digər bir çox klassik yazarlarının ümumi həcmi 2 milyon səhifədən artıq olan dəyərli əlyazmalarının mühafizə edilməsi və bütün dünya miqyasında təbliğ olunmasına xidmət edəcək böyük kitabxananın inşa edilməsi xüsusi qeyd olunmalıdır.



***Kinomuzun tarixi və bu sahədə əldə olunan nailiyyətlər bizim milli sərvətimizdir.***

***Heydər Əliyev***
***Ulu öndər***

## *Milli kinomuzun inkişafında Heydər Əliyevin xidmətləri*

Görkəmli siyasi xadimin Azərbayacana rəhbərlik etdiyi dövrdə ölkənin iqtisadi-sosial sahəsində böyük nailiyyətlər əldə edilib. Geniş dünyagörüşlü, məlumatlı, hər sahədə təcrübəli olan ulu öndər milli dəyərlərimizin bütün dünyada tanınması üçün əlindən gələni əsirgəməmiş, mədəniyyət və incəsənət xadimlərimizin təbliğ olunmasına geniş şərait yaratmışdır. İncəsənətin bütün sahələrində olduğu kimi, milli kinomuzun inkişafında da onun xidmətləri danılmazdır. Bir məqamı da xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan kinosu bu qayğını və dəstəyi ulu öndərdən hələ Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik etdiyi dövrdə görüb.

1970-ci illər Azərbaycan kinosunun ən parlaq dövrlərinə təsadüf edir. Məhz həmin illərdə “Azərbaycanfilm” kinostudiyası dəyərli, mövzu baxımından maraqlı sənət nümunələri yaratmış və tamaşaçıların ixtiyarına vermişdir.

### *“Bir cənub şəhərində” 1969-cu il*

Rüstəm İbrahimbəyovun ssenarisi əsasında Eldar Quliyevin çəkdiyi “Bir cənub şəhərində” filmi Bakı həyatından, köhnə məhəllələrin birində yaşayan insanların gündəlik yaşam görüntülərindən bəhs edirdi. Sovet rejiminin ən sərt vaxtlarında ekrana köhnə fikirli obraz gətirmək, feodal düşüncəsi fikri ilə yaşayan qəhrəmanı təbliğ

etmək heç də asan məsələ deyildi. Yaradıcı heyətin böyük zəhmətlə ərsəyə gətirdiyi film daxili baxışdan sonra "Qoskino"da (Dövlət Kinematoqrafiya Komitəsi – ***A.B.***) ciddi tənqid edilir və filmin kütləvi nümayişinə qadağa qoyulur. Həmin ildə Heydər Əliyev Azərbaycan SSR Mərkəzi Komitəsinə birinci katib təyin olunur. Film haqqında eşidən ulu öndərin bəlkə də bu vəzifədə ilk işlərindən biri "Bir cənub şəhərində" filmini tamaşaçıya qaytarmaqla başlayır.

### *Milli kinomuzun tarixi, tarixi filmlərin çəkilişi…*

Qeyd etdiyimiz kimi, ölkəyə rəhbərliyi dövründə hər sahəyə xüsusi diqqət ayıran ulu öndər, incəsənəti, xüsusilə kinonu daha çox qayğı ilə əhatələndirmişdi.

H. Əliyev kinoşünaslara kino tarixinin araşdırılması ilə ciddi məşğul olmağı tapşırmışdı. Kinoşünasların arxiv sənədlərini araşdırarkən Azərbaycan kinosunun tarixinin heç də 1916-cı ilə deyil, əslində, dünya kinosunun yaranma tarixindən cəmi iki il yarım sonraya – 1898-ci ilə aid olduğunu sübut etməsi artıq tarixi bir faktdır. 1998-ci ilin 2 may tarixində, Azərbaycan kinosunun 100 illiyi ilə bağlı baş tutan "Festivallar festivalı"nda ulu öndər deyib ki, bu gün biz bir kəşf etdik, sübut etdik ki, Azərbaycan kinosunun tarixi 1898-ci ildən başlayır, onun 100 ili tamam olur: "Biz 1916-cı ili başlanğıc ili hesab edirdik, lakin Azərbaycan kinosunun yaşını əgər belə demək olarsa 10

il, yaxud, neçə il artırmaq ümumən heç də sadə məsələ deyildi. Bu o deməkdir ki, Azərbaycan sivilizasiyalı ölkədir, dünyada kino meydana çıxan kimi o, Azərbaycana gəlib…"

H. Əliyev ölkəyə rəhbərliyi dövründə bir çox tarixi filmlrin yaranmasına şərait yaratmaqla yanaşı, eyni zamanda həmin çəkiliş proseslərini nəzarətdə saxlayırdı. Həmin filmlərdən "Ulduzlar sönmür" (1971), "Nəsimi" (1974), "Dədə Qorqud" (1975), "Nizami" (1982) və b. filmləri missal göstərmək olar.

## *"Nəsimi" filmi – 1973-cü il*

İsa Hüseynovun ssenarisi əsasında Həsən Seyidbəylinin quruluş verdiyi "Nəsimi" filmi Azərbaycan xalqının görkəmli şair və filosofu İmadəddin Nəsiminin anadan olmasının 600 illiyinə həsr olunur. Hətta ilk dəfə "Nəsimi" filmi valyuta ilə alınan kino plyonkasına çəkilib ki, keyfiyyətli olsun. Bundan başqa, kinoya ayrılan vəsaitdən əlavə dövlət büdcəsindən də pul ayrılıb. Ulu öndərin istəyilə filmin rejissor işi Həsən Seyidbəyliyə həvalə olunub.

H. Əliyev bu barədə deyib: "Azərbaycanda respublikanın rəhbəri işləyərkən kino sənətinin inkişafına böyük diqqət yetirirdim. O vaxt böyük şairimiz Nəsiminin 600 illiyini qeyd edirdik və onun haqqında film yaratmağı qərara almışdıq. Rejissor Həsən Seyidbəyli bu filmin yaranmasını öz üzərinə götürdü. Xatirimdədir, ssenari çox mürəkkəb, çox çətin idi. Çünki tarixi təhlil etmək, aydınlaş-

dırmaq lazım idi ki, nəyi göstərməli, nəyi göstərməməli… Mən hesab edirəm ki, tarixi baxımdan bu film Azərbaycan kino sənətinin əslində ilk fundamental filmi idi. Xatirimdədir, onda mən Həsən Seyidbəyli ilə görüşdüm, söhbət etdim və soruşdum ki, bəs Nəsimi rolunu kim ifa edəcək? O, dedi ki, bilirsinizmi, mən bir yaxşı, perspektivli cavan tapmışam. Mən onu sınaqdan çıxarmışam, baxmışam… Rasim Balayev, Nəsimi rolunu həqiqətən gözəl ifa etdi”.

## *“Babək” filmi - 1979-cu il*

Ənvər Məmmədxanlının ssenarisi, Eldar Quliyevin quruluşunda çəkilən “Babək” filmi 1979-cu ildə istehsalata buraxılıb. Onu da xüsusilə qeyd etmək lazımdır ki , Heydər Əliyevin ölkəyə rəhbərik etdiyi dövrdə yaranan tarixi filmlərin büdcəsi sovet dövründə çəkilən filmlərin büdcəsindən qat-qat artıq olub. Xalq qəhrəmanı Babəkə həsr edilən “Babək” filminin çəkilişləri üçün ümumittifaq büdcəsindən ayrılmış vəsaitdən əlavə indiki məzənnə ilə hesablansa 4-5 milyon dollar pul ayrılıb. Moskvanın maneələrinə baxmayaraq filmin çəkilişi üçün geniş şərait yaradılıb. Yeri gəlmişkən, “Babək” filmi sovet kino tarixinin də ən bahalı filmləri sırasına daxil edilib. Təkcə Azərbaycanda deyil, Rusiyada, Gürcüstanda, Özbəkistanda 16 fabrik film üçün 1500 dəstdən artıq paltar hazırlayıb. Beş mindən artıq adam çəkilişlərdə iştirak edib. Moskvadan “Mos-

film”in “Kavaler polku”ndan 170 atlı gətirilib. 60-a yaxın ölkə tərəfindən alınan film təkcə bir il ərzində 35 milyon tamaşaçı tərəfindən izlənilib.

Filmin çəkilişləri, Naxçıvanda, Ramana qalasında, “Azərbaycanfilm” kinostudiyasının pavilyonunda, Suraxanıdakı “Atəşgah” məbədində aparılıb. Tamaşaçılar tərəfindən həmişə maraqla izlənilən Bəzz qalası və həmin ərazidə gedən qanlı döyüşlərin səhnələri Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Camaldın və Ərəzin kəndlərinə yaxın ərazilərdə, Dərəlik və Darıdağda lentə alınıb.

Maraqlı faktlardan biri də odur ki, “Babək” filminin Naxçıvandakı çəkilişləri üzüm yığımı vaxtına təsadüf etdiyindən kütləvi səhnələrə yerli əhali də cəlb olunub. Üzüm yığımı ilə əlaqədar camaatı tam səfərbər edə bilmək mümkün olmurdu. Belə bir məqamda Azərbaycan KP Mərkəzi Komitənin birinci katibi Heydər Əliyev işə qarışır. O, Naxçıvan rəhbərliyinə tapşırıq verir ki, “Babək” filmi üçün lazım olan bütün şərait yaradılsın, hətta “eybi yox, Naxçıvan bu il üzümü az yığsa da olar” deməyi də unutmur.

## *“İstintaq” filmi – 1979-cu il*

Rüstəm İbrahimbəyovun ssenarisi əsasında Rasim Ocaqovun çəkdiyi “İstintaq” filmində hadisələr 60-cı illəri əhatə edir. Filmin əsas mövzusunu Azərbaycanda o dövrdə fəaliyyət göstərən mafiya təşkil edir. Rüşvət, hədiyyə ilə

polis orqanlarını ələ alma, təmiz insanları şərləmə və daha nələr filmdə açıq-aydın təsvir olunur. Belə bir filmin çəkilməsi öz dövrü üçün cəsarətli addım idi. Məhz buna görə sovet senzurası və Azərbaycanda kino sahəsinə rəhbərlik edənlər filmin ekranlara çıxmasına mane olurlar. “Sovet quruluşu hara, rüşvətxorluq, korrupsiya, mafiya hara” kimi fikirlər irəli sürərək filmdə əsaslı dəyişikliklər tələb edirlər. Ölkə rəhbəri H. Əliyev bu barədə eşidir və məsələyə qarışır. Çünki filmdə qabardılan məsələlər, onun hakimiyyətə gələrkən dərhal mübarizəyə başladığı cinayətlərdən idi. Bu baxımdan da belə filmlərin daha çox çəkilməli olduğunu deyir: “Kollektiv baxışdan sonra həmkarlarımın hamısı bu fikirdə oldu ki, guya film respublikamızı nüfuzdan salır, rüsvay edir. Halbuki bu film respublikamızda mənim gördüyüm işin – korrupsiyaya qarşı apardığım mübarizənin bədii təcəssümü idi. Sağ olsunlar ki, Rüstəm İbrahimbəyovla Rasim Ocaqov bu mövzuya girişmişdilər. Yeri gəlmişkən, mən o vaxt onlara dedim ki, bu mövzudan əl çəkməyin. Belə də etdilər. Film istehsalata buraxıldıqdan sonra əngəllər, qadağalar başladı. Belə olan halda mən də tədbirlər gördüm və “İstintaq” filmi böyük şöhrət qazandı…”

Kinorejissor Rasim Ocaqov qeyd edirdi ki, filmdə toy kadrının dəbdəbəli çəkilməsini Hedər Əliyev də məsləhət görmüşdü: “Mən də həmin hadisənin içində yaşadığım üçün bütün halların şahidi olmuşam. Yaxşı yadımdadır, Heydər

Əliyevin qadağasına görə heç kim dəbdəbəli toy keçirmirdi, qohum-qardaşdan artıq adamı məclisinə dəvət edə bilmirdi. Bu baxımdan, biz də filmdə toy səhnəsini iki obrazın sözü ilə tənqid etdik".

Qeyd etmək lazımdır ki, filmin bir neçə kadrı yenidən çəkildikdən sonra Moskva Bədii Şurasının ixtiyarına verilib, yenə də maneələr başlayıb. Heydər Əliyev "Biz filmi bəyənmişik" deməyilə məsələ həll olunub.

## *Neft mövzusunun kinoya gətirilməsi*

Azərbaycan nefti, neftçilər haqqında yüzlərlə bədii, sənədli, elmi-kütləvi və cizgi filmləri çəkilib. Neftçilərin Böyük Vətən müharibəsi illərində faşizm üzərində Qələbənin qazanılmasında çəkdikləri böyük zəhmət, ön cəbhənin yanacaqla gecə-gündüz təmin olunmasında əsl qəhrəmanlıq göstərmələri "Bakının işıqları", "Bizim Cəbiş müəllim", "Bakıda küləklər əsir" bədii filmlərində öz əksini tapıb.

Ulu öndər bu barədə deyirdi ki, tariximizin bir çox mərhələlərini kinoda əks etdirmək, bu günümüz və gələcəyimiz üçün çox gərəkli bir işdir: "Dəfələrələ söhbət aparmışdım ki, İkinci Dünya Müharibəsi dövründə Azərbaycan neftçilərini kinoda göstərək. Təəssüflər olsun ki, bunu edə bilmədik. Amma güman edirəm ki, vaxt gələcək bunu edəcəyik. Faşizm üzərində qələbənin 50 illiyini bütün dünya qeyd etdi. Bütün yubiley mərasimlərində - Londonda, Moskvada, Parisdə iştirak etmək mənə nəsib oldu. Qələbənin

50 illiyini qeyd etməyə dünyanın, demək olar ki, bütün ölkələrinin başçıları toplaşmışdı. Mərasimdə olarkən, ordakı nitqləri, çıxışları dinləyərkən daim düşünürdüm və bunu təkcə biz yox, çoxları dəfələrlə qeyd edirlər ki, Azərbaycanın nefti olmasaydı, bəlkə də faşizm üzərində qələbə də mümkün olmazdı. Bu qələbədə Azərbaycanın böyük xidmətləri olub. Bu bizim tarixi nailiyyətimizdir. Ona görə də mən çalışırdım ki, bunu kinoda əks etdirək".

## *1998-ci il 3 iyul*

Heydər Əliyev milli kinonu inkişaf etdirmək, onun təbliğinə geniş meydan açmaq məqsədilə 1998-ci ilin 3 iyul tarixində "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanununu imzaladı və bununla da milli kinomuz qarşısında konkret vəzifələr, kinematoqrafiyamız qarşısında çoxillik proqram qoydu. Son dövrlərdə dövlət sifarişi ilə çəkilən uğurlu filmlər də elə bu proqramın tərkib hissəsidir. Bir sözlə, ulu öndərin kinoda qoyduğu bünövrə sabaha olan inamdan xəbər verir. Bu da o deməkdir ki, Azərbaycan kinosu artıq inkişaf mərhələsinə qədəm qoyub. Bu gün dünya şöhrətli siyasi xadim Heydər Əliyevin 100 illiyi ərəfəsində onun sadəcə kino sahəsində gördüyü işlərin bir qismindən bəhs etdik və bununla da xalqın ürəyində əbədi ölməzliyə qovuşan ulu öndəri böyük sevgiylə yad etdik…

**Kinematoqrafiya haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ**
**QANUNU**

***Bu Qanun kinematoqrafiyaya dövlət himayəsinin formalarını, kinematoqrafiya fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini müəyyənləşdirir, incəsənətin spesifik növü olan kinematoqrafiyanın qorunması və inkişafı sahəsində dövlət siyasətinin həyata keçirilməsinə hüquqi təminat yaradır.***

***I fəsil***
***ÜMUMİ MÜDDƏALAR***

***Maddə 1. Əsas anlayışlar***

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

Kinematoqrafiya-kinematoqrafiya əsərlərinin yaradılmasına və istifadəsinə yönəldilmiş peşəkar, yaradıcı, istehsal, elmi, texniki və təhsil fəaliyyətinin məcmusundan ibarət mədəniyyət və incəsənət sahəsi;

film-yaradıcı ideya əsasında bədii, xronikal, sənədli, elmi-kütləvi, təhsil, cizgi, televiziya və başqa janrlarda yaradılmış, bir-biri ilə əlaqəli olub hərəkət təsəvvürü doğuran və müvafiq qurğular vasitəsilə görmə və eşitmə qavrayışı üçün nəzərdə tutulan, kinolentə və başqa daşıyıcılara həkk olunan, mövzu bütövlüyü əsasında birləşdirilən təsvirlər silsiləsindən ibarət audiovizual əsər

(tammetrajlı film - 52 dəqiqədən az olmayan, qısametrajlı film - 52 dəqiqədən az olan film);

kinosalnamə — audiovizual vasitələrlə dövrün səciyyəvi xüsusiyyətlərini və xalqın tarixini özündə əks etdirən və müntəzəm çəkilən sənədli süjetlər;

filmin yayımı - filmin müxtəlif forma və vasitələrlə yayılması;

filmin nümayişi - filmin kinozalda, efir, kabel, peyk televiziyası və başqa texniki vasitələrlə kütləvi nümayişi;

filmin quruluşçu rejissoru - filmin yaradılması ilə bağlı yaradıcılıq və istehsalat işini idarə edən və filmin bədii-ideya mənasını müəyyənləşdirən peşəkar yaradıcı şəxs;

filmin prodüseri - filmin maliyyələşdirilməsini, istehsalını və yayımını öhdəsinə götürən hüquqi və ya fiziki şəxs;

filmin çəkiliş qrupu - bilavasitə filmin istehsalı ilə məşğul olan yaradıcı, texniki və inzibati işçilərdən ibarət heyət;

kinozal - filmin nümayiş edildiyi yer;

kinematoqrafiya müəssisəsi - təşkilati - hüquqi formasından asılı olmayaraq, fəaliyyət növlərinə görə film istehsalı, kinosalnamə çəkilişi, filmin çoxaldılması, bərpası, yayımı və nümayişi, kinozala texniki xidmət, kino materiallarının və avadanlığının hazırlanması, film, kinosalnamə istehsalı üzrə işlərin görülməsi və xidmət göstərilməsi (kino avadanlığının kirayəyə verilməsi, pavilyonların, kino komplekslərinin icarəyə verilməsi, kostyum-

ların tikilişi, dekorasiyaların qurulması, qrimin, parik məmulatının, rekvizitin, oyun texnikasının, xüsusi effektlərin hazırlanması, kinolentlərin emalı, filmin səs düzümü və s.), kinematoqrafiya sahəsində tədris, elmi, təbliğai, nəşriyyat, reklam-təbliğat və təchizat, filmin və kinosalnamənin yekun materiallarının mühafizəsi ilə məşğul olan müəssisə;

kinematoqrafiya ictimai birliyi - yaradıcılıq və sosial problemlərin həlli məqsədilə ittifaq, birlik, gildiya, assosiasiya və başqa qurumlarda kinematoqrafçıların birləşdikləri yaradıcı və ya peşəkar ictimai birlik;

filmin ilkin materialları - filmin çoxaldılması üçün lazım olan neqativ, kontratip, filmin nəzarət nüsxəsi, dialoq, monoloq, replika, səs və səs effektlərinin maqnit fonoqramlarının orijinalı;

filmin çoxaldılması - istənilən maddi formada (kinolent, video və digər daşıyıcılar üzərində) filmin bir və ya daha artıq nüsxəsinin hazırlanması;

debüt filmlər - kinematoqrafiya sahəsində peşəkar yaradıcı işçinin ilk yaradıcılıq işi.

***Maddə 2. Kinematoqrafiya haqqında Azərbaycan Respublikasının qanunvericiliyi***

Kinematoqrafiya haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından və tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

***Maddə 3. Kinematoqrafiyaya dövlət himayəsinin əsas formaları***

Kinematoqrafiyaya dövlət himayəsinin əsas formaları aşağıdakılardır:

kinematoqrafiya sahəsində qanunvericiliyin yaradılması, Dövlət Proqramının hazırlanması və həyata keçirilməsi;

kinematoqrafiyanın yaradıcı, təhsil, istehsal, maddi-texniki, elmi və informasiya bazasının təmin olunması, kinematoqrafiya kadrlarının hazırlanması;

kinematoqrafiyanın qorunmasına və inkişafına dövlət təminatı, filmlərin yayımı və nümayişi üçün şərait yaradılması, kinofestivalların və təbliğat xarakterli digər tədbirlərin keçirilməsi;

dövlət sifarişi əsasında çəkilən filmlərin istehsalının, yayımının və onların beynəlxalq kinofestivallarda iştirakının, kinosalnamə çəkilişinin və dövlət film fondunun maliyyələşdirilməsi;

uşaq və gənclər üçün filmlərin və debüt-filmlərin yaradılmasının təmin edilməsi;

kinematoqrafiya sahəsində beynəlxalq əməkdaşlığa təminat verilməsi.

***Maddə 4. Milli film***

Film aşağıdakı hallarda milli film hesab olunur:

filmin prodüseri Azərbaycan Respublikasının vətəndaşı və ya qanunvericilikdə müəyyən olunmuş qaydada Azərbaycan

Respublikasında qeydiyyatdan keçmiş hüquqi şəxs olduqda;

filmin çəkiliş qrupunda Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslər 30 faizdən artıq olmadıqda;

film Azərbaycan dilində çəkildikdə;

qanunvericilikdə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasında qeydiyyatdan keçən və filmin istehsalını, çoxaldılmasını, yayımını, nümayişini həyata keçirən kinematoqrafiya müəssisələri filmin smetasında nəzərdə tutulmuş ümumi iş həcminin 50 faizindən çoxunu yerinə yetirdikdə;

film istehsalında xarici investisiyaların həcmi filmin smeta dəyərinin 30 faizindən artıq olmadıqda.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş şərtlərə uyğun olaraq xarici kinematoqrafiya müəssisələri ilə müştərək çəkilmiş filmlər də milli film hesab oluna bilər.

## *II fəsil*
## *KİNEMATOQRAFİYA FƏALİYYƏTİNİN TƏŞKİLİ*

### *Maddə 5.(Çıxarılıb)*

### *Maddə 6. Kinematoqrafiya sahəsində müəlliflik hüququ*

Kinematoqrafiya sahəsində müəlliflik hüququ və kinematoqrafiya fəaliyyətinə xüsusi icazə verilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

*Maddə 7. Filmlərin dövlət reyestri*

Kino və videofilmlərin qanunsuz nümayişinin, pornoqrafiya və ya zorakılıq təbliğ edən filmlərin yayımının qarşısının alınması, tamaşaçı auditoriyasının yaş kateqoriyalarının müəyyənləşdirilməsi məqsədilə Azərbaycan Respublikası ərazisində kütləvi nümayiş (kinozal, videozal, video yayımı məntəqələri, efir və kabel televiziyası) üçün nəzərdə tutulmuş bütün filmlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən qeydə alınır və filmlərin dövlət reyestrinə daxil edilir.

Kino və videofilmlərin yaşa görə təsnifatlaşdırılması "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq həyata keçirilir.

Filmlərin yayımı və nümayişi bu Qanunun, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun və kinematoqrafiya sahəsində digər normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

*Maddə 8. Kinematoqrafiya fəaliyyətinin formaları*

Kinofilmlərin (audiovizual informasiya daşıyıcılarından asılı olmayaraq) yaradılması, nümayişi, yayımı, istifadəsi, təbliği və mühafizəsi kinematoqrafiya fəaliyyətinin formaları hesab olunur.

***Maddə 9. Dövlət kinematoqrafiya müəssisələrinin özəlləşdirilməsi***

Dövlət kinematoqrafiya müəssisələrinin özəlləşdirilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Dövlət kinematoqrafiya müəssisələri özəlləşdirilərkən onların əsas fəaliyyət növü kimi kinematoqrafiya fəaliyyəti saxlanmalıdır.

***Maddə 10. Dövlət film fondu. Filmlərin ilkin materiallarının mühafizəsi***

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən qeydə alınan, nümayişinə və yayımına icazə verilən, mülkiyyət formasından, buraxılış vaxtından və yerindən, texnikasından və istehsal üsullarından asılı olmayaraq, mədəni, bədii, ictimai-siyasi, elmi, tarixi və praktik əhəmiyyət daşıyan filmlərin ilkin materialları və surətlərinin, o cümlədən müəyyən səbəblərə görə kütləvi nümayiş etdirilməmiş və ya istehsalı dayandırılmış filmlərin ilkin materialları və surətlərinin mühafizəsini dövlət film fondu həyata keçirir.

Dövlət film fondu filmlərin, kinosalnamələrin və onların ilkin materiallarının mühafizəsi zamanı müəlliflik və əlaqəli hüquqlara riayət olunmasını təmin edir.

## *III fəsil*
## *KİNEMATOQRAFİYA SAHƏSİNDƏ YARADICILIQ FƏALİYYƏTİ*

### *Maddə 11. Peşəkar yaradıcı işçilər və kollektivlər*

Əsas məşğulluq növü və gəlir mənbəyi kinematoqrafiya fəaliyyəti olan hər bir şəxs kinematoqrafiya sahəsində peşəkar yaradıcı işçi hesab olunur.

Dövlət kinematoqrafiya sahəsində fəaliyyət göstərən peşəkar yaradıcı işçilərin və kollektivlərin yaradıcılıq azadlığına təminat verir.

Kinematoqrafiya sahəsində birgə səy tələb edən yaradıcılıq işlərini həyata keçirmək üçün peşəkar yaradıcı işçilərin filmin quruluşçu rejissorunun rəhbərliyi ilə fəaliyyət göstərən birliyi peşəkar yaradıcı kollektiv hesab olunur.

Peşəkar yaradıcı işçilər və kollektivlər yaradıcılıq fəaliyyəti sahəsində hüquqların həyata keçirilməsi ilə əlaqədar müstəqil subyektlər kimi çıxış edir, onların hüquqi vəziyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

### *Maddə 12. Peşəkar yaradıcı işçilərin və kollektivlərin hüquq və vəzifələri*

Kinematoqrafiya sahəsində peşəkar yaradıcı işçilərin və kollektivlərin hüquqları aşağıdakılardır:

yaradıcılıq fəaliyyətinin nəticələrini kinematoqrafiya təcrübəsində qəbul olunmuş vasitə və üsullarla reallaşdırmaq

və geniş tamaşaçı kütləsinə çatdırmaq;

yaradıcı ideyanı mühafizə etmək və müvafiq vasitələrlə onu həyata keçirmək;

kinematoqrafiya sahəsində yeni və orijinal istiqamətləri və janrları həyata keçirmək;

milli və dünya kinematoqrafiya sərvətlərindən istifadə etmək;

peşəkar təhsil almaq və ixtisas artırmaq (o cümlədən xarici ölkələrdə);

yaratdıqları əsərlərin taleyini müstəqil həll etmək;

öz təşəbbüsləri ilə kinematoqrafiya müəssisələri, fond və yaradıcılıq ittifaqları, ictimai birliklər təsis etmək (o cümlədən beynəlxalq miqyasda) və həmin qurumlara sərbəst daxil olmaq.

Kinematoqrafiya sahəsində peşəkar yaradıcı işçilərin və kollektivlərin vəzifələri aşağıdakılardır:

kinematoqrafiya sahəsində qanunvericiliyə əməl etmək;

milli kinematoqrafiya və kino incəsənəti irsini, bu sahədə milli ənənələri və xüsusiyyətləri qorumaq və inkişaf etdirmək.

## *IV fəsil*
## *KİNEMATOQRAFİYA FƏALİYYƏTİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ*

***Maddə 13. Maliyyələşdirmə mənbələri***

Kinematoqrafiya müəssisələri mülkiyyət formasından asılı olaraq dövlət büdcəsindən və xüsusi mülkiyyətçinin vəsaitləri, fiziki və hüquqi şəxslərin könüllü ayırmaları, özlərinin fəaliyyətindən əldə edilmiş gəlirlər və Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

***Maddə 14.(Çıxarılıb)***

## *V fəsil*
## *YEKUN MÜDDƏALARI*

***Maddə 15. Beynəlxalq əməkdaşlıq***

Kinematoqrafiya sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçirilir.

***Maddə 16. Kinematoqrafiya haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət***

Kinematoqrafiya haqqında qanunvericiliyin pozulmasına görə hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

***Heydər Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 iyul 1998-ci il, № 515-IQ***



***“Bir cənub şəhərində” (film, 1969)***

***Ssenari müəllifi Rüstəm İbrahimbəyov, rejissor Eldar Quliyev, operator Rasim Ocaqov, rəssam Kamil Nəcəfzadə***





***"Nəsimi" (film, 1973)***

***Ssenari müəllifi İsa Hüseynov, rejissor Həsən Seyidbəyli, operator Rasim İsmayılov, rəssamlar Məmməd Hüseynov və Mayis Ağabəyov***





***"Babək" (film, 1979)***
***Ssenari müəllifi Ənvər Məmmədxanlı, rejissor Eldar Quliyev, operator Rasim İsmayılov, rəssam Mayis Ağabəyov***





***"İstintaq" (film, 1979)***
***Ssenari müəllifi Rüstəm İbrahimbəyov, rejissor Rasim Ocaqov, operator Rafiq Qəmbərov, rəssam Fikrət Bağırov***



## *Azərbaycan kinosu müstəqillik dövründə*

Yarandığı gündən insanların dünyagörüşünü formalaşdıran, hər bir xalqın tarixini, milli adət-ənənəsini yaşadan, həyatın bütün sahələrinə nüfuz edən kino sənəti bəşəriyyətin ən böyük kəşfidir. Kino yeganə sənət növüdür ki, özündə mədəniyyətin bir neçə sahəsini birləşdirir. Kinonun bir üstünlüyü də əyaniliyindədir, inandırma gücünə və təsirə malik olmasındadır.

Azərbaycan kino sənəti, bütövlükdə, tamaşaçıların estetik zövqü və dünyagörüşünün formalaşdırılmasında mühüm rol oynamış, xalqımızın milli ruhunun qorunub saxlanması işinə xidmət etmişdir. Azərbaycan kino sənətinə yüksək qiymət verən ümummilli lider Heydər Əliyev demişdir: "Azərbaycan xalqının bir çox nəsilləri kino sənəti ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edib və mədəniyyətə qovuşublar… Xalqımızın inkişafı yolunda Azərbaycan kinosunun xidmətləri əvəzsizdir".

Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli Sərəncamı ilə avqustun 2-si "Azərbaycan Kinosu Günü" elan edilmişdir. Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründə milli kinonun inkişafına da diqqət və qayğı göstərilmişdir. Müstəqillik illərində də Ulu Öndərin rəhbərliyi ilə kino sənətinə xüsusi diqqət göstərilmişdir. Ümummilli liderimizin 2001-ci il 4 iyul tarixli Fərmanı ilə Azərbaycanda "Kinematoqrafiya haqqında" Qanu-

nun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərmanı qəbul olunmuşdur. Bununla yanaşı, bir sıra Azərbay-
can filmləri yüksək dövlət mükafatlarına layiq görülmüş, aktyorlar, rejissorlar və ssenari müəllifləri beynəlxalq kino festivallarında və müsabiqələrdə mükafatlar almışlar. Kinorejissor Vaqif Mustafayevin ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən "General" (sənədli film, 1999), "Birinci" (sənədli film, 1999), "Moskva, Kreml" (sənədli film, 1999), "Lider" (sənədli film, 1999), "Tale" (sənədli film, 2000), "Əsl məhəbbət haqqında" (sənədli film, 2001), "Bir həsədin tarixi" (sənədli film, 2002), "Professional" (sənədli film, 2004) , "Patriot" (sənədli film, 2005), "Xüsusi təyinat" (sənədli film, 2008), "Dövlət" (3 hissəli sənədli film, 2011) və "Ata yolu" (film, 2013) filmləri müasir dövrümüzün ən dəyərli sənət nümunələri kimi kinosevərlər tərəfindən maraqla qarşılanmışdır. Bakıda məşhur dünya neft şirkətləri ilə bağlanmış saziş Vaqif Mustafayein "Əsrin sazişi" filmində öz əksini tapmışdır.

Azərbaycanın kino sənətini davam etdirən müasir rejissorlardan Hüseyn Mehdiyevin, Cavanşir Mehdiyevin, Yavər Rzayevin, Nicat Feyzullayevin, Ayaz Salayevin, Eldar Quliyevin, Rasim Ocaqovun, Oktay Mirqasımovun filmləri mövzu baxımından maraqlıdırlar. Rejissor Gülbəniz Əzimzadənin ərsəyə gətirdiyi filmlər də bir sıra kinofestivallarda mükafatlara layiq görülmüşdür.

Ümummilli liderin kinonun inkişafı üçün gördüyü işlər ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı 2007-ci il fevralın 23-də "Kino sənətinin inkişafı haqqında", 2008-ci il avqustun 4-də isə "Azərbaycan kinosunun 2008-2018-ci illər üçün inkişafına dair Dövlət Proqramı" haqqında sərəncamlar imzalamışdır. Dövlət proqramında kinofilmlərin istehsalının artırılması, eləcə də müasir kino avadanlıqları və texnikası ilə təchizat, xarici ölkələrlə birgə film istehsalının genişləndirilməsi, kinoteatrların yenidən qurulması nəzərdə tutulmuşdur. Artıq ölkəmizdə kinostudiyaların maddi-texniki bazaları gücləndirilmiş, yeni filmlər çəkilmiş, kino sənətimiz inkişafın müasir mərhələsinə qədəm qoymuşdur. Son illər Azərbaycan filmləri xarici ölkələrdə keçirilən 40-dan çox beynəlxalq festivalda təmsil olunmuşdur. Ənənəvi olaraq keçirilən Beynəlxalq Kann kinofesivalında bir çox ölkələrin pavilyonları ilə yanaşı, ilk dəfə olaraq, Azərbaycan pavilyonu da təşkil edilmişdir. Azərbaycan kinosu festivalda dövlət sifarişi ilə çəkilmiş "Aktrisa" və "Sahə" bədii filmləri ilə təmsil olunmuşdur. Gənc kinematoqraflarımızın çəkdikləri qısametrajlı filmlər də Danimarka, ABŞ, Rusiya, Ukrayna, Hindistan, Almaniya, Türkiyə və başqa ölkələrdə keçirilən beynəlxalq festivallarda nümayiş etdirilmişdir.

***“Kinematoqrafiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında***

***AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN***

***F Ə R M A N I***

“Kinematoqrafiya haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə bağlı onun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Müəyyən edilsin ki:

“Kinematoqrafiya haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin ikinci hissəsində, 7-ci maddəsinin birinci hissəsində və 10-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həyata keçirir.

**2.** Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

***Heydər Əliyev,***

***Azərbaycan Respublikasının Prezidenti,***
***Bakı şəhəri, 4 iyul 2001-ci il, № 526***

## *Heydər Əliyev və Azərbaycan ədəbiyyatı*

Tarix uzaqlaşdıqca biz Heydər Əliyev dühasının əzəmətini, onun şəxsiyyətinin böyüklüyünü daha aydın dərk edirik. Əslində bu qeyri-adi şəxsiyyət hər zaman bizim əhatəmizdədir. Çünki Ulu öndərin layiqli davamçısı prezidentimiz İlham Əliyev Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycanı məhz onun miras qoyduğu dövlətçilik prinsipləri ilə idarə edir, onun imkan tapıb həyata keçirə bilmədiyi idealları tarixə çevirir. Bu misilsiz şəxsiyyətin xalqımız üçün etdiyi işlərin möhtəşəmliyini, tarixi dəyər və miqyaslarını əhatə etmək olduqca çətindir. Heydər Əliyevin miras qoyduğu sərvətlər içərisində onun zəngin nəzəri irsi xüsusi yer tutur. Onun irsi bizim milli sərvətimizdir. Bu qiymətli irsin mühüm bir hissəsini onun mədəniyyət, ədəbiyyat və incəsənətin müxtəlif növ və janrları haqqında nəzəri konsepsiyaları müəyyənləşdirir.

Heydər Əliyev ədəbiyyatdan da, teatr və kino sənətindən də, musiqi və rəssamlıqdan da bəhs edəndə həmin sahələrə məhz dövlətçilik mənafeləri baxımından yanaşırdı. Azərbaycan dili, ədəbiyyatı, mədəni-mənəvi dəyərləri ümumilli liderin azərbaycançılıq fəlsəfəsinin, müstəqil Azərbaycanın milli və dövlət ideologiyasının əsas məxəcləri, bədii-fəlsəfi mənbələridir.

Heydər Əliyev Azərbaycan xalqının misilsiz sərvəti olan klassik irsə, ümumən bədii ədəbiyyata xüsusi önəm ve-

rirdi. Onun bir fikri bütövlükdə ədəbiyyata, zəngin söz sənətimizə münasibəti üçün epiqraf hesab edilməlidir. "Bu gün ümumiyyətlə, müstəqillikdən danışarkən ədəbiyyatımızın xalqımız üçün nə qədər zəngin sərvət olduğunu qeyd etmək lazımdır. Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir. Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir".

Bu fikir olduqca doğrudur, Azərbaycan ədəbiyyatının tarixdəki ideya-bədii rolunu son dərəcə böyük dəqiqlik və obyektivliklə əks etdirir.

Məhz Heydər Əliyevin böyük nüfuzu sayəsində XX əsr Azərbaycan ədəbiyyatının klassiklərinə – Süleyman Rəhimova, Rəsul Rzaya, Mirzə İbrahimova, Süleyman Rüstəmə o dövrün ən şərəfli mükafatı – Sosialist Əməyi Qəhrəmanı adları verildi. Ədəbiyyatımız və mədəniyyətimiz dünyanın ən qabaqcıl mədəniyyətləri sırasına yüksəldi. Dünyanın böyük yazıçılarından biri, nəhəng türk ədibi Çingiz Aytmatov "Heydər Əliyev tarixi, hətta əfsanəvi şəxsiyyətdir" deyirdi. Bu həqiqətən belədir. O, dünyanın qədim, böyük türk eposu "Kitabi–Dədə Qorqud"un 1300 illiyini bütün dünyada keçirməklə həm dastanın ilk növbə-

də Azərbaycan hadisəsi olduğunu sübut etdi, həm də Sovet rejiminin pərən-pərən saldığı dünya türklərini bu dastan ətrafında bir yerə toplamaqla türk birliyi yaratmağa nail oldu. Heydər Əliyev hamıdan yaxşı bilirdi ki, türkləri birləşdirmək üçün onları ortaq məxrəcə gətirən ideyanı ortaya qoymaq lazımdır. Məhz onun müdrikliyi, böyük uzaqgörənliyi sayəsində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi bütün dünyada qeyd olundu. 2 noyabr 1994-cü ildə 80-dən artıq millətin nümayəndəsi iştirak edən Türkiyə Böyük Millət Məclisindəki çıxışında H. Əliyev demişdir: "Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. Amma indi türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyətinin (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət–ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşadığı vaxtda Füzuli bizi yaşadaraq bu günlərə gətirib çıxarmışdır."

Böyük romantik şair və filosof H. Cavidin nəşinin uzaq Sibirdən gətirib doğma Naxçıvanda torpağa qovuşdurması, Cavidlər məqbərəsinin tikilməsi, Bakıda böyük hürufi şair İmadəddin Nəsimiyə, romantik şair Hüseyn Cavidə, Nəriman Nərimanova, Cəfər Cabbarlıya möhtəşəm heykəllər qoyulması Heydər Əliyevin Azərbaycan klassik ədəbiyyatına qayğısının böyük təzahürü idi.

Heydər Əliyev müasiri olduğu yazıçılara da xüsusi qayğı ilə yanaşmış, onları yüksək dövlət mükafatları ilə mükafatlandırmış, təntənəli surətdə yubileylərini keçirmişdir. Bu sıradan xalq yazıçıları İlyas Əfəndiyevin, İsmayıl Şıxlının, Anarın, Hüseyn Abbaszadənin, Yusif Səmədoğlunun, Maqsud İbrahimbəyovun, Hüseyn İbrahimovun, xalq şairləri Məmməd Arazın, Nəbi Xəzrinin, Bəxtiyar Vahabzadənin, Mirvarid Dilbazinin, Məhəmmədhüseyn Şəhriyarın, Qabilin, Xəlil Rza Ulutürkün, Zəlimxan Yaqubun adına keçirilən mərasimlər unudulmazdır.

Heydər Əliyev ensiklopedik təfəkkürlü, müdrik şəxsiyyət idi. Azərbaycanın milli-mənəvi və əxlaqi dəyərlərinin ümumbəşəri ideyalarla zənginləşdirilməsində onun misilsiz xidmətləri olmuşdur. O, Azərbaycan xalqının qəhrəmanlıqlarla dolu tarixi keçmişinə, zəngin mənəvi dəyərlərinə, maddi-mənəvi irsinə, incəsənətinə qayğı ilə yanaşmışdır. Heydər Əliyev Azərbaycan mədəniyyətinin hamisi olmuşdur. O, xalqın mənəviyyatını zənginləşdirən, onu bütün dünyada tanıdan milli mədəniyyətimizin hərtərəfli inkişafını, yüksəlişini daim izləmiş, ona ən ümdə vəzifəsi kimi baxmışdır. Heydər Əliyev deyirdi: “Ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açırlar, yeni formalar meydana gətirirlər”.

Müasir ədəbiyyatımızın, incəsənətimizin və mədəniyyətimizin bəşəri arenada öz nadir inciləri ilə dünyanı heyran qoyması, ölkəmizin şöhrətini qaldırması, xalqımızın qədim mədəniyyətə malik olması bu müdrik fikri təsdiq edirdi. Məlum olduğu kimi, XX əsrdə Azərbaycan mədəniyyətinin bütün sahələrinin sürətli inkişafı, geniş miqyasda təbliği və böyük nailiyyətləri bilavasitə Heydər Əliyevin müstəsna tarixi xidmətlərinin nəticəsi idi. Onun rəhbərlik etdiyi 70-80-ci illərdə, xüsusən sonrakı dövrdə mədəni və ədəbi irsimizə, təsviri sənətə, balet və teatra qayğısı xeyli dərəcədə artmışdı. Heydər Əliyevin bilavasitə himayədarlığı və gərgin səyləri nəticəsində Azərbaycan incəsənəti bütün dünya miqyasında tanınmışdır. Keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi dövrdə Heydər Əliyev yenə də Azərbaycan mədəniyyətinin qayğısına qalırdı. Onun sayəsində Azərbaycan mədəniyyəti ümumdünya mədəni məkanında tanınır, sevilirdi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə "Kitabi-Dədə Qorqud" eposunun, Füzuli, Nəsimi kimi korifey sənətkarların dünya miqyasında yubileylərinin keçirilməsi, Molla Pənah Vaqifin, Hüseyn Cavidin məqbərələrinin inşa edilməsi, İmadəddin Nəsiminin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının heykəllərinin ucaldılması, şəhidlərin xatirə kompleksinin və digər monumental sənət əsərlərinin yaradılması, ədəbiyyat və mədəniyyət xadimlərimizin ev muzeylərinin açılması, "Gülüs-

tan" sarayı, Opera studiyası, Xoreoqrafiya məktəbi kimi memarlıq abidələri əlamətdar hadisələr idi. Bütün bunlar Azərbaycan xalqının milli mədəniyyətinin misli görünməmiş yüksəlişinin təzahürləri idi.



***Mədəniyyəti inkişaf etdirmək, milləti inkişaf etdirmək, milli ruhu yaşatmaq deməkdir.***

***Heydər Əliyev***
***Ümummilli lider***

## *Milli musiqi mədəniyyətimiz və azərbaycançılıq*

Ulu öndər Heydər Əliyevin birinci hakimiyyəti illərində, məhz bu böyük şəxsiyyətin qayğısı nəticəsində milli ideyaların təcəssümü olan dünya şöhrətli sənət əsərləri yarandı. Bunlardan biri də Fikrət Əmirovun dünya şöhrətli “Min bir gecə” baleti idi.

Sənətşünas Fərəh Əliyeva “Fikrət Əmirov: Çağdaş milli və dünya musiqi mədəniyyətində tarixi mövqeyi” məqaləsində Fikrət Əmirovu dünya mədəniyyətinin nadir istedadlarından hesab edərək yazır ki, “Üzeyir Hacıbəyovun yaradıcılıq niyyətlərinin strateji xəttini davam etdirən Fikrət Əmirov Azərbaycan milli məktəbinin parlaq nümayəndəsi kimi qarşısına qoyduğu və yüksək peşəkarlıq səviyyəsində həll etdiyi yaradıcılıq uğurları ilə ümumi muğam ənənəsinə malik müsəlman Şərqinin musiqi irsini çağdaş üslub və təfəkkür tərzi səviyyəsində dünyaya tanıtdı. O, Qərb musiqi anımları və stereotipləri sistemində sirli, ekzotik aləm kimi şərtiliklər içində siması və qəlbi pərdələnən, yalnız təsəvvürlərdə xülya kimi yaradılan “Şərq musiqisi” obrazının inhisarını əsaslı surətdə zəiflətmişdir. Minillik ənənələrin özünəməxsus əsaslarının “mühafizəkarlığı” haqqında köhnəlmiş fikirləri alt-üst edən bəstəkar formaca, məzmunca milli simfonik əsərləri ilə müasir dil, üslub sistemilə həm özünü hifz edən, həm də geniş inkişaf potensialına malik bir mədəniyyətin “Şərq musiqi incəsənəti”

nin təmsilçisi oldu. Bu sərvətləri o, dünyaya Azərbaycan musiqiçisi, azərbaycanlı bəstəkar kimi tanıtdı. Fikrət Əmirov xalq musiqisinin zəngin melodiya, məqam, ritm, formayapçısı qanunlarının dərin qatlarına vararaq, prinsip etibarilə Avropa bəstəkarlıq təfəkkürünün məhsulu olan və musiqili-bədii kateqoriya kimi məhz bu mədəniyyət daxilində formalaşmış simfonizm üslub-janr sistemində yeni şaxə yaratdı. F. Əmirov əsərləri ilə şifahi ənənəli musiqinin zəngin sərvətlərində dayaqlanan milli melos və məqam dramaturgiyasının özünəməxsus təşkili ilə şərlənən yeni simfonik konsepsiyasının əsasını qoydu.

Rəngarəng janrlı və məzmunlu əsərlərdə reallaşan bu konsepsiya Qərb simfonik ifadə vasitələri, üslub-dil fondu, janr imkanları şəraitində məhz milli sistemin qanunauyğunluqları və təfəkkür tərzinə istinadən yaranmışdır. Azərbaycan muğamını əzəli və ənənəvi "ifa məkanı"ndan çıxarıb, simfonik orkestrin, simfonik janrın səlahiyyətinə keçirən Fikrət Əmirov onun fəlsəfəsinin, "mənəviyyatı"nın təbii mövcudluq formasını imkan daxilində saxlamışdır. Simfonik muğamların yazılmasında əsas məqsəd də elə bu idi: bəstəkar Şərq və Azərbaycan musiqisinin incisini mümkün qədər orijinala yaxın tərzdə qoruyub çağdaş "qiyafə"də dünyaya tanıtdı. Eyni zamanda, ürəkləri fəth edən simfonik muğamlar dahi Üzeyir bəyin "Koroğlu"sundan sonra muğamın zəngin emosional palitrasını, onun dramatizmini, zərifliyini, qüdrətli qəhrəman-

lıq nəfəsini, bir sözlə, çoxçalarlı və rəngarəng “mən”ini yeni boylarla, yeni üslub vasitələri ilə sanki yenidən kəşf etdi. Bəstəkarın romantik səciyyəli üslubda yazılmış əsərləri, adətən, bu istiqamət üçün ənənəvi forma yayğınlığı, orkestr yazısının lüzumsuz dəbdəbəsindən uzaqdır. Əlvan, zəngin musiqi dili bəstəkarın təbiətinə xas alicənablıq, xüsusi mütənasiblik, ölçü hissi ilə qovuşuqda təkrar emalı mümkün olmayan bir üslub yaratmışdır. Bəstəkarın estetik baxışlarını, üslub vasitələrinin daimiliyini “mühafizəkarlıq”la izah edənlər də az deyil. Bu daimiliyin kökünü isə bəstəkarın həyat tərzində, psixologiyasında da axtarmaq lazımdır. Fikrət Əmirov dövrünün üslub fondundan yalnız öz təbiətinə uyğun olanını seçirdi. F. Əmirovun yaradıcılığı Azərbaycan və dünya musiqisinin ən maraqlı, ətraflı tədqiqini gözləyən nadir sənət hadisələrindəndir. Bəstəkarın üslubunun ətraflı öyrənilməsi müasir musiqinin bir çox problemlərinin izahı və işıqlandırılmasında müstəsna rol oynaya bilər”.

Qeyd etmək lazımdır ki, Ulu öndər Heydər Əliyev azərbaycançılıq ruhu aşılayan bəstəkarların yaradıcılığını yüksək dəyərləndirirdi: SSRİ xalq artisti Hacıyev Rauf Soltan oğlu istedadlı bəstəkarlardan biridir. Əsərləri yüksək peşəkarlıqla, incə lirizmlə və bədiiliyi ilə seçilir. R. S. Hacıyevin əsərləri həm Sovet İttifaqında, həm də xaricdə geniş tanınır. 1982-ci ilin may ayında Q. Qarayevin dəfn mərasimində çıxış edən Heydər Əliyev deyirdi: “Qara Qaraye-

vin əsərləri Azərbaycan xalqının qədim musiqi mədəniyyətinin bütün zənginliyini özündə təcəssüm etdirir”. O, daha sonra deyirdi: “Qara Qarayev Azərbaycan xalqının zəngin tarixinə neçə-neçə ilhamlı səhifələr həsr etmişdir”.

Heydər Əliyev tanınmış isdedadlı bəstəkar, böyük gələcəyinə inandığı Arif Məlikova qayğı göstərir, onun “Məhəbbət əfsanəsi” baletini Azərbaycan xalqının milli musiqisini dünyaya tanıdan şah əsərlərdən biri hesab edirdi. Ümumiyyətlə, 70-ci illərdə Azərbaycan bəstəkarları üçün rejim bir dekorasiya idi. Onların əsərləri musiqi mədəniyyətini zənginləşdirməklə yanaşı, xalqda milli ruhu, özünə inam hissini gücləndirirdi.

Ulu öndərin bilavasitə qayğısı nəticəsində ölkədə yeganə olan Mahnı Teatrını SSRİ xalq artisti Rəşid Behbudov yaratdı. Bununla da Azərbaycan milli xoreoqrafiyası məşhurlaşdı.

Heydər Əliyev Azərbaycan musiqisinin dünya miqyasında tanıdılması yönündə böyük işlər görürdü. Onun hakimiyyəti illərində Azərbaycan mədəniyyəti ölkə sərhədlərini sürətlə aşaraq dünya miqyasına daha geniş çıxırdı. Buna dair yüzlərlə misal göstərmək olar. 1973-cü ilin payızında SSRİ xalq artisti Rəşid Behbudovun rəhbərliyi altında Mahnı Teatrı Latın Amerikası ölkələrində uğurla konsertlər verdi. Bu barədə tanınmış tənqidçi İlham Rəhimli yazırdı: “Rəşid Behbudov oxuyanda günəşli Azərbaycan məlahətli səslə sehrlənmiş nağıla çevrilir.

Xalqımızın əzəməti, Xəzərin coşqunluğu, dağ çeşmələrinin saflığı, laləli düzlərin ətri, bərəkətli çöllərin, meyvəli bağların şirinliyi mahnılarla könüllərə hopur. Rəşid Behbudov Azərbaycanı tanıdıb. Səni tərənnüm edirəm, Azərbaycan! Qüdrətli sənəti, odlu-alovlu mahnıları ilə Azərbaycanı sönməz məşələ çevirib".

70-80-ci illərdə Azərbaycan mədəniyyəti və incəsənətinin tərəqqisini hətta xarici ölkələrin siyasətçiləri, alimləri, diplomatları və jurnalistləri də etiraf edirdilər. Professor Musa Qasımlının qeyd etdiyi kimi, ümumiyyətlə, Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan musiqisi yuksək inkişaf səviyyəsinə çataraq sovet dövründə çiçəklənmə, intibah mərhələsini yaşadı. O, Azərbaycan bəstəkarlarına, müğənnilərinə qayğı göstərir, qurultaylarında iştirak edir, problemlərini operativ həll edir, yubileylərini keçirir, yüksək dövlət mükafatlarına təqdim edir, klassik Azərbaycan bəstəkar və musiqiçilərinin ev, xatirə muzeylərini yaradır, milli musiqiyə, muğama, folklor musiqisinə, bədii özfəaliyyət kollektivlərinin yaradılmasına, aşıq musiqisinin dirçəldilməsinə çalışır, məşhur aşıqların yubileylərini keçirir, xatirələrini əbədiləşdirir, musiqinin problemlərinə dair ictimai və ciddi elmi müzakirələr açdırır, gənc istedadların üzə çıxmasına qayğı göstərir və bu barədə mühüm qərarların qəbul edilməsinə nail olurdu. Sonralar Heydər Əliyev nitqlərinin birində deyirdi: "Əsrin əvvəllərindən bu günədək olan müddəti götürsək, görərik ki,

həmin dövrdə Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Cövdət Hacıyev, Arif Məlikov, Tofiq Quliyev və Rauf Hacıyev kimi görkəmli bəstəkarlar yetişmişdir. Şərqdə ilk opera Üzeyir Hacıbəyovun dühası ilə yaranmışdır. Bir sözlə, Azərbaycanda profesional musiqi mədəniyyəti təşəkkül tapmışdır. Demək istəyirəm ki, bu ictimai-siyasi quruluş, iqtisadi sistem xalqın mədəniyyətinə nəinki zərər vura bilməmiş, əksinə, bu sistemdə mədəniyyətimiz çox inkişaf etmiş və irəliləmişdir".

Heydər Əliyevin bilavasitə qayğısı sayəsində "Nəsimi" kinofilminin bəzi kadrları dahi azərbaycanlı şairin edam edildiyi Hələb şəhərində çəkilmişdir. "Babək" kinofilminin çəkilişinin təşəbbüsçüsü də bilavasitə Heydər Əliyev olmuşdur. Azərbaycan rəhbəri filmin çəkilişini nəzarətdə saxlayır və işlərin gedişi ilə yaxından maraqlanırdı. Heydər Əliyev bu məsələnin geniş müzakirəsini keçirərək filmin daha yaxşı alınmasından ötrü əlindən gələni edirdi. MK bürosunun 1978-ci il 14 aprel tarixli iclasında "Azərbaycan xalq kütlələrinin azadlıq hərəkatına həsr edilmiş iki seriyalı bədii filmin çəkilişinə kömək göstərilməsi haqqında məsələ" müzakirə olundu. Müzakirə zamanı maliyyə çatışmazlığının olduğu fikri səsləndirildi. Heydər Əliyevin göstərişi ilə "Azərbaycanfilm" studiyasına əlavə maliyyə vəsaiti ayrıldı. Məsələnin müzakirəsi zamanı çıxış edən Heydər Əliyev deyirdi ki,

mən bu filmə çox böyük əhəmiyyət verirəm. Burada xüsusi olaraq nəzərə almaq lazımdır, birinci, elmi mötəbərlik, ikinci, ideya-bədii tərəf və kinematoqrafiya dəyəri. Bu üç məsələ tam əksini tapmalıdır, ona görə də bu film sıradan biri olmamalıdır. Onu həqiqətən elə etmək lazımdır ki, ittifaq ekranında ən yüksək səviyyədə olsun.

Heydər Əliyevin tövsiyələri və tələbkarlığı öz bəhrəsini verdi. "Babək" filmi böyük ustalıqla çəkilərək 70-ci illərin sonunda ekranlara çıxarıldı və geniş tamaşaçı kütləsinin rəğbətini qazandı. Kinofilm Azərbaycan xalqında qəhrəmanlıq, milli mənlik, özünə inam hisslərini yüksəldir, işğalçılara qarşı qisas, nifrət aşılayırdı. Filmin çəkilişinin başa çatması və böyük ekrana çıxması, heç şübzəsiz, Azərbaycan kino sənəti tarixində mühüm hadisəyə çevrildi.

Əvvəlki illərdə "Kitabi-Dədə Qorqud" dastanına rəsmi səviyyədə türkçü, turançı damğası vurulmuşdusa, Azərbaycan xalqına yad hesab edilmişdisə, Heydər Əliyev bu biabırçılığa cəsarətlə son qoydu. Onun bilavasitə göstərişi ilə Azərbaycan xalqında milli, tarixi köklərinə hörmət, torpaq, vətən sevgisi hissləri aşılayan "Dədə Qorqud" filmi yazıçı Anarın ssenarisi əsasında yaradıldı və böyük tamaşaçı rəğbəti qazandı.

Ümumiyyətlə, milli tarixlə bağlı ən gözəl bədii, sənədli filmlər bütün sovet dövrü ərzində məhz Heydər Əliyevin hakimiyyəti illərində cəsarət və sevgi ilə yaradılaraq ekranlara çıxarıldı. Azərbaycan kinosunun ən gözəl nümunə-

ləri olan “Babək”, “Nəsimi”, “Dədə Qorqud”, “Ad günü”, “İstintaq” və onlarla başqa bədii filmlər yaradılaraq xalqın istifadəsinə verildi. R. Təhmasib, Ə. İbrahimov, T. Tağızadə, H. Seyidbəyli, R. Ocaqov və başqa bu kimi quruluşçu-rejissorlar bütün ölkə miqyasında məşhurlaşdılar. Belə bir cəhət də əhəmiyyətlidir ki, hətta uşaqlar üçün çəkilən cizgi filmləri də torpaq, yurd sevgisi, milli ruh aşılayırdı.

Professor Musa Qasımlı düzgün olaraq yazırdı: “Beləliklə, Azərbaycan incəsənəti sovet hakimiyyəti illərində ilk dəfə olaraq ən yüksək inkişaf mərhələsinə məhz Heydər Əliyevin hakimiyyəti illərində, onun həyata keçirdiyi tədbirlər nəticəsində çatdı. 70-ci illər - 80-ci illərin ortaları sovet dövründə Azərbaycan incəsənətinin tərəqqisi illəridir. Heydər Əliyevin bilavasitə səyləri və qayğısı nəticəsində Azərbaycan musiqisi, teatrı, kinosu, rəssamlığı, memarlığı, radio və teatrı inkişaf etdi. Həmin illərdə Azərbaycan musiqi sənəti klassiklərinin xatirələri əbədiləşdirilir, ən parlaq nümayəndələrinə dövlətin orden və medalları, fəxri adlar verilir, mənzil və yaradıcılıq şəraitləri yaxşılaşdırılır, əsərləri ölkə və xarici dövlətlərin səhnələrində oynanılır, xalq musiqisi və folklor dirçəldilir, bədii özfəaliyyət kollektivlərinin fəaliyyəti gücləndirilir, aşıq musiqisinin inkişafına diqqət yetirilirdi. Bəstəkarların qurultaylarında iştirak edən Heydər Əliyev onların problemlərini yerindəcə həll edirdi. O, Azərbaycanda kino sənətinin inkişafına xüsusi önəm verir, kinostudiyanın

maddi-texniki bazasını möhkəmləndirir, milli tarixlə bağlı ən yaxşı bədii filmlərin çəkilişini tövsiyə edir, aktyorları dövlətin ali mükafatlarına və fəxri adlara təqdim edir, Azərbaycan kinosunun yubileyini keçirir, teatrın inkişafına başlıca diqqət yetirir, teatr xadimlərinin, milli teatrın və digər teatrların yubileylərini keçirir, onlara fəxri adların, dövlətin orden və medallarının verilməsinə nail olur, milli tarixlə bağlı əsərlərin səhnələşdirilməsini tövsiyə edirdi. Azərbaycan incəsənət xadimlərinə isti münasibət bəslənilməsi azadlıq ideyalarını yayan, milli özünüdərki, özünə inamı gücləndirən əsərlərin yaranmasına kömək edirdi. Heydər Əliyev onları xalqın tarixinə, gerçək həyatına nüfuz etməyə səsləyir, gözəl əsərlər yaratmağa ruhlandırırdı. Heydər Əliyevin hakimiyyəti illərində Bakının siması yeni memarlıq binalarının tikilməsi ilə dəyişdi, onlarla yeni memarlıq abidələri, heykəllər tikildi, Azərbaycan memarları məşhurlaşdı, rəssamlıq sənəti inkişaf etdi, sənətkarlar dövlətin ən yüksək mükafatlarını aldılar, radio və televiziya inkişaf etdirildi. Bütün bunlar, heç şübhəsiz, Azərbaycan xalqında milli hissləri, milli özünüdərki və özünə inamı, o cümlədən, azərbaycançılığı gücləndirirdi.

















***Teatrımızın böyük tarixi, böyük ənənələri, gözəl nümunələri var və bu teatr bu gun də, gələcəkdə də yaşamalıdır.***

***Heydər Əliyev***
***Ümummilli lider***

*Muzeylər haqqında*

*AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU*

***Bu Qanun Azərbaycan Respublikasında muzeylərinin fəaliyyətinin təşkilati-hüquqi, iqtisadi əsaslarını müəyyən edir və bunlarla bağlı münasibətləri tənzimləyir.***

## *I fəsil*

## *ÜMUMİ MÜDDƏALAR*

### *Maddə 1. Əsas anlayışlar*

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

muzey –maddi mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişinin və təbliğinin həyata keçirildiyi mədəniyyət, elmi tədqiqat müəssisəsi;

muzey fondu - Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən dövlət mülkiyyətində, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylərdə daimi saxlanılan, qorunan muzey əşyalarının və kolleksiyalarının məcmusu;

dövlət muzey fondu - dövlət muzeylərinin fondlarında saxlanılan mədəniyyət sərvətlərinin məcmusu;

mədəniyyət sərvətləri - "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş kateqoriyalara aid edilən, dünyəvi və dini xarakterli, tarix-bədii əhəmiyyətə malik əşyalar;

muzey əşyası - keyfiyyəti və ya xüsusi əlamətlərinə görə cəmiyyət üçün qorunub saxlanılması, öyrənilməsi və kütləvi nümayişi zəruri olan mədəniyyət sərvəti;

muzey kolleksiyası - əsas fondun tərkibində vahid tam kimi elmi, tarixi, mədəni əhəmiyyət daşıyan muzey əşyalarının məcmusu;

muzey fəaliyyəti - elmi, mədəni, mənəvi və estetik tələbatın ödənilməsi məqsədi ilə insan, onun fəaliyyəti və yaşayış mühiti haqqında mədəniyyət sərvətlərinin və maddi nümunələrin əldə edilməsi, qorunması, uçotu, tədqiqi, təbliği və nümayişi;

muzey əşyalarının və kolleksiyalarının mühafizəsi - muzey əşyalarının və kolleksiyalarının qorunub saxlanmasını təmin edən, maddi və hüquqi şərtlərin yaradılmasını nəzərdə tutan muzey fəaliyyəti;

muzey saxlancları - müvəqqəti olaraq nümayiş etdirilməyən muzey əşyalarının və kolleksiyalarının saxlandığı yer.

***Maddə 2. Muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri***

Muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

muzeylərdə mühafizə olunan mədəniyyət sərvətlərinin və əşyaların nümayişinin hamı üçün açıq olması;

milli sərvətlərin saxlandığı muzeylərin və muzey fondlarının mühafizəsinə dövlət qayğısı, onların ilk növbədə maliyyələşdirilməsi.

Muzey fəaliyyəti sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

elmi tədqiqat və elmi-kütləvi iş aparan maddi mədəniyyət obyektlərinin toplandığı yeni muzeylərin yaradılması;

muzeylərin fəaliyyəti üçün zəruri olan normativ-hüquqi aktların hazırlanması və onların icrasına nəzarət;

muzeylərin müvafiq binalarla təmin edilməsi, muzey binalarının lazımi vəziyyətdə saxlanılması, muzey əşyalarının və kolleksiyalarının mühafizəsi vasitələri və müasir texniki avadanlıqla təmin edilməsi;

dövlət muzeylərində muzey kolleksiyalarının konservasiya və bərpası, muzey əşyalarının nadir nümunələrinin surətlərinin çıxarılması, muzey üçün əşyaların və kolleksiyaların satın alınması, elmi işlənilməsi, nəşriyyat fəaliyyəti üçün zəruri olan maliyyə vəsaitinin ayrılması;

xarici ölkə muzeylərində saxlanılan və Azərbaycan xalqının milli sərvəti olan nadir muzey əşyalarının və kolleksiyalarının tətbiqi, öyrənilməsi və Azərbaycan Respublikasına qaytarılmasının təmin olunması;

təbii fəlakət, yanğın, silahlı münaqişə, müharibə və digər təhlükə yarandığı zaman muzey fondlarının mühafizəsinin təmin olunması;

muzeylərin saxlanmasına, inkişafına, maddi-texniki bazasının möhkəmləndirilməsinə maliyyə vəsaitinin ayrılması və muzey kadrlarının hazırlanması.

***Maddə 3. Muzeylər haqqında Azərbaycan Respublikasının qanunvericiliyi***

Muzeylər haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

Bu Qanunla Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq olunur.

## *II fəsil*

## *MUZEYLƏR VƏ MUZEY FƏALİYYƏTİ*

***Maddə 4. Muzeylərin yaradılması qaydası və məqsədi***

Azərbaycan Respublikasında muzeylər mədəniyyət, elmi tədqiqat, maarifləndirmə funksiyalarını yerinə yetirən müəssisə forması kimi, "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş qaydada yaradılır.

Azərbaycan Respublikasında muzeylər:

muzey əşyalarının və kolleksiyalarının aşkar edilməsi, toplanması, qorunması öyrənilməsi və təbliği;

Azərbaycan xalqının milli sərvətləri, tarixi və görkəmli şəxsiyyətləri ilə geniş xalq kütlələrini tanış etmək, ayrı-ayrı vətəndaşları həmin sərvətlərin toplanmasına və öyrənilməsinə cəlb etmək;

muzey əşyalarının və kolleksiyalarının nümayiş etdirilməsi və təhsil fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə yaradılırlar.

***Maddə 5. Muzeylərin yenidən təşkili və ləğv olunması***

Azərbaycan Respublikasında muzeylərin yenidən təşkili və ləğv olunması "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir. Yenidən təşkil olunma nəticəsində muzey fəaliyyətinin məqsədinin dəyişməsinə yol verilmir.

Dövlət muzeylərinin ləğvi zamanı həmin muzeylərdə olan muzey əşyaları və kolleksiyaları müvafiq icra hakimiyyəti orqanının qərarı ilə digər dövlət muzeylərinə verilir.

***Maddə 6. Muzey əşyalarının və kolleksiyalarının Azərbaycan Respublikasından müvəqqəti kənara çıxarılması***

Muzey əşyalarının və kolleksiyalarının Azərbaycan Respublikasından müvəqqəti kənara çıxarılması "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.

***Maddə 7. Muzeylərin köçürülməsi***

Muzeylər və onların fondlarına daxil olan ayrı-ayrı muzey əşyaları və kolleksiyaları təbii fəlakət, yanğın, silahlı münaqişə, müharibə və digər təhlükə yarandığı zaman müvafiq icra hakimiyyəti orqanının qərarı ilə ilk növbədə müəyyən olunmuş qaydada təhlükəsiz yerlərə və yaxud mülki müdafiə qurumlarının müəyyən etdiyi yerlərə köçürülürlər.

***Maddə 8. Muzey fəaliyyəti və onun növləri***

Azərbaycan Respublikasında dövlət mülkiyyətində, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər fəaliyyət göstərir.

Azərbaycan Respublikasında muzey fəaliyyətinə: muzey əşyalarının və kolleksiyalarının komplektləşdirilməsi, onların uçotunun, mühafizəsinin təşkili və bütövlüyünün təmin olunması;

muzey kolleksiyaları, arxiv, kitabxana və digər materiallar əsasında elmi tədqiqatlar;

muzey ekspozisiyalarının və sərgilərin təşkili, muzey sahəsində dizayn və tərtibat işlərinin həyata keçirilməsi;

muzey əşyalarının konservasiyası və bərpasının bütün növləri;

muzey kolleksiyalarının kataloqlarının hazırlanması və nəşr olunması;

muzey kolleksiyalarının təbliği daxildir.

***Maddə 9. Milli statusa malik muzeylər***

Fondlarında mühafizə olunan mədəniyyət sərvətlərinin, ayrı-ayrı kolleksiyaların əhəmiyyətlilik dərəcəsinə və ölkənin mədəni həyatındakı roluna görə "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq muzeylərə milli status verilə bilər.

Milli statusa malik muzeylər xüsusi əhəmiyyətli obyekt kimi dövlət tərəfindən qorunur.

Milli statusa malik muzeylərin işçilərinin əmək haqqlarına əlavələr müəyyən olunur.

Milli statusa malik muzeyləri ləğv etmək və onların mülkiyyət formasını dəyişdirmək, habelə binalarında kənar təşkilatların yerləşdirilməsi qadağandır.

***Maddə 10. Respublika əhəmiyyətli muzeylər***

Fondlarının, kolleksiyalarının əhəmiyyətinə və işinin həcminə görə respublika səviyyəsində fəaliyyət göstərən muzeylər respublika əhəmiyyətli muzeylər hesab edilir.

Respublika əhəmiyyətli muzeylərin statusu və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Respublika əhəmiyyətli muzeylər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan əsasnaməyə uyğun fəaliyyət göstərir.

***Maddə 11. Bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər***

Bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər qanunvericilikdə müəyyən olunmuş qaydada yaradılır və qeydiyyata alınır. Bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər qeydiyyata alındıqdan sonra müvafiq icra hakimiyyəti orqanlarında uçota götürülür və təsisçilərinin təsdiq etdikləri əsasnaməyə müvafiq fəaliyyət göstərirlər.

Dövlət bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylərin inkişafına daim qayğı göstərir. Bələdiyyə

mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylərin fondları Azərbaycan Respublikasının Dövlət muzey fondunun tərkib hissəsi kimi qorunur.

***Maddə 12. Muzeylərin hüquqları***

Muzeylərin hüquqları aşağıdakılardır:

Azərbaycan Respublikasının qanunvericiliyi ilə mühafizə olunan dövlət sirləri istisna olmaqla, mədəni, tarixi, siyasi, təsərrüfat və sosial istiqamətli hadisələri nümayiş etdirmək;

müvafiq təşkilatların razılığı ilə lazım sənədlərin surətini çıxarmaq;

muzeylərin fondlarına qiymətli əşyaların alınması üçün həmin məqsədə ayrılmış maliyyə vəsaitlərindən istifadə etmək;

öz gəliri hesabına, müqavilə qiyməti ilə muzey əşyaları almaq;

mətbəə məhsullarını hazırlamaq, nəşr etmək və satmaq;

gəlir gətirmək məqsədi ilə istehsal edilmiş suvenir və məmulatlar üzərində daşınar və daşınmaz muzey əşyalarının əkslərinin verilməsinə görə müəllif hüquqları onların bilavasitə mənsub olduqları muzeylərə məxsusdur. Muzey fonduna daxil olan hər hansı maddi mədəniyyət abidəsinin əksinin məmulat üzərində vermiş hər bir müəssisə, təşkilat əldə etdiyi gəlirin müəyyən faizini reklam etdirdiyi maddi mədəniyyət abidəsinin mənsub olduğu mülkiyyətçisinə ödəməlidir.

Dövlət muzeylərinin rəsmi dili Azərbaycan dilidir.

Hüquqi və fiziki şəxslərin muzey əşyalarından və kolleksiyalarından istifadə etməsi ilə bağlı nəşriyyat fəaliyyəti muzeyin razılığı və ona istinad etməklə həyata keçirilir.

***Maddə 13. Muzey əşyalarının və kolleksiyalarının nümayişi***

Muzey fondlarına daxil olan və dövlət muzeylərində saxlanılan muzey əşyaları və kolleksiyaları ilə vətəndaşların tanış olması təmin edilir.

Muzey fondlarına daxil olan muzey əşyalarının və kolleksiyalarının nümayişinin məhdudlaşdırılması mülkiyyətçi tərəfindən aşağıdakı əsaslara görə müəyyən edilə bilər:

mühafizə olunan muzey əşyalarının və kolleksiyalarının yararsız vəziyyəti;

təmir və bərpa işlərinin görülməsi;

muzey əşyalarının və kolleksiyalarının muzey saxlanclarında yerləşdirilməsi.

Muzey saxlanclarında yerləşən muzey əşyalarının və kolleksiyalarının nümayişi qaydaları və şərtləri müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyənləşdirilir.

***Maddə 14. Muzey əşyalarının və kolleksiyalarının publikasiyası***

Muzey fondlarına daxil olan və Azərbaycan Respublikası muzeylərində yerləşən muzey əşyaları və kolleksiyaları haqqında ilk publikasiya hüququ həmin muzeylərə məxsusdur.

Muzey fondlarına daxil olan və Azərbaycan Respublikası muzeylərində saxlanılan muzey əşyalarının və kolleksiyalarının

kommersiya məqsədi ilə əks etdirilməsi hüququ muzeylərə məxsusdur.

### *III fəsil*

## *MUZEY FONDLARI, ONLARIN UÇOTU VƏ MÜHAFİZƏSİ*

***Maddə 15. Muzey fondlarının tərkibi***

Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən muzeylərin fonduna daxil edilmiş muzey əşyaları və kolleksiyaları Azərbaycan xalqının sərvətidir.

Muzey fondlarının tərkibinə aşağıdakılar daxildir:

Azərbaycan xalqının tarixi, mədəniyyəti və məişəti ilə, dövlət və cəmiyyətin həyatındakı ən mühüm hadisələrlə, elm və texnikanın, incəsənət və ədəbiyyatın inkişafı ilə, ictimai-siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin, hərbçilərin, tarixi hadisələrin fəal iştirakçılarının həyatı ilə bağlı olan ayrı-ayrı əşyalar və kolleksiyalar;

incəsənətin memarlıq, təsviri, musiqi, teatr və tətbiqi sənət, o cümlədən xalq sənəti və digər növlərinə aid əsərlər;

geologiyanı, paleontologiyanı, mineralogiyanı, fauna və floranı, təbiətşünaslıq tarixini xarakterizə edən ayrı-ayrı əşyalar və kolleksiyalar;

əlyazmalar, qədim, nadir və qiymətli nəşrlər;

numizmatika, heraldika, epiqrafika kolleksiyaları və ayrı-ayrı əşyalar;

silah və hərbə dair atributlar, eləcə də hərb mövzusunda ayrı-ayrı əşyalar və kolleksiyalar;

qiymətli metal və daşlardan ibarət əşyalar, tərkiblərində qiymətli metal və daşlar olan tarixi, bədii və ya digər mədəni əhəmiyyətə malik ayrı-ayrı əşyalar və kolleksiyalar;

tarixi, elmi, bədii və mədəni əhəmiyyət kəsb edən digər əşyalar daxildir.

***Maddə 16. Muzey fondlarının uçotu və mühafizəsi***

Muzey fondlarına daxil olan sərvətlərin mühafizəsi və qorunması dövlət tərəfindən həyata keçirilir.

Muzey fondlarına daxil olan muzey sərvətlərinin uçotu və mühafizəsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Qiymətli muzey əşyalarının mühafizə olunduğu dövlət muzeylərində mülkiyyətçilərin müqavilə öhdəliklərini yerinə yetirə bilməmələri səbəbindən muzeylərin mühafizəsini dayandırmaq, enerji və rabitə vasitələrinin kəsilməsi qadağandır

***Maddə 17. Muzey əşyalarının və kolleksiyalarının muzey fondlarına daxil edilməsi və çıxarılması***

Muzey əşyalarının və kolleksiyalarının muzey fondlarına daxil edilməsi müəyyən olunmuş qaydada ekspertiza aparıldıqdan sonra həyata keçirilir.

Muzey əşyaları və kolleksiyaları muzey fondlarının əsas uçot sənədlərində müvafiq qeyd aparıldıqdan sonra muzey fondlarının tərkibində hesab edilir.

Muzey əşyalarının və kolleksiyalarının muzey fondlarının tərkibindən çıxarılması bu Qanunun 20-ci maddəsində göstərilən hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

***Maddə 18. Muzey fondlarının əsas uçot sənədləri***

Muzey fondlarının əsas uçot sənədləri uçot - mühafizə kitabları və kataloqdur.

Muzey fondlarının uçot - mühafizə kitabları muzey fondlarına daxil olan hər bir muzey əşyası və kolleksiyası haqqında əsas məlumatı əks etdirən sənəddir.

“Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq olaraq tərtib edilən “Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısı” və “Mədəniyyət sərvətlərinin mühafizə siyahısı” muzey fondlarının kataloqu hesab edilir.

Muzey fondlarının əsas uçot sənədləri haqqında Əsasnamə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

***Maddə 19. Muzey fondlarına daxil olan muzey əşyalarının və kolleksiyalarının dövriyyəsi***

Dövlət muzey fondlarına daxil olan muzey əşyaları və kolleksiyaları müəyyən olunmuş qaydada bir hüquqi şəxsdən digərinə müvafiq icra hakimiyyəti orqanının razılığı ilə keçə bilər.

Mədəni sərvətlərin muzey fondlarına daxil edilməsi müvafiq icra hakimiyyəti orqanı nəzdində yaradılmış ekspert

komissiyaları, muzeylərdə isə (xüsusi mülkiyyətdə olan muzeylərdən başqa) fond - satınalma komissiyası tərəfindən həyata keçirilir.

Muzey fondlarından muzey əşyalarının və kolleksiyalarının dövlətlər arasında mədəni mübadilə və yaxud müvəqqəti istifadə olunma məqsədi ilə verilməsi müvafiq icra hakimiyyəti orqanının yazılı icazəsi əsasında həyata keçirilir.

Muzey fondlarına daxil olan əşyaların və kolleksiyaların dövriyyə məqsədi ilə verildiyi təşkilatlar əşyaların və kolleksiyaların mühafizəsini, bununla bağlı uçot və qeydiyyatın aparılmasını təmin etməlidirlər.

***Maddə 20. Dövlət muzeyləri fondlarının tərkibi***

Dövlət muzeyləri fondlarının tərkibinə daxil olan muzey əşyaları və kolleksiyaları təbii fəlakət, yanğın, xarab olma habelə digər muzey əşyalarına və kolleksiyalarına dəyişmə halları istisna edilməklə, muzeydən kənarlaşdırıla bilməz.

***Maddə 21. Muzeylərin fəaliyyətinə dövlət nəzarəti***

Muzeylərin fəaliyyətinə dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən aşağıdakı qaydada həyata keçirilir:

muzeylərin saxlanması və inkişafı üçün maliyyə vəsaitinin ayrılması və onun xərclənməsinə nəzarət;

muzey əşyalarının və kolleksiyalarının qorunub saxlanma vəziyyətinin və mühafizə şəraitinin yoxlanılması;

muzey fondlarının dövlət qeydiyyatının həyata keçirilməsi üçün muzey əşyaları və kolleksiyaları barədə zəruri informasiyaların alınması və sorğuların göndərilməsi.

***Maddə 22. Muzeylərə dövlət qayğısı***

Müvafiq icra hakimiyyəti orqanı muzey fondlarına daxil olan muzey əşyalarının və kolleksiyalarının mühafizəsi və istifadəsi üçün şərait yaratmalıdır.

Müvafiq icra hakimiyyəti orqanları unikal bədii - tarixi komplekslərin, habelə ən böyük dövlət muzeylərində mühafizə edilən ümumdünya əhəmiyyətli muzey əşyalarının və kolleksiyalarının qorunması üçün xüsusi qayğı göstərirlər.

Dövlət muzeylərinin inkişafına yönəldilmiş vaxtaşırı subsidiyalara, xeyriyyəçilik və sponsorluğa görə hüquqi və fiziki şəxslər həmin məqsədə yönəltdikləri vəsait həcmində vergidən azad olunurlar.

***Maddə 23. Muzeylərin yerləşdiyi binalar***

Muzeylərin yerləşdiyi binalar və onların tutduğu sahələr muzeylərin balansına verilməlidir.

## *IV fəsil*

## *DÖVLƏT MUZEYLƏRİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ VƏ DÖVLƏT MUZEYLƏRİ İŞÇİLƏRİNİN SOSİAL MÜDAFİƏSİ*

### *Maddə 24. Dövlət muzeylərini maliyyələşdirmə mənbələri*

Dövlət muzeyləri dövlət büdcəsi, büdcədənkənar daxilolmalar və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

### *Maddə 25. Muzeylərin təsərrüfat fəaliyyəti*

Muzeylər qanunvericilikdə müəyyən olunmuş qaydada nizamnamələrinə (əsasnamələrinə) uyğun olaraq təsərrüfat fəaliyyəti ilə də məşğul ola bilərlər. Bu fəaliyyətdən əldə edilən gəlir bütövlükdə muzeylərin sərəncamında qalır.

### *Maddə 26. Dövlət muzeyləri işçilərinin sosial müdafiəsi*

Dövlət muzeyləri işçilərinin sosial müdafiəsinə dövlət tərəfindən təminat verilir.

Dövlət muzeyləri işçilərinin əmək haqlarına elmi dərəcəyə (fəlsəfə doktoru, elmlər doktoru), fəxri adlara və xarici dillərdə ekskursiyalar aparmağa görə əlavələr müəyyən olunur.

Muzeylərin statusu, spesifik xüsusiyyətləri nəzərə alınmaqla işçilərə əmək haqqından əlavə, digər ödənişlər tətbiq edilə bilər.

Müvafiq icra hakimiyyəti orqanları, müəssisə, idarə, və təşkilatlar öz tabeliklərində olan muzeylərin işçilərinə əlavə

kompensasiyalar müəyyən edə bilərlər. Muzey işçiləri dövlət muzeyləri və sərgilərinə pulsuz tamaşa edə bilərlər.

Dövlət muzeyləri işçilərinin əmək haqları mədəniyyət sahəsində müvafiq icra hakimiyyəti orqanında çalışan işçilərin vəzifə maaşlarına bərabər tutulur.

## *V fəsil*

## *YEKUN MÜDDƏALARI*

***Maddə 27. Beynəlxalq əməkdaşlıq***

Azərbaycan Respublikasındakı muzeylər Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə uyğun olaraq beynəlxalq mədəni əməkdaşlığı həyata keçirirlər.

***Maddə 28. Bu Qanunun pozulmasına görə məsuliyyət***

Bu Qanunun pozulmasında təqsirli olan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

***Heydər Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 mart 2000-ci il, № 839-IQ***

HEYDƏR ƏLİYEV

100















***Azərbaycan mədəniyyəti və incəsənətinin dünyaya inteqrasiyasında Heydər Əliyev Fondunun müstəsna rolu***

> ***"Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir. Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir".***
>
> ***Heydər Əliyev***

Xalqların və millətlərin formalaşmasında, dünya miqyasına çıxmasında mühüm rol oynayan amillərdən biri də mədəniyyətdir. Mədəniyyət insanın öz fəaliyyəti prosesində nail olduğu predmetlər və dəyərlər toplusudur ki, bütün bunlar da nəsildən-nəsilə ötürülərək daha da inkişaf etdirilir. Tarix sübut edib ki, yüksək mədəniyyətə malik xalq müasir aləmin yeni çağırışlarına uyğun hərəkət etməyə və tərəqqi, inkişaf yolunda inamla addımlamağa qadirdir. Ona görə də mədəniyyətin təbliği, inkişaf etdirilməsi, qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi çox vacibdir.

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə daim mədəniyyət və incəsənətin inkişafına böyük qayğı göstərmiş, bu sahənin nümayəndələrinə fəxri adlar, qiymətli hədiyyələr vermiş, mədə-

niyyət müəssisələrinin bərpasını və yenidən qurulmasını prioritet vəzifə kimi qarşıya qoymuşdur. Bu gün Azərbaycanın bütün bölgələrində ulu öndərin saysız-hesabsız yadigarları var. Bunlar qüdrətli şəxsiyyətin xalqına, millətinə sonsuz məhəbbətinin təzahürüdür.

Ümummilli lider Heydər Əliyevin siyasi kursu bu gün uğurla həyata keçirilir. Belə ki, dahi şəxsiyyətin ideyaları möhtərəm Prezidentimiz, cənab İlham Əliyev və Heydər Əliyev Fondu, fondun prezidenti Mehriban xanım Əliyeva tərəfindən böyük müvəffəqiyyətlə davam etdirilir. Mən bu yazımda Heydər Əliyev Fondunun mədəniyyət və incəsənət sahəsindəki fəaliyyətindən söhbət açmaq istəyirəm. Sözsüz ki, fondun son illər ərzində yalnız mədəniyyət və incəsənət sahəsində gördüyü işlərdən, beynəlxalq aləmin diqqətinin ölkəmizə cəlb olunmasından, Azərbaycan mədəniyyəti və incəsənətinin dünyaya inteqrasiyasındakı yorulmaz fəaliyyətindən cild-cild əsərlər yazılsa yenə də azdır. Hər halda, bəzi məqamları diqqətə çatdırmağı özümə borc bilirəm.

Fəaliyyəti dövründə Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin inkişafı istiqamətində həyata keçirdiyi iri miqyaslı tədbirlər həm ölkəmizdə, həm də beynəlxalq aləmdə böyük rezonans doğurub. Azərbaycanın birinci xanımının rəhbərlik etdiyi fond xalqımızın taleyi üçün misilsiz əhəmiyyət kəsb edən mədəniyyət və incəsənətin bütün sahələrinin inkişafını diqqətdə saxlayıb.

Onun təşəbbüsü ilə Azərbaycan mədəniyyəti və incəsənəti ilə bağlı irimiqyaslı layihələr uğurla reallaşdırılıb. Bu layihələr mədəniyyətimizi dünya miqyasında təbliğ edib və tanıdıb. Onu da qeyd edim ki, fondun Azərbaycan mədəniyyətinin inkişafı istiqamətində həyata keçirdiyi layihələrin, fəaliyyətin kökündə xalqa bağlılıq, milli-mənəvi dəyərlərə sadiqlik dayanır. Ulu öndərin dövlətçilik irsini öyrənən və təbliğ edən, irimiqyaslı proqramların həyata keçirilməsinə dəstək verən Heydər Əliyev Fondunun genişmiqyaslı fəaliyyəti dövründə mədəniyyətin inkişafının xüsusi yer tutması təsadüfi deyil. Artıq Azərbaycan mədəniyyəti, incəsənəti, muğamı beynəlxalq aləmdə özünəməxsus yer tutub. Mən Pakistanın aparıcı kütləvi informasiya vasitəsi olan "Pakistan Observer" qəzetində dərc olunmuş məqalədən bir məqamı oxucuların diqqətinə çatdırmaq istərdim. Həmin məqalədə deyilir: "Mehriban xanım mədəniyyət, təhsil və idman sahələrində həyata keçirilən böyük layihələrin təşəbbüskarıdır. 1995-ci ildən bəri "Azərbaycan Mədəniyyətinin Dostları" Fondu vasitəsilə Mehriban xanım ölkəsinin mədəni zənginliyi haqqında dünya miqyasında təbliğatın daha da genişləndirilməsi, eləcə də festivallar, sərgilər, konsert və digər mədəniyyət tədbirlərinin həyata keçirilməsi təşəbbüsü ilə çıxış etməklə bu zənginliyin milli və regional səviyyələrdə qorunması istiqamətində mühüm işlər görmüşdür. Mehriban xanımın təşəbbüsü ilə Azərbaycan muğamının inkişaf etdirilməsi məq-

sədilə Bakıda Muğam Mərkəzi də yaradılıb". Qəzet həmçinin yazır ki, Mehriban xanımın təşəbbüsü ilə Niaqarada beynəlxalq səviyyədə genişmiqyaslı mədəni tədbir – "Azərbaycan Muğam günləri"nin keçirilməsi Şimali Amerikanın mədəni həyatının mühüm hadisələrindən birinə çevrilmişdir.

Heydər Əliyev Fondu Azərbaycanı mədəniyyətlərarası dialoq-barış məkanına çevirib. Mədəniyyətin inkişafı, dünyaya inteqrasiya etməsi, mədəniyyətə qayğı Heydər Əliyev Fondunun milli-mənəvi irsə necə böyük həssaslıqla yanaşdığını göstərir. Xüsusilə Azərbaycan muğamının dünyada tanınmasında fondun fəaliyyəti yüksək dəyərlərə layiqdir. 2005-ci ildən başlayaraq xalqımızın musiqi incilərindən olan muğamın inkişafı və təbliği ilə bağlı mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirildi. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə görkəmli muğam ustaları dəvət olunmaqla "dəyirmi masa" keçirildi və burada qərara alındı ki, Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzi yaradılsın. Bir müddət sonra Beynəlxalq Muğam Mərkəzinin təntənəli açılışı oldu. Muğam sənətinin inkişafı və qorunması istiqamətində atılan növbəti addım "Qarabağ xanəndələri" musiqi albomunun nəfis şəkildə buraxılması oldu. Fondun təşəbbüsü ilə keçirilən "Muğam dünyası" Beynəlxalq Festivalda isə dünyanın muğam biliciləri Azərbaycana toplaşaraq muğamın qorunub saxlanılması və inkişaf etdirilməsi barədə fikir müba-

diləsi apardılar. Milli sərvətimiz, mənəvi dəyərlərimizin daşıyıcısı olan muğamın təbliğində Heydər Əliyev Fondunun başladığı işlərin bəhrəsi olaraq mədəniyyətlərarası dialoq start götürdü. Beynəlxalq elmi simpoziumda və Beynəlxalq Muğam müsabiqəsində İran, Suriya, İraq, Mərakeş, Özbəkistan, Tacikistan, Qazaxıstan, Misir, Türkiyə, Almaniya və başqa ölkələrin muğam ustaları bir araya gələrək doğma respublikamızın paytaxtı Bakını muğam sənətinin tarixində yeni bir mərhələnin başlanğıcının yazıldığı məkana çevirdilər. Analoqu olmayan bu mədəniyyət proqramı dünyanın tanınmış muğam biliciləri tərəfindən çox yüksək qiymətləndirildi. Bütün bunlar Azərbaycan xalqının mədəni irsinin qorunmasında və beynəlxalq aləmin diqqətinə çatdırılmasında, həmçinin təbliğində böyük əhəmiyyət kəsb edir. Möhtərəm Prezidentimiz, cənab İlham Əliyev də "Muğam dünyası" Beynəlxalq Festivalın açılış mərasimində qeyd etdi ki, muğam Azərbaycanın milli sərvətidir.

Milli mədəniyyətimizin və xalq sənətinin, o cümlədən Şərqin ən qiymətli incisi sayılan muğamın qorunub saxlanılmasında və inkişaf etdirilməsində müstəsna xidmətləri olan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva dünyanın ən tanınmış muğam alimlərinin də iştirak etdikləri həmin tədbirdəki çıxışında demişdir: "Muğam hər bir azərbaycanlının həyatına az qala

doğulduğu andan daxil olur. Bu heyrətamiz musiqi bütün hallarda bizim daxili ovqatımıza uyğun gəlir. O, həmişə yerinə düşür – kədərli və qüssəli anlarımızda da, sevinc və sevgi duyğuları aşıb-daşanda da. Bəli, muğam bizi həyatımızın əvvəlindən sonuna qədər daim müşayiət edir. Muğam fenomeni də məhz ondan ibarətdir ki, o, əsrlər boyu insanı müşayiət etmiş, ona ən qədim dövrlərdən bu günə və gələcəyə körpü olmuşdur. Həqiqətən də ölkəmizi muğamsız, muğamı isə Azərbaycansız təsəvvür etmək çətindir".

Muğamın dünya səviyyəsində tanınmasında, eyni zamanda, milli-mədəni incilərimizin daha geniş təbliğ olunmasında böyük əhəmiyyət kəsb edən belə beynəlxalq səviyyəli tədbirlər yaddaşlarda uzun müddət qalacaq. Çünki məhz bu tədbirlər sayəsində muğamımız, ümumiyyətlə, Azərbaycan mədəniyyəti və incəsənəti çox böyük uğurla dünyaya inteqrasiya olunmuşdur. Azərbaycan muğamı dünyanın musiqi inciləri sırasında özünəməxsus yer tutmuşdur. Onu da qeyd edim ki, Azərbaycan mədəniyyətinin dünyaya uğurlu inteqrasiya olunmasında fondun böyük əhəmiyyət kəsb edən tədbirləri bir-birini əvəz etmişdir. Fondun dəstəyi ilə dünya mədəniyyəti yenidən Azərbaycanda bir araya gəldi. Belə ki, Qəbələ rayonunda keçirilən Beynəlxalq Musiqi Festivalı və pianoçuların beynəlxalq müsabiqəsi diqqətimizi cəlb etməyə bilməzdi. Dünyanın 16 ölkəsindən – ABŞ, Fransa, İsrail, Meksika, Pol-

şa, Rusiya, İtaliya, İspaniya və digər inkişaf etmiş dövlətlərdən gəlmiş məşhur musiqiçilərin iştirak etdiyi bu yüksək səviyyəli tədbir müxtəlif mədəniyyət sahibləri olan çoxsaylı musiqi ustadlarını yenə də Azərbaycanda bir araya gətirdi. Azərbaycan mədəniyyətinin təbliğində müstəsna rol oynayan bu festival həm də ölkəmizin musiqi ənənələrinin dünyada tanıdılmasında böyük əhəmiyyət kəsb edirdi. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva festival iştirakçılarına göndərdiyi təbrik məktubunda yazırdı: "Dünyanın tanınmış musiqi xadimlərinin iştirakı ilə keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı və pianoçuların beynəlxalq müsabiqəsi yeni istedadların aşkara çıxarılmasına, gənclərin peşəkarlarla görüşünə və onların sənətin incəliklərini öyrənməsinə imkan verəcəkdir. Festival çərçivəsində məşhur pianoçuların təşkil edəcəyi ustad dərsləri gənc musiqiçilər üçün böyük töhfə olacaqdır".

Bu tədbiri Beynəlxalq Muğam Festivalının davamı kimi dəyərləndirən tanınmış ekspertlərin fikrincə, belə müsabiqələrin keçirilməsi Azərbaycanı mədəniyyətlərarası dialoq-barış məkanına çevirir. Bununla yanaşı, dahi bəstəkarlarımızın, tanınmış mədəniyyət və incəsənət xadimlərimizin yubiley tədbirlərinin təntənəli keçirilməsi mədəniyyətimizə, klassik musiqi mədəniyyətimizə hörmət və ehtiramın nəticəsidir. Dünya şöhrətli D. Şostakoviçin yubiley gecəsi, artıq ənənə halını almış beynəlxalq Rostropo-

viç musiqi festivalları Heydər Əliyev Fondunun adı ilə bağlıdır. Belə tədbirlərdə Azərbaycanla yanaşı Amerika, İtaliya, Fransa kimi ölkələrin tanınmış musiqiçiləri və dirijorlarının da çıxış etməsi ölkəmizin yüksək musiqi mədəniyyətinə malik olmasından xəbər verir.

Heydər Əliyev Fondu Azərbaycanın mədəniyyət tarixində silinməz iz buraxacaq layihələrin həyata keçirilməsində fəaliyyətini davam etdirir. Belə layihələr Azərbaycan mədəniyyətinə öz töhfəsini verən sənətkarlara, mədəniyyət nümayəndələrinə səmərəli fəaliyyət göstərmək üçün geniş imkanlar, əlverişli şərait yaradır. Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə tanınması ilə yanaşı, xalqımızın dünya musiqi mədəniyyətinə yaxından bələd olması istiqamətində davamlı iş gedir. Heydər Əliyev Fondu, şəxsən fondun prezidenti Mehriban xanım Əliyeva təkcə Azərbaycanda deyil, eləcə də beynəlxalq mədəni proseslərdə yaxından iştirak edir, xüsusilə mədəniyyətlərarası dialoqla bağlı təşəbbüslərə xüsusi diqqət göstərir. Onun qayğısı və təşəbbüsü ilə mədəni müxtəlifliyə, mədəniyyətlər və dinlərarası dialoqa həsr edilmiş nüfuzlu beynəlxalq konfranslar təşkil olunub. Bakıda keçirilən qadınların mədəniyyətlər və dinlərarası dialoqda rolunun artırılmasına dair beynəlxalq konfrans xüsusilə qeyd olunmalıdır. Onu da qeyd edək ki, bu konfrans beynəlxalq aləmdə də yüksək qiymətə layiq görülüb. Tarixi-dini, mədəni abidələrin qorunması və bərpası həmişə fondun prezidentinin diqqət mərkəzində

olub. Fond, həmçinin digər dinlərə və mədəniyyətlərə məxsus abidələrin də bərpasına böyük qayğı ilə yanaşır. Heydər Əliyev Fondunun Fransanın Versal sarayında iki abidənin də bərpasına maliyyə dəstəyi verməsi mədəniyyətə olan qayğının bariz nümunəsidir. Beynəlxalq miqyasda böyük layihələrin həyata keçirilməsi təkcə bununla kifayətlənmir. Strasburq şəhərinin meri Rolan Risin dedikləri də bunu təsdiqləyir. O deyib: "Heydər Əliyev Fondunun Strasburq Kafedral kilsəsinin təmirinə ayırdığı maliyyə yardımı səxavətli bir jest və Azərbaycanın Avropaya, onun mədəni irsinə verdiyi töhfə kimi qiymətləndirilir. Azərbaycan Avropa Şurasının üzvüdür. Azərbaycan öz mədəni irsinə diqqət göstərməklə yanaşı, Avropa mədəni irsinə də diqqət və qayğı göstərir. Orta əsrlərdə xristianlığın ən yüksək kilsəsi olan Strasburq Kafedral kilsəsi də Avropa mədəni irsinin bir parçasıdır. Mədəniyyət sahəsində fəal iştirak edən Heydər Əliyev Fondu beynəlxalq arenada Azərbaycanın müsbət imicinin formalaşması və təşviqinə böyük diqqət göstərir. Bu təqdirəlayiqdir".

## *ULU ÖNDƏRİN XATİRƏSİ HƏR ZAMAN YAŞAYIR*






## *M Ü N D Ə R İ C A T*

1."Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........................................................4
2. XX əsrin mədəniyyət tarixində yeni dövr ......................................................9
3. Azərbaycan Kinosu Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........................................................16
4. Heydər Əliyev və müstəqil Azərbaycanın mədəniyyət siyasəti ....................17
5. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ..........................27
6. İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ..........................................................................30
7. Heydər Əliyev - Azərbaycan mədəniyyətinin ən böyük himayədarı və qayğıkeşi ..........................................................................................32
8. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........................................................................52
9. Mikayıl Əbdülqədir oğlu İsmayılzadənin (Mikayıl Müşfiqin) 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........................................................................................58
10. Heydər Əliyev və Azərbaycan teatrı ..........................................................64
11. Heydər Əliyevin Nizami Gəncəvi təəssübkeşliyi ...........................................88
12. Mill konomuzun inkişafında Heydər Əliyevin xidmətləri ........................104
13. Kinematoqrafiya haqqında Azərbaycan Respublikasının Qanunu .......... 112
14. Azərbaycan kinosu müstəqillik dövründə ...................................................126
15. "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ..........................................................129
16. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı ...................................................130
17. Milli musiqi mədəniyyətimiz və azərbaycançılıq .........................................137
18. Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu ........................151
19. Azərbaycan mədəniyyəti və incəsənətinin dünyaya inteqrasiyasında Heydər Əliyev Fondunun müstəsna rolu .................................................171

*Çap evinin direktoru:* Toğrul Abasov

*Tərtibat: Zibər İsayeva*

*Üz qabığının tərtibatı:* Ariz Babayev

***Kitab “STAR”çap evində səhifələnmiş və çap edilmişdir.***

Çapa imzalanıb: 17.12.2023
Format: 60x90 1/16.
Həcmi: 12,06 ç.v., Sifariş № 200

Tirajı: 300

STAR çap evi
GRAFİKA ÇAP DİZAYN

Gəncə, Cavadxan küç., 43
+994 55 624 34 44, +994 22 266 06 63
+994 55 930 06 63
e-mail:6243444@mail.ru